Xalqın qəzeti!

# Xalq qəzeti

№ 89 (30783) 3 may 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# "Şahdəniz" – Azərbaycanı qaz ölkəsinə çevirən xəzinə

## İndiyədək bu yataqdan 243,6 milyard kubmetr qaz və 49,6 milyon ton kondensat çıxarılıb



**Azərbaycanı Avropada strateji enerji tərəfdaşına, dünyanın potensial qaz ölkəsinə çevirən "Şahdəniz" yatağının ehtiyatlarının işlənməsi uğurla davam etdirilir. "BP-Azərbaycan" şirkətinin 2025-ci ilin birinci rübünün nəticələrinə dair hesabatına əsasən, yanvar–mart aylarında "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 726 milyon dollar, əsaslı məsrəflərinə isə 213 milyon dollar xərclənib. Həmin vəsaitin əsas hissəsi hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf olunub.**

Məlumatda bildirilir ki, cari ilin ilk rübü ərzində qazın "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Hazırda həmin qurğuların gündəlik hasilat gücü, təxminən, 76,4 milyon kubmetr (ildə 27,9 milyard kubmetr) təşkil edir.

*(ardı 11-ci səhifədə)*

# Ermənistanda revanşizm: iddia köhnə, çağırış isə yenidir

**Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzrə danışıqlar prosesinin başa çatması, eləcə də sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində müəyyən irəliləyiş əldə olunması ölkədəki revanşist qüvvələri də fəallaşdırıb. Onlar hərəkətə keçərək gərginlik yaratmağa çalışırlar. Biz bunun örnəyini 2024-cü ilin yazında görmüşük. Həmin il aprelin 19-da Qazax rayonunun uzun illər erməni işğalı altında qalan 4 kəndinin (Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı) qaytarılması Ermənistanda etirazlara səbəb olmuşdu.**



İndi isə radikallar Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasından Müstəqillik bəyannaməsinə istinadın çıxarılması, eləcə də ATƏT-in Minsk qrupunun ləğv olunması məqsədilə təşkilatın katibliyinə birgə müraciət edilməsi tələbi ətrafında hay-küy qaldırıblar. Belə ünsürlərdən biri də parlamentdəki "Şərəfim var" fraksiyasının katibi Tiqran Abramyandır. O, özünün "Facebook" hesabında yazıb ki, Ermənistanda qaydasız döyüş prinsipinə əsaslanan diktatura qurulur. Əlbəttə, əgər Abramyan xislətinə sadiq qalaraq bu məsələdə də Azərbaycanın adını hallandırmasaydı, biz onun fikirlərinə heç əhəmiyyət verməzdik. Amma onun yenə də ölkəmizlə bağlı hətərən-pətərən danışması bizi bu məsələyə reaksiya verməyə məcbur etdi.

*(ardı 7-ci səhifədə)*

# Çinin Azərbaycana minatəmizləmə dəstəyi



**Çin və Azərbaycan səmimi, mehriban, dost və qarşılıqlı fayda əldə etməyə çalışan bərabərhüquqlu, etibarlı tərəfdaşlardır. İki ölkə arasında diplomatik münasibətlərin qurulduğu andan indiyədək ikitərəfli əlaqələr sağlam və sabit şəkildə inkişaf edir. Bunun nəticəsidir ki, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələr genişlənir. Eyni zamanda, "Bir kəmər, bir yol" layihəsi və Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika sahəsində əməkdaşlıq böyük önəm daşıyır və böyük perspektivlər vəd edir.**

2025-ci il aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinin nüfuzlu "Sinxua" agentliyinə verdiyi müsahibədə Azərbaycan–Çin münasibətlərinin strateji xəttini, gələcək prioritetlərini geniş və əhatəli şəkildə nümayiş etdirdi. Müsahibədə Azərbaycan–Çin əməkdaşlığının iki ölkənin əlaqələrinin qlobal miqyas aldığını göstərdi. Dövlət başçımızın Çinə səfəri zamanı tərəflər arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın gücləndirilməsi barədə Anlaşma Memorandumun imzalanması Pekinin işğaldan azad olunmuş ərazilərimizin minadan təmizlənməsi və inkişafında maraqlı olduğunu göstərdi.

*(ardı 7-ci səhifədə)*

## Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 550,0 (beş yüz əlli) min manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 may 2025-ci il**

*3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür*

## Yubileyə zəngin təcrübə və yeni yanaşma ilə gedirik




Səhifə ⇨ 9

## Hindistan gərginliyi niyə artırır?



Səhifə ⇨ 6

# Haysayağı "biət"

## Xocalı cəlladı Vitali Balasanyan Rusiya Prezidentinə yalvarış məktubu göndərib



**Qarabağ canisi Vitali Balasanyan sakitliyi pozub. Özü də birbaşa Rusiya Prezidenti Vladimir Putinə müraciət ünvanlamaqla. Bəri başdan deyək ki, cəllad Balasanyanın Kreml rəhbərinə məktubu Böyük Vətən müharibəsindəki qələbənin 80 illiyi ilə bağlı olub. Amma sənəd daha çox yalvarış və belə demək mümkünsə, "biət manifesti" təsiri bağışlayır. Təxminən belə: Rusiya gəlib hayları himayəsinə alsın və ermənilər yenidən azğınlaşsınlar. Görünür, hay azğınlığın Qərb trayektoriyası Vitalini qane etmir.**

Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında reallaşdırdığı lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra Qarabağdan tülkü kimi qaçıb Ermənistana sığınan Vito ləqəbli cani məktubunda sentimentallığa güc verib. O, bir sıra məqamlara toxunmaqla, özü də fərqinə varmadan tarixi reallıqları açıqlayıb. Sonda söhbətin hansı tarixi reallıqlardan getdiyini bildirib nəticəyə gələcəyik. Hələlik isə Vitonun məktubunda nələri yazdığına nəzər salaq.

**(ardı 5-ci səhifədə)**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 144 Bakı şəhəri, 1 may 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 39 nömrəli, "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarına qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 40 nömrəli, "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nın təsdiq edilməsi və "Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 119 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 20 may tarixli 229 nömrəli, "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2019-cu il 20 may tarixli 230 nömrəli, "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 23 mart tarixli 106 nömrəli və "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 aprel tarixli 156 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-1-ci bənddə "ali təhsil müəssisələrinə sənəd qəbulu" sözləri "yaz və yay sessiyalarının hər birində ali təhsil müəssisələrinə imtahanda iştirak üçün qeydiyyat" sözləri ilə əvəz edilsin;

1.2. 2.3-2-ci bənddə "ali təhsil müəssisələrinə sənəd qəbulu" sözləri "hər sessiyada ali təhsil müəssisələrinə imtahanda iştirak üçün qeydiyyat" sözləri ilə əvəz edilsin və həmin bənddən ", yaxud hər iki altqrupu" sözləri çıxarılsın;

1.3. 3.8-ci bəndin üçüncü cümləsinə "qrupu" sözündən sonra "(altqrupu)" sözü əlavə edilsin;

1.4. 3.9-2-ci bənd ləğv edilsin;

1.5. 5.1-ci bəndin ikinci cümləsinə "qrup" sözündən sonra "(altqrup)" sözü əlavə edilsin;

1.6. 5.4-cü bəndin birinci cümləsində "olan," sözü "olan ixtisaslar, o cümlədən" sözləri ilə əvəz edilsin;

1.7. həmin Qaydalara 1 nömrəli əlavə – "İxtisas qrupları və ixtisaslar" aşağıdakı redaksiyada verilsin:

## "İxtisas qrupları və ixtisaslar

| İxtisas qrupları (**altqrupları**) | | | | | | |
|---|---|---|---|---|---|---|
| **I** | | **II** | **III** | | **IV** | **V** |
| **Riyaziyyat-kimya (RK) altqrupu** | **Riyaziyyat-informatika (Rİ) altqrupu** | | **Dil-tarix (DT) altqrupu** | **Tarix-coğrafiya (TC) altqrupu** | | |
| İxtisasların adı | | | | | | |
| 1. Fizika müəllimliyi | 1. İnformatika (rəqəmsal bacarıqlar) müəllimliyi | 1. Coğrafiya müəllimliyi | 1. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 1. Beynəlxalq münasibətlər | 1. Biologiya müəllimliyi | 1. Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi* |
| 2. Riyaziyyat müəllimliyi | 2. Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi | 2. Tarix və coğrafiya müəllimliyi | 2. Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) | 2. Regionşünaslıq (regionlar və ya ölkələr üzrə) | 2. Kimya müəllimliyi | 2. Musiqi müəllimliyi* |
| 3. Texnologiya müəllimliyi | 3. Kompüter elmləri | 3. Sosiologiya | 3. Xarici dil müəllimliyi (dillər üzrə) | | 3. Kimya və biologiya müəllimliyi | 3. Təsviri incəsənət müəllimliyi* |
| 4. Fizika | 4. Data analitikası | 4. Davamlı inkişaf | 4. Xüsusi pedaqogika | | 4. Psixologiya | 4. Aktyor sənəti (sahələr üzrə)* |
| 5. Geologiya | 5. İnformasiya texnologiyaları | 5. Beynəlxalq ticarət və logistika | 5. İbtidai sinif müəllimliyi | | 5. Biologiya | 5. Bəstəkarlıq* |
| 6. Mexanika | 6. İnformasiya təhlükəsizliyi | 6. Biznesin idarə edilməsi | 6. Məktəbəqədər təhsil | | 6. Biotex-nologiya | 6. Dekorativ-tətbiqi sənət (sahələr üzrə)* |
| 7. Riyaziyyat | 7. Kompüter mühəndisliyi | 7. Dövlət və bələdiyyə idarəetməsi | 7. Tarix müəllimliyi | | 7. Ekologiya | 7. Dirijorluq (sahələr üzrə)* |
| 8. Riyaziyyat və fizika müəllimliyi | 8. Mexatronika və robototexnika mühəndisliyi | 8. İqtisadiyyat | 8. Təhsildə sosial-psixoloji xidmət | | 8. Kimya | 8. Dizayn (sahələr üzrə)* |
| 9. Aerokosmik mühəndislik | 9. Proqram təminatı mühəndisliyi | 9. Maliyyə | 9. Dinşünaslıq | | 9. Su bioehtiyatları və akvakultura | 9. Heykəltəraşlıq* |
| 10. Aqromühəndislik | 10. Proseslərin avtomatlaşdırılması mühəndisliyi | 10. Marketinq | 10. Dövlət və ictimai münasibətlər | | 10. Bağçılıq və tərəvəzçilik | 10. Xoreoqrafiya sənəti (sahələr üzrə)* |
| 11. Aviasiya təhlükəsizliyi mühəndisliyi | 11. Sistemlər mühəndisliyi | 11. Menecment | 11. Fəlsəfə | | 11. Baytarlıq təbabəti | 11. İnstrumental ifaçılıq (sahələr üzrə)* |
| 12. Cihaz mühəndisliyi | | 12. Mühasibat | 12. Filologiya (dil və ədəbiyyat göstərilməklə) | | 12. Bitki mühafizəsi | 12.Musiqişünaslıq* |
| 13. Dəniz naviqasiyası mühəndisliyi | | 13. Coğrafiya | 13. Hüquqşünaslıq | | 13. Əczaçılıq | 13. Operator sənəti* |
| 14. Ekologiya mühəndisliyi | | 14. Hidromete-orologiya | 14. İslamşünaslıq | | 14. Fizioterapiya | 14. Qrafika* |
| 15. Elektrik və elektronika mühəndisliyi | | 15. Statistika | 15. Jurnalistika * | | 15. İctimai səhiyyə | 15. Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)* |
| 16. Energetika mühəndisliyi | | 16. İdman menecmenti və kommunikasiya | 16. Kitabxanaçılıq və informasiya fəaliyyəti | | 16. Qidalanma və diyetologiya | 16. Rejissorluq (sahələr üzrə)* |
| 17. Geologiya və geofizika mühəndisliyi | | 17. Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) | 17. Kommunikasiya və rəqəmsal media | | 17. Tibb bacısı (qardaşı) işi | 17. Rəngkarlıq* |
| 18. Geomatika və geodeziya mühəndisliyi | | 18. Turizm bələdçiliyi | 18. Politologiya | | 18. Hərbi tibb | 18. Vokal sənəti (sahələr üzrə)* |
| 19. Gəmi energetik qurğularının istismarı mühəndisliyi | | 19.Turizm işinin təşkili | 19. Tarix | | 19. Stomato-logiya | 19. Adaptiv bədən tərbiyəsi* |
| 20. Gəmiqayırma və gəmi təmiri mühəndisliyi | | | 20. Tərcümə (dillər üzrə) | | 20. Tibb | 20. Kütləvi-sağlamlaşdırıcı idman* |
| 21. Hava nəqliyyatının hərəkətinin təşkili | | | 21. Ədəbi yaradıcılıq və ekran dramaturgiyası | | | 21. Məşqçilik* |
| 22. Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi | | | 22. Muzey, arxiv işi və abidələrin qorunması | | | 22. Ümumi fiziki hazırlıq* |
| 23. İnşaat mühəndisliyi | | | 23. Sənətşünaslıq (sahələr üzrə) | | | |
| 24. Kənd təsərrüfatı texnologiyaları | | | 24. Sosial iş | | | |
| 25. Kimya mühəndisliyi | | | 25. Dövlət təhlükəsizliyi və idarəetmə | | | |
| 26. Kommunikasiya sistemləri mühəndisliyi | | | 26. İctimai təhlükəsizlik və idarəetmə | | | |
| 27. Qida mühəndisliyi | | | | | | |
| 28. Qida texnologiyaları | | | | | | |
| 29. Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi | | | | | | |
| 30. Maşın mühəndisliyi | | | | | | |
| 31. Materiallar mühəndisliyi | | | | | | |
| 32. Mexanika mühəndisliyi | | | | | | |
| 33. Meliorasiya mühəndisliyi | | | | | | |
| 34. Memarlıq* | | | | | | |
| 35. Metallurgiya mühəndisliyi | | | | | | |
| 36. Mədən mühəndisliyi | | | | | | |
| 37. Mühəndislik fizikası | | | | | | |
| 38. Neft-qaz mühəndisliyi | | | | | | |
| 39. Nəqliyyat mühəndisliyi | | | | | | |
| 40. Nəqliyyat tikintisi mühəndisliyi | | | | | | |
| 41. Radiotexnika və telekommunikasiya mühəndisliyi | | | | | | |
| 42. Sənaye mühəndisliyi | | | | | | |
| 43. Şəhərsalma | | | | | | |
| 44. Şərabçılıq | | | | | | |
| 45. Uçuş mühəndisliyi | | | | | | |
| 46. Yanğın təhlükəsizliyi mühəndisliyi | | | | | | |
| 47. Aqronomluq | | | | | | |
| 48. Balıqçılıq | | | | | | |
| 49. Heyvandarlıq | | | | | | |
| 50. Meşəçilik | | | | | | |
| 51.Torpaqşünaslıq və aqrokimya | | | | | | |
| 52. Yerquruluşu və daşınmaz əmlakın kadastrı | | | | | | |
| 53. Zoomühəndislik | | | | | | |
| 54. Xüsusi rabitə vasitələri mühəndisliyi | | | | | | |
| 55. Sərhəd təhlükəsizliyi və idarəetmə | | | | | | |
| 56. Silah sistemləri mühəndisliyi | | | | | | |

* Bu ixtisaslar xüsusi qabiliyyət tələb edən ixtisaslardır.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 293 (Cild I); 2024, № 3, maddə 307, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarına qəbul Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2.4-cü yarımbəndə "Azərbaycan ədəbiyyatı" sözlərindən sonra "ilə bağlı olan ixtisaslaşmalarına" sözləri əlavə edilsin;

2.2. 3.2.5-ci və 3.2.6-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.2.5. filologiya ixtisasının xarici dil və xarici ölkə ədəbiyyatı ilə bağlı olan ixtisaslaşmalarına, habelə tərcümə ixtisasının ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar ixtisaslaşma dilini xarici dil kimi seçə bilməzlər;

3.2.6. regionşünaslıq ixtisasının Amerika, ABŞ, Kanada, Böyük Britaniya üzrə ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi yalnız ingilis dilini, Almaniya üzrə ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, Fransa üzrə ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini seçməlidirlər.";

2.3. 3.4-cü bənddə "üzrə magistratura ixtisaslaşmalarına" sözləri "ixtisası üzrə ixtisaslaşmalara" sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qabiliyyət imtahanının nəticəsi balla, habelə "məqbul" və ya "qeyri-məqbulla qiymətləndirilir.";

2.4. 3.5-ci və 4.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.5. Magistratura səviyyəsi üzrə Azərbaycan İdman Akademiyasının tədrisi ingilis dilində olan ixtisaslaşmalarına, "ADA" Universitetinə, Moskva Dövlət Universitetinin Bakı filialına, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına, Hərbi Elmi Tədqiqat İnstitutuna, Hərbi İdarəetmə İnstitutuna, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasına, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasına və "Birgə Azərbaycan-Fransız Universiteti (UFAZ)"nə qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər.";

"4.5. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarını və "jurnalistika" ixtisası üzrə ixtisaslaşmaları qəbul imtahanını verdikdən sonra Mərkəz tərəfindən elan edilən müddətdə Mərkəzin rəsmi internet saytında qeydiyyatdan keçən, qabiliyyət imtahanında iştirak edən və qabiliyyət imtahanlarında göstərdikləri nəticə müsabiqə şərtlərinə uyğun olan bakalavrlar seçə bilərlər.";

2.5. 4.2-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nda nəzərdə tutulduğu hallarda ali təhsilin bakalavriat səviyyəsində aldıqları ixtisasdan asılı olmayaraq xüsusi təyinatlı ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq istəyən bakalavrlara həmin ali təhsil müəssisələrində kadr hazırlığı aparılan ixtisasların təhsil proqramları ilə müəyyən edilən ixtisaslaşmaları seçmək hüququ verilir.";

2.6. aşağıdakı məzmunda 5.3-1-ci bənd əlavə edilsin:

"5.3-1. Qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən, xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalar üzrə müsabiqə bakalavrın qabiliyyət imtahanlarında topladığı yekun bal əsasında aparılır. Yekun balı eyni olan iki və daha çox bakalavrı bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

5.3-1.1. magistraturaya qəbul imtahanında toplanılan bal;

5.3-1.2. ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

(əvvəli 2-ci səhifədə)

5.3-1.3. ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü) yoxlayan testdən toplanılan bal;

5.3-1.4. xarici dil üzrə testdən toplanılan bal.”.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 963 (Cild I); 2024, № 3, maddə 330, № 5 (II kitab), maddə 611; 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş “Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2.1-ci yarımbəndin 4-cü abzasında “korreksiyaedici təlim” sözləri “xüsusi pedaqogika” sözləri ilə əvəz edilsin;

3.2. 2.2.4-cü yarımbəndin 3-cü abzasına və 2.2.8-ci yarımbəndin 1-ci və 2-ci abzaslarına “informatika” sözündən sonra “(rəqəmsal bacarıqlar)” sözləri əlavə edilsin;

3.3. 2.2.5-ci yarımbəndin 8-ci abzasında “mühəndis” sözü “mühəndislik” sözü ilə əvəz edilsin;

3.4. 2.3.19-cu yarımbənddə “estrada sənəti” sözləri “populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 964 (Cild I); 2024, № 3, maddə 330, № 5 (II kitab), maddə 611; 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları”nın 4.11-ci və 4.12-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

“4.11. Bu Qaydaların 4.10-cu bəndində nəzərdə tutulan ixtisas qrupları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı” və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı” ilə müəyyən edilir.

4.12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı”nın “Təbiət ixtisasları qrupu”na və “Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə ixtisaslar Təsnifatı”na daxil olan ixtisaslar üzrə bakalavriat səviyyəsini (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisəsinə köçürüldüyü ixtisasların siyahısı Nazirlik tərəfindən müəyyən olunur.”.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 mart tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 367 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş “Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası”na 1 nömrəli əlavə - “Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanında iştirak etmək üçün tələb olunan ixtisaslar” aşağıdakı redaksiyada verilsin:

Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanında iştirak etmək üçün tələb olunan ixtisaslar*

| Sıra №-si | Təhsilin pillələri və səviyyələri | Kənd təsərrüfatı bitkilərinin və bitkiçilik məhsullarının (çoxillik əkmələr də daxil olmaqla) sığortası üzrə | Kənd təsərrüfatı heyvanlarının və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanların sığortası üzrə | Akvakultura məhsullarının sığortası üzrə |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | **Peşə təhsili üzrə ixtisaslar** | üzüm ustası;<br>tərəvəz ustası;<br>meyvə-tərəvəz ustası;<br>bitki mühafizəsi ustası;<br>tütün ustası;<br>maya göbələyi yetişdirən usta;<br>gülbecərən usta;<br>çaybecərən usta;<br>efir yağlı bitkilər mütəxəssisi;<br>çəltikçi;<br>pambıqçı;<br>baramaçı;<br>bağban;<br>yaşıl təsərrüfat fəhləsi | heyvandarlıq kompleksləri və mexanikləşdirilmiş fermaların mexanizatoru, elektrik montyoru;<br>heyvandarlıq kompleksləri və mexanikləşdirilmiş fermaların operatoru;<br>heyvanlarda süni mayalanma üzrə texnik;<br>mexanikləşdirilmiş heyvandarlıq fermalarının və komplekslərin mexanizatoru və elektrik montyoru;<br>maşınla sağım operatoru;<br>quşçuluq fabriklərinin və mexanikləşdirilmiş fermaların operatoru;<br>arıçı | |
| 2. | **Orta ixtisas təhsili üzrə ixtisaslar** | şərabçılıq və qıcqırtma istehsalatının texnologiyası;<br>taxıl və taxıl məhsullarının texnologiyası;<br>aqrar (fermer) təsərrüfatının təşkili;<br>aqronomluq;<br>aqroturizm;<br>bağçılıq və tərəvəzçilik;<br>hidromeliorasiya və torpaq mühafizəsi;<br>istixana təsərrüfatı;<br>meşə və park;<br>pambıqçılıq;<br>ipəkçilik | süd və süd məhsullarının texnologiyası;<br>baytarlıq;<br>zootexniklik | su bioehtiyatları və akvakultura;<br>balıq və balıq məhsullarının texnologiyası |
| 3. | **Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisaslar** | biologiya;<br>biotexnologiya;<br>aqromühəndislik;<br>aqronomluq;<br>bağçılıq və tərəvəzçilik;<br>bitki mühafizəsi;<br>meşəçilik;<br>şərabçılıq;<br>torpaqşünaslıq və aqrokimya;<br>coğrafiya;<br>ekologiya;<br>geologiya;<br>qida mühəndisliyi;<br>qida texnologiyaları | baytarlıq təbabəti;<br>zoomühəndislik;<br>heyvandarlıq | balıqçılıq;<br>su bioehtiyatları və akvakultura;<br>biologiya |
| 4. | **Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisaslar**** | biologiya;<br>coğrafiya;<br>hidrometeorologiya;<br>geologiya;<br>ekologiya;<br>qida mühəndisliyi;<br>torpaqşünaslıq və aqrokimya;<br>aqronomluq;<br>yerquruluşu və daşınmaz əmlakın kadastrı;<br>aqromühəndislik;<br>meşəçilik | zoomühəndislik;<br>baytarlıq təbabəti;<br>heyvandarlıq elmləri | balıqçılıq;<br>su bioehtiyatları və akvakultura;<br>biologiya |

* Əvvəlki illərdə ali və orta ixtisas təhsili müəssisələrini bitirən məzunların ixtisaslarının (ixtisaslaşmalarının) bu siyahıda verilmiş ixtisaslara (ixtisaslaşmalara) uyğunluğu məsələsi ilə bağlı Mərkəzlə razılaşdırılmaqla Fond tərəfindən müvafiq qərar qəbul edilir.

** İmtahanda bu siyahıda qeyd edilmiş ixtisasların bütün ixtisaslaşmaları üzrə məzunları iştirak edə bilərlər.”.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 502 (Cild I); 2024, № 3, maddə 330) ilə təsdiq edilmiş “Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası”na əlavə - “Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) ümumi təhsil pilləsində tədris olunan fənlərə uyğunluğu” cədvəlindən sonra göstərilmiş qeydlər aşağıdakı redaksiyada verilsin:

“* 1993-cü ilədək ali təhsil pilləsinə, 1993/1994-2009/2010-cu tədris illərində ali təhsilin bakalavr pilləsinə bu ixtisaslar üzrə qəbul olunanlar pedaqoji təhsilə malik olan şəxslər hesab edilirlər.

** 1993-2020-ci illərdə qüvvədə olan ixtisaslar təsnifatlarında mövcud olan ixtisaslar (proqramlar) nəzərdə tutulur.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 143 Bakı şəhəri, 29 aprel 2025-ci il**

**“Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 avqust tarixli 279 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 avqust tarixli 279 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 965 (Cild I); 2024, № 2, maddə 237, № 7, maddə 925) aşağıdakı dəyişikliklər edilsin:

**1** İkinci abzas 1-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

“2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2** Həmin Qərarla təsdiq edilmiş “Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası” üzrə:

2.1. 3.4-cü bəndin ikinci cümləsinə “Xidmətindən” sözündən sonra “, xarici media subyektlərinin nümayəndələrinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətindən” sözləri əlavə edilsin;

2.2. 6-cı hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# YAP Veteranlar Şurasına yeni üzvlər seçilib

**Dünən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib.**

Əvvəlcə YAP Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə yeni üzvlərin daxil edilməsi məsələsinə baxılıb, Arif Qaraşov və Fidumə Hüseynovanın Veteranlar Şurasının üzvlüyünə namizədliyi ətrafında müzakirələr aparılıb. YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Bahar Muradova çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədiklərini bildiriblər.

Müzakirələrdən sonra hər iki namizədin YAP Veteranlar Şurasının tərkibinə daxil edilməsi barədə qərar qəbul olunub.

YAP Sədrinin müavini Veteranlar Şurasının yeni üzvlərini təbrik edərək onların etimadı doğruldacaqlarına inamını ifadə edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Arif Qaraşov və Fidumə Hüseynova göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

***XQ***

# Milli Məclisdə kiberhücum müzakirəsi



**Dünən Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının “Azərbaycanın media resurslarına 20 fevral hücumları: kibermüdaxilədən dezinformasiyaya” mövzusunda ictimai müzakirə keçirilib.**

Müzakirədə Milli Məclisin deputatları, ölkənin beyin mərkəzlərinin nümayəndələri, media və vətəndaş cəmiyyətinin təmsilçiləri, kibertəhlükəsizlik sahəsində mütəxəssislər, ekspertlər və digər şəxslər iştirak ediblər.

Müvəqqəti komissiyanın sədri Ramid Namazov bildirib ki, cari il fevralın 20-də ölkə ərazisində fəaliyyət göstərən bir sıra aparıcı media resurslarına qarşı kiberhücumlar həyata keçirilib. Aparılan araşdırmalar nəticəsində bu hücumların ölkəmizdə indiyə qədər qeydə alınmış ən ciddi kibermüdaxilələrdən biri olduğu müəyyənləşib.

Kiberhücumlar barədə ətraflı məlumat verən “GlobalMedia Group”un İdarə Heyətinin üzvü Orxan Məmmədov baş vermiş insident və müzakirə olunan mövzu ilə bağlı fikirlərini bildirib. Müzakirəyə qoşulan deputatlar və media təmsilçiləri qeyd və təkliflərini səsləndiriblər.

Müzakirəyə yekun vuran Ramid Namazov səslənən fikirləri ümumiləşdirərək bildirilən tövsiyələri səsləndirib.

***XQ***

# Türk Ağsaqqalları ŞKTR-də




**Mayın 2-də Şimali Kipr Türk Respublikasının Girne şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının 17-ci iclası keçirilib.**

Tədbirdə TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Azərbaycanı təmsil edən ağsaqqal Həsən Həsənov, eləcə də ŞKTR, Qazaxıstan, Qırğızıstan və digər türkdilli ölkələrin nümayəndələri iştirak ediblər.

Açılışda çıxış edən Binəli Yıldırım Türk dünyasının həmrəyliyini gücləndirən bu cür görüşlərin ŞKTR-də keçirilməsini xüsusi önəmli hadisə kimi dəyərləndirib. O, Lefkoşanın müşahidəçi statusu qazanmasını “tarixi qərar” adlandırıb.

Binəli Yıldırım qeyd edib ki, ŞKTR-nin müxtəlif sahələrdəki dinamik inkişafı onun regiondakı mövqeyini daha da möhkəmləndirir. Bu baxımdan o, hazırda Lefkoşada davam edən “TEKNOFEST-2025” texnologiya festivalını bunun bariz nümunəsi kimi göstərib.

İclas çərçivəsində ağsaqqallar ŞKTR-nin xarici işlər naziri Tahsin Ertuğrul ilə də görüş keçiriblər. Görüşdə qarşıdakı dövr üçün nəzərdə tutulan plan və layihələr ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# "Avropa evi" dağılır, yoxsa təmir edilir?

**Avropa İttifaqı daxilində baş verən siyasi çəkişmələr artıq sadə ideoloji fikir ayrılığı deyil, strateji dönəmin göstəricisidir. Suverenliklə federalizm, Şərqlə Qərb, liberal dəyərlərlə milli kimlik arasında sıxılmış "Avropa evi" sanki təmirə möhtac köhnə tikiliyə bənzəyir. Günün sualı daha kəskindir: Bu ev dağılacaqmı, yoxsa möhkəmləndiriləcək gələcək nəsillərə ötürüləcək?**



Avropa İttifaqı (Aİ) bir zamanlar "Vahid bazar, vahid dəyərlər, vahid gələcək" ideyası ilə dünya üçün model kimi təqdim olunurdu. Lakin son onillikdə Aİ-nin daxilində baş verən siyasi çəkişmələr, milli hökumətlər arasında dərinləşən fikir ayrılıqları və hüquqi qarşıdurmalar bu ideyanı ciddi şəkildə sarsıdıb. Mühacirət böhranı, hüququn aliliyi prinsipi, təhlükəsizlik siyasəti, enerji və ətraf mühit problemləri ətrafında yaşanan gərginliklər Avropa inteqrasiyasını təkamüldən çox tənəzzülə sürükləyir.

Avropa İttifaqı daxilindəki siyasi gərginliklər çox zaman struktur problemlər və idarəetmə böhranı kimi təqdim olunsa da, əslində, bu mübahisələrin dərin ideoloji kökləri var. Mövcud köklər siyasi nəzəriyyənin iki əsas istiqaməti arasında – federalizm və suverenizm arasında – gedən ziddiyyətli münasibətlərdə aydın görünür. Avropa inteqrasiyası prosesinə başlanıldıqda məqsəd nə qədər iqtisadi maraqların birləşdirilməsi olsa da, zamanla siyasi birlik ideyası ön plana çıxdı. Məhz bu nöqtədə federalist yanaşma ilə suverenist mövqelər bir-birinə qarşı çevrildi.

Federalizm tərəfdarları, xüsusilə Almaniya, Fransa və Benilüks ölkələri Aİ-nin yalnız iqtisadi platforma olaraq qalmamalı, vahid siyasi iradəyə, ortaq xarici və müdafiə siyasətinə sahib güclü bir aktora çevrilməsini arzulayırlar. Onlar hesab edirlər ki, dünya səhnəsində təsirli olmaq üçün Aİ-nin milli dövlətlərdən üstün, fövqəlmilli bir quruma çevrilməsi vacibdir və onların baxışı xüsusilə qlobal miqyasda Çin və ABŞ kimi iri güclərin qarşısında Aİ-nin dağınıq və zəif görünməsinin qarşısını almağa yönəlib.

Lakin bu yanaşma Aİ-nin bütün üzv dövlətləri tərəfindən eyni şəkildə qəbul edilmir. Polşa, Macarıstan, Çexiya və müəyyən hallarda İtaliya kimi ölkələr milli suverenliyin pozulacağı qorxusu ilə federalist təkliflərə müqavimət göstərirlər. Məhz bu dövlətlər üçün Aİ daha çox iqtisadi əməkdaşlıq və təhlükəsizlik təminatçısı olmalıdır, lakin onların daxili işlərinə qarışan, milli qərarvermə hüququnu məhdudlaşdıran bir siyasi struktura çevrilməməlidir. Onlar Brüsselin artan təsirini milli parlamentlərin və seçilmiş hökumətlərin legitimliyinə qarşı təhlükə kimi qiymətləndirirlər.

Qarşıdurmanın arxasında yalnız cari siyasi konfiqurasiyalar və hökumətlərin ideoloji meyilləri dayanmır. Tarixi təcrübə, milli kimlik və mədəni yaddaş bu prosesdə dərin izlər buraxır. Xüsusilə, Şərqi Avropa ölkələrinin keçmiş sovet blokunda yerləşməsi onların hər hansı mərkəzləşdirilmiş gücə – istər Moskva, istərsə də Brüssel olsun – qarşı təbii ehtiyatlılıq nümayiş etdirməsinə səbəb olur və bu dövlətlər üçün suverenlik sadəcə, hüquqi və siyasi status deyil, həm də milli azadlığın simvoludur. Ona görə də, Aİ-nin "fövqəlmilli idarəetmə" təklifləri onlarda şübhəli və təhlükəli təşəbbüslər kimi qəbul olunur.

Nəticədə, Aİ daxilindəki siyasi çəkişmələr Avropanın gələcəyinə dair iki fərqli baxışın qarşıdurmasına gətirib çıxarır.



Bunlardan biri mərkəzləşmiş və inteqrasiya olunmuş Avropa, digəri isə suveren və sərbəst milli dövlətlərin əməkdaşlıq etdiyi Aİ modelidir. Aralarındakı mübarizə isə siyasi iradə və qarşılıqlı güvənlə həll olunacaq dərəcədə mürəkkəb və dərin köklərə malikdir.

Avropa İttifaqı daxilindəki siyasi çəkişmələr həm də hüquqi əsaslarda özünü göstərir. Aİ-nin hüquqi strukturu – yəni onun fundamental müqavilələri, institusional səlahiyyət bölgüsü və məhkəmə presedentləri – bu çəkişmələrin mərkəzində dayanır. Əsas mübahisə sualı budur: Müqavilələr Aİ-yə hansı səlahiyyətləri verir və bu səlahiyyətlər zamanla genişlənə bilərmi?

Federalist yanaşmanı müdafiə edənlər tez-tez "səssiz səlahiyyət genişlənməsi" prinsipinə əsaslanırlar. Həmin prinsipə əsasən, İttifaqın funksional tələbləri artdıqca və yeni problemlər ortaya çıxdıqca, Aİ institutları – xüsusilə Avropa Komissiyası və Avropa Ədalət Məhkəməsi – öz səlahiyyət dairələrini praktik və məntiqi əsaslarla genişləndirə bilərlər. Suverenist mövqedə duran ölkələrdə bu amil ciddi narahatlıq yaradır. Onlar bu tendensiyanı milli hüququn və konstitusiyaların üstündə duran "Brüssel hüququnun" formalaşması kimi qiymətləndirirlər.

Polşa və Macarıstan konstitusiya məhkəmələri son illərdə Avropa Ədalət Məhkəməsinin bəzi qərarlarını yerli hüquqla ziddiyyətli sayaraq, icrasını rədd etmişlər. Nəticədə, bu amil Aİ hüququnun üstünlüyü prinsipinə qarşı açıq çağırış kimi qiymətləndirilir. Digər tərəfdən, Almaniya Konstitusiya Məhkəməsi də bəzi hallarda Aİ məhkəməsinin səlahiyyətlərini aşdığını bildirir.

Hüquqi ziddiyyətlər həm də siyasi identiklik və milli suverenlik məsələləridir. Sual budur: Avropa Ədalət Məhkəməsi universal hüquqi istinad nöqtəsidirmi, yoxsa o da Aİ institutlarının bir hissəsi kimi siyasi prosesin tərkibidir?

Nəticə etibarilə, Aİ-də səlahiyyət bölgüsü və hüququn üstünlüyü ilə bağlı mübahisələr hüquqşünasların masasında qalmır; onlar geniş ictimai debatlara, siyasi qütbləşməyə və institusional legitimlik böhranlarına səbəb olur ki, bu da Aİ-nin gələcəyi üçün dərin hüquqi və siyasi nəticələr doğura bilər.

Avropa İttifaqı daxilindəki siyasi çəkişmələrə politoloji aspektdən yanaşdıqda diqqət mərkəzinə üç əsas anlayış çıxır: demokratik legitimlik böhranı, inteqrasiya yorğunluğu və populist hərəkatların yüksəlişi. Üç tendensiya Aİ-nin daxili sabitliyini və gələcək inkişaf trayektoriyasını ciddi şəkildə sarsıdır.

Ənənəvi olaraq, Aİ "elitaların layihəsi" kimi formalaşıb. İnkişafı və institusional quruluşu əsasən hökumətlərarası danışıqlar, texnokratik qərarlar və diplomatik konsensuslar üzərində qurulub. Lakin bu struktur genişləndikcə və Aİ-nin gündəlik həyatda təsiri artdıqca, vətəndaşların qərarverici institutlarla əlaqəsi zəif qaldı. Avropa Komissiyası kimi fövqəlmilli orqanlar birbaşa xalq tərəfindən seçilmir və bu, demokratik legitimlik problemi yaradır. Avropa Parlamenti mövcud olsa da, onun səlahiyyətləri məhduddur və seçici fəallığı aşağıdır ki, bu amil də İttifaqın demokratiya ilə legitimlik arasında balansı saxlaya bilmədiyini göstərir.

Bundan əlavə, son illərdə Aİ-də "inteqrasiya yorğunluğu" müşahidə olunur. Xüsusilə, 2004 və 2007-ci illərdə Şərqi Avropa ölkələrinin Aİ-yə daxil olması və ardınca yaşanan maliyyə, miqrasiya və pandemiya böhranları bu birlik layihəsinə inamı zəiflətdi. Cəmiyyətlərdə "Brüssel hər şeyə qarışır" deyə bir narazılıq formalaşdı. Məhz bu fon üzərində millətçi və populist qüvvələr gücləndi. Onlar "suverenliyi geri qaytaraq" şüarı altında Aİ-nin nüfuzunu zəiflətməyə, milli dövlətlərin mövqeyini gücləndirməyə çalışırlar.

Macarıstanda Viktor Orbanın, Polşada keçmiş hakimiyyətin, İtaliyada sağçı partiyaların və Fransada Marine Le Pen-in uğuru təkcə daxili siyasətin nəticəsi deyil. Bunlar həm də Aİ-yə qarşı olan geniş sosial narazılığın ifadəsidir. Populist partiyalar Aİ-ni məsuliyyətsiz bürokratik mərkəz, milli identikliyi zəiflədən və mədəni müxtəlifliyi təhdid edən bir struktur kimi təqdim edirlər. Arqumentlər sadəlövh olsa da, ictimai emosiyalar üzərində oynamaqda və elektoratın hisslərinə toxunmaqda təsirlidir.

Avropa İttifaqı daxilindəki siyasi çəkişmələr artıq abstrakt nəzəri müzakirələr səviyyəsini çoxdan keçərək konkret siyasi və iqtisadi nəticələr doğurur və birliyin həm daxili inamsızlığını, həm də beynəlxalq nüfuzunu sarsıdan real problemlərə çevrilib.

Polşa və Macarıstan hökumətləri məhkəmə müstəqilliyi, media azadlığı və insan hüquqları sahəsində Aİ standartlarından kənara çıxaraq, milli qanunvericiliklə Brüssel direktivlərini toqquşdurdu. Avropa Komissiyası (AK) isə cavab olaraq milyardlarla avro dəyərində struktur fondlarının ödənişini dondurdu. AK-nin bu addımı Aİ-nin hüquqi mexanizmlərinin işləkliyini göstərsə də, digər tərəfdən, İttifaq daxilində dərin inamsızlıq və qarşılıqlı ittihamlar atmosferi formalaşdırdı. Suverenlik və Aİ prinsipləri arasındakı balans daha da kövrəldi.

Digər bir maraqlı nümunə isə İtaliyanın sağçı hökumətinin enerji və miqrasiya siyasətində Brüsselə qarşı sərgilədiyi açıq mövqedir. Baş nazir Giorgia Meloni rəhbərliyindəki hökumət Aİ-nin bərabər miqrant bölgüsü planlarına qarşı çıxır, enerji təhlükəsizliyi məsələsində isə milli maraqları önə çəkərək ortaq Avropa strategiyasına açıq etiraz edir ki, bu fakt Aİ daxilində həmrəyliyi zədələyir və böhran anlarında ortaq mövqe formalaşdırmağı çətinləşdirir.

Fransa və Almaniyanın birlik daxilində oynadığı liderlik rolu da birmənalı qarşılanmır. Xüsusilə, Şərqi və Cənubi Avropa ölkələri Paris və Berlinin təşəbbüslərini bəzən "hegemonluq" kimi qiymətləndirirlər. Kiçik və orta dövlətlər arasında "Brüsseldə qərarlar iki paytaxtda verilir" fikri getdikcə daha geniş yayılır və Aİ-nin "bərabər dövlətlərin ittifaqı" idealına zidd bir psixoloji fon yaradır.

Geosiyasi etimad boşluğu da nəzərəçarpacaq dərəcədə artıb. Şərqi Avropa ölkələri, xüsusilə Baltikyanı dövlətlər və Polşa təhlükəsizlik baxımından daha çox NATO-ya və ABŞ-ın hərbi varlığına güvənirlər. Halbuki, Qərbi Avropa ölkələri – Almaniya, Fransa və Niderland kimi dövlətlər – Aİ-nin öz təhlükəsizlik strukturunun inkişaf etdirilməsini, "strateji muxtariyyət"in artırılmasını prioritet hesab edirlər. Nəticədə, bütün bu ziddiyyətlər ümumi təhlükəsizlik və müdafiə strategiyasının formalaşmasını gecikdirir.

Ukrayna məsələsində müşahidə olunan yanaşma fərqləri isə Aİ-nin xarici siyasətdəki zəifliyini çılpaq şəkildə ortaya qoyur. Bəzi ölkələr, məsələn Polşa və Estoniya, Ukraynaya maksimum dəstək göstərilməsini tələb edir, digərləri isə ehtiyatlı və diplomatik balanslı mövqe tutur. Silah yardımlarının tempi, rəsmi bəyanatlarda olan diskrepansiyalar Aİ-nin vahid xarici siyasət yürütmək qabiliyyətinin hələ də arzu olunan səviyyədə olmadığını göstərir.

Beləliklə, daxili siyasi çəkişmələr qurumun beynəlxalq nüfuzuna ciddi təsir göstərir. Əgər bu parçalanma tendensiyası dərinləşərsə, Aİ-nin həm qlobal aktor kimi mövqeyi zəifləyəcək, həm də vətəndaşlar arasında birliyə olan inam daha da sarsılacaq. Ümumilikdə, bu amillər Avropa layihəsinin gələcəyi üçün ciddi xəbərdarlıq siqnalıdır.

Avropa İttifaqı bir ideya olaraq müharibələrin külündən doğan həmrəyliyi, inteqrasiyanı və sülhü simvolizə edirdi. Lakin bu gün həmin ideya populizm, avroskeptisizm və sosial-iqtisadi təbəqələşmə ilə ciddi sınaq qarşısındadır. İttifaq daxilində hüquqi çərçivələrin pozulması, ortaq qərarların ləngiməsi, təhlükəsizlik və miqrasiya məsələlərində koordinasiyasızlıq bu binanın bünövrəsində çatların əmələ gəldiyini göstərir.

Əgər Aİ bu daxili qarşıdurmaları demokratik dialoq, dərin struktur islahatları və siyasi iradə ilə yumşalda bilməzsə, "vahid Avropa" ideyası yalnız Brüssel salonlarında deyil, Avropa küçələrində də inamını itirəcək. Bu isə birliyin iqtisadi bir platformaya çevrilməsi və siyasi layihə kimi məzmununu itirməsi deməkdir.

Avropa tarixən çətinliklər içində irəliləyib. Müxtəlif böhranlar – avrozona krizi, miqrant dalğası, Brexit və pandemiya – onun dözümlülüyünü sınağa çəkib. İndi isə qarşısında yeni bir çağırış var: daxili parçalanmanı aşmaq və birliyi yenidən qurmaq. Bu təmir prosesi asan olmayacaq, lakin siyasi iradə və demokratik konsensus yaranarsa, Avropa evi daha dayanıqlı şəkildə yenidən inşa edilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**REPLİKA**

# Cavabsız suallar qarşısında

## Haypərəst konqresmenlərin növbəti canfəşanlıqları

**ABŞ-da ermənilərə lobbiçilik edən konqresmenlər Azərbaycana qarşı növbəti kampaniyaya başlayıblar. Qanunverici orqanda təşkil olunan anti–Azərbaycan dinləmələrində adı bizə yaxşı məlum olan Kristofer Smit canfəşanlıq edir.**

Vaxtilə demokratların düşərgəsindən respublikaçıların yanına "transfer" olunan, partiya mənsubiyyəti kimi hüquqşünas məsləkini "daşnakizmə" dəyişən Smitin başına topladığı konqresmenlər, görünür, Donald Tramp Administrasiyasının Azərbaycana münasibətdə hansı siyasəti yeridəcəyini sınaqdan keçirirlər. On il bundan əvvəl "Ermənilər mənim dostlarımdır" – deyən Smitin Birləşmiş Ştatlardakı hay diasporu ilə sıx işbirliyində olduğu, onlardan "yağlı" qonorarlar aldığı rəsmi Bakıya çoxdan məlumdur.

Xatırlayırıq ki, Bayden hakimiyyəti dönəmində Konqresdə buna bənzər dinləmələr adi hal almışdı. Doğrudur, ABŞ qanunvericiliyinə görə, Konqres Prezident Administrasiyasına tabe olmayan müstəqil qurumdur. Burada bəzən iqtidarda olan partiyanın təmsilçiləri azlıqda qala bilər. Bu baxımdan, respublikaçı Prezident Trampın zamanında da Konqresdə anti-Azərbaycan dinləmələrinin keçirilməsində dövlət başçısının rolunun olduğunu söyləmək doğru deyil.

Danılmaz fakt odur ki, bəzi konqresmenlər erməni lobbisinin "dolu çətirinin" cazibəsinə düşürlər. Onların erməni diasporu ilə sıx işbirliyində olması, böyük məbləğdə ənam almaları səbəbsiz deyil. İndiki dinləmələrdə məhz bu amilin əsas rol oynadığı dəqiqdir. Məhkəmənin son hökmünü gözləyən təqsirləndirilən şəxsin – Ruben Vardanyanın vəkilinin Bakıya dəvət olunması bidəfəki dinləmələrdə "çirkli pullar kralının" kapitalının rol oynadığı şübhəsizdir.

Konqresin "insan hüquqları" ilə bağlı dinləmələrdə Smit bildirib ki, onların əsas məqsədi Azərbaycan hökumətinin saxladığı "erməni siyasi məhbusları" və hərbi əsirləri" azad etməkdir. Qarabağda "erməni mədəni irsini qorumaq, ermənilərin "Dağlıq Qarabağ" qayıtmaq hüququnu diqqətdə saxlamaq da onun üçün "prioritet" məsələlərdəndir. Dinləmələrə Ruben Vardanyanın xaricdəki vəkili Jared Genserin də dəvət olunması "cidanın gizlədildiyi yeri" dəqiq nişan verir.

Bu gün ABŞ Konqresindəki Azərbaycan dinləmələri açıq-aşkar qərəzli xarakter daşıyır. Bizim ərazimizdə cinayət törətməyən, qanunlarımızı pozmayan bir erməni də həbs olunmayıb. Bakıda məhkəməsi davam edən ermənilərin isə heç birinin hüququ pozulmur. Onlar vəkillərlə təmin edilib, prosesdə beynəlxalq təşkilatların




təmsilçilərinin iştirakına şərait yaradılıb. Yəni tamamilə şəffaf həyata keçirilən prosesin sonunda həmin ermənilərin əməllərinə qanuna uyğun qiymət veriləcək və hökm çıxarılacaq.

Kənardan heç kəs ağlına belə gətirməsin ki, hansısa haypərəst dinləmələrlə Azərbaycana, separatçılar üzərində məhkəmə prosesinə təsir göstərə bilər. Azərbaycan beynəlxalq hüququn və ədalətin tərəfindədir və ölkəmiz özünü məkrli və qərəzli hücumlardan qorumağa qadirdir.

Ən əsası, təqsirləndirilən şəxslər törətdikləri cinayətləri dünyanın gözü qarşısında etiraf edirlər. Ortada dünyanın şahidlik etdiyi bu reallıq varsa, ABŞ Konqresinin hansısa komissiyasında keçirilən dinləmələrin, hazırlanacaq və qəbul ediləcək sənədin dəyəri kağız parçası qədərdir.

Bizim anti–Azərbaycan kampaniyasına qoşulmuş şəxslərə bir neçə sualımız var: Sizin müdafiə etdiyiniz Ruben Vardanyan, Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan və digərləri harada saxlanılıblar? Saxlanıldıqları Azərbaycan ərazisində hansı fəaliyyətlə məşğul olublar? Məgər həmin şəxslər BMT-nin və ABŞ-ın Azərbaycan ərazisi olaraq tanıdığı yerdə özlərinə "dövlət" qurmağa çalışmırdılarmı? İndi durub bu adamları "hərbi əsir", "siyasi məhbus" adlandırmaq və onlara azadlıq tələb etmək beynəlxalq hüquqla bir araya sığırmı? Varmı bu suallara cavabınız? Niyə gözlərinizi döyürsünüz, udquna-udquna qalmısınız?!

Əslində, ABŞ Prezidentinin Novruz bayramı münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubda bütün sualların aydın cavabı var: "ABŞ Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün güclü dəstəkçisi olaraq qalır".

Belə görünür ki, Ağ evdə Azərbaycanla əməkdaşlığa meyillərin güclənməsi Smit kimi ermənipərəst konqresmenləri narahat edib. Hələ, bu, harasıdır?!

*İ.HƏSƏNQALA*
*XQ*

# Haysayağı "biət"

(əvvəli 1-ci səhifədə)

Balasanyan sözünə Putinə tərif yağdırmaqla başlayıb. Ardınca isə o, hayların BVM-də zəfərin əldə olunmasındakı rolundan danışıb, hətta faşizm üzərində qələbənin böyük marşalı kimi tanınan Georgi Jukovun ermənilər barədə dediyi iddia olunan xoş sözlərdən iqtibas gətirib. Əlbəttə, bilmək olmaz, Jukov hayların döyüş qabiliyyətini tərifləyib, ya yox. İkincisi, marşal başqa xalqların savaşdakı rolu barədə də fikirlər bildirib. Yəni məsələdən dividend götürmək mənasızdır. Amma Balasanyanın bunun fərqində olmaması mümkündür. Çünki bu məxluqun sözünün canı var.

Sən demə, BVM-də iştirakçısı olmuş ermənilərin 90 mini Qarabağ mənşəli imiş. Bölgə haylarının 29-u isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülübmüş. Faktı təsdiq və inkar etmək kimi niyyətindən uzağıq. Həm də ona görə uzağıq ki, Qarabağın erməni əhalisi anlayışında bu əhalinin azərbaycanlılarla assimlyasiya faktoru var. Qan məsələsi isə önəmlidir. Yəni, axtarsaq, BVM-də fərqlənmiş ermənilərin bir çoxu türk kökənlidir. Hərçənd, məqsədimiz bunu vurğulamaq deyil. Nə isə…

Balasanyanın Rusiya liderinə ünvanladığı pafos dolu məktubunda yer almış "Qarabağ erməniləri qəhrəmanlıqları ilə gözəl yurdlarının şöhrətini əbədiləşdirdilər" fikrinə diqqət yetirək. Sanki, Qarabağ ayrıca respublika imiş, Azərbaycana aid deyilmiş. Əslində, bütün problemlər məhz bu sərsəm təsəvvürdən başlamışdı.

Yada salaq ki, hələ sovet hakimiyyəti illərində Qarabağı Azərbaycandan ayırıb Ermənmistana birləşdirmək niyyətləri olmuş, belə cəhdlər nəticəsiz qalmışdı. Ancaq üzərindən müəyyən zaman keçmiş, Balasanyan isə Vito ləqəbli cəllada çevrilərək bu avantüranın gerçəkləşməsinə qol çırmayanlardan biri olmuşdu. Sonra nələr yaşanmışdı, hamımızın xatirindədir. Eləcə də Vitonun Xocalıda dinc azərbaycanlılara qarşı "qəhrəmanlığı" yaddaşlardan silinməyib.

*

V.Balasanyan Putinə müraciətində BVM-də qəhrəmanlıq göstərimiş Çardaxlı kəndinin erməni sakinlərindən də söz açıb. Maraqlıdır ki, Vito sözügedən kəndi Qarabağa daxil olan yaşayış məntəqələrindən biri kimi göstərib. Əvvəla, Çardaxlı keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində yer almayıb. İkincisi, hazırda həmin kənd Tovuz rayonunun Ermənistanla sərhədində yerləşir. Yəni sərhədin Azərbaycan hissəsində Çardaxlı, Ermənistan hissəsində Zorakan var. Onu da bildirək ki, zamanında bu iki kənd Çardaxlı adlanıb. Orada ermənilər yaşayıblarmı? Bəli, haylar kənddə ömür sürüblər. Balasanyanın dediyi kimi, Çardaxlıdan çoxlu hərbçi çıxıb.

Sən demə, Azərbaycan hakimiyyəti 1987-ci ildə, yəni, 1988-ci ildəki Qarabağ hərəkatı başlamazdan əvvəl genişmiqyaslı aksiya keçirərək, Balasanyanın dili ilə desək, qəhrəman kəndin yerli erməni əhalisini zorla deportasiya edib: "Azərbaycanlılar "Marşallar kəndi"nin tarixini, erməni keçmişini silmək üçün hər şey etdilər. Marşal Baqramyanın abidəsi dağıdıldı, daha sonra abidəni maşına bağlayıb sürüyərək



təhqir etdilər. Baqramyan və digər marşal Babacanyanın muzeyi çayxanaya çevrildi, qəbirlər dağıdıldı, xaçlar məhv edildi. Marşalları simvolizə edən iki məşhur çinar ağacı kəsilib yandırıldı".

Vito bilməmiş deyil ki, nəinki Çardaxlı kəndində, həmçinin Qarabağda, bütövlükdə Azərbaycan ərazilərində və Cənubi Qafqazda ermənilərin məskunlaşdırılmasına 1830-cu ildən başlanılıb. Proses əvvəl çarizmin, sonra Sovet hakimiyyətinin regionda etnik tərkibi dəyişdirmək siyasətindən qaynaqlanmışdı. Prezident Putin bunları çox yaxşı bilir. Həm də ona görə yaxşı bilir ki, bugünkü erməni nankorluğu həmin siyasət nəticəsində rus varlığının erməni toplumu üçün verdiyi imtiyazların, yaratdığı şəraitin səhv addım olduğunu sübuta yetirir.

Əlqərəz, Çardaxlı kimi kəndlərə də ermənilərin köçürülməsi, yerli türk əhalisinin say üstünlüyünü aradan qaldırmağa xidmət edirdi. Bu, gələcəkdə bölgədə baş verə biləcək müqavimətləri zəiflətmək məqsədi daşıyırdı. O ki qaldı, ermənilərin Azərbaycan SSR Çardaqlısından Ermənistan SSR-in Zorakanına köçürülməsinə, əslində, bunu doğurmuş şəraiti hay millətçiləri özləri formalaşdırdılar. Sonra buna bənzər planı, özü də daha böyük miqyasda Sumqayıtda reallaşdırdılar. Yəni həm Çardaxlıda, həm də Sumqayıtda daşnakların sıravi ermənilərə qarşı həyata keçirdikləri zorakılıq halları Ermənistanın Azərbaycana qarşı ərazi iddiası motivi hazırlamağa hesablanmışdı. Bu motiv üçün başlıca məqsəd azərbaycanlılarla ermənilərin birlikdə yaşamalarının qeyri-mümkünlüyü rəyini formalaşdırmaq idi.

Sözümüz ondadır ki, V.Balasanyan Putinə məktubunda erməni toplumunun azərbaycanlılara qarşı dözümsüz yanaşmasının nəticələrini açıqlayır. Məsələn, o bildirir ki, 1988-ci ildə o zamankı Kirovabad, indiki Gəncə şəhərində marşal Baqramyanın abidəsi yıxıldı. Eyni taleni həmin il pilot Nelson Stepanyanın Şuşadakı abidəsi də yaşadı. O zaman sual olunur: təkcə 1988-ci ildən 1991-ci ilədək azərbaycanlıların Ermənistandan deportasiyası zamanı nə qədər türk abidəsi dağıdılmışdı? Nə üçün Ermənistana paytaxt verilmiş qədim Azərbaycan şəhəri İrəvanın türk mirası qalmayıb. Bəlkə Balasanyanın da iştirakçısı olmuş müharibə və işğal siyasəti nəticəsində ərazilərimiz viran edilməmişdi? Hər halda, cənab Putin bütün bunlardan da xəbərdardır. Vitonun Qarabağın "XX əsrin 20-ci




illərində bolşeviklər tərəfindən yenicə yaranmış Azərbaycan Respublikasına" daxil edilməsi cəfəngiyyatından da həmçinin.

*

Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. V.Balasanyanın da Rusiya liderinə məktubundan məqsəd Qarabağ avantürasının davamı baxımından tutacaq yer formalaşdırmaqdır. Hər halda, o, kimə üz tutduğunu yaxşı bilir. Bilir ki, nəinki Qarabağda, ümumən Cənubi Qafqazda erməni varlığı üçün yaşıl işıq yandıran ruslar olub. Ona görə də Vito BMV-də döyüşən ermənilər məntiqi ilə köhnə günləri geri qaytarmaq üçün yalvarış edir: "Bu gün Qarabağ erməniləri müxtəlif səbəblərdən öz tarixi yurdlarından məhrumdur. Hesab edirik ki, bu ədalətsiz prosesi yalnız Rusiya xalqı və dövləti dəyişə bilər. Rusiya imperiyası erməni xalqına öz dövlətçiliyini və kimliyini qorumaq üçün şərait yaratmışdır".

Göründüyü kimi, Balasanyan məktubunda keçmişə baş vurur və tarixi erməni baxış bucağından diqqətə çatdırıb manipulyasiya yolu tutur, Qarabağın hay toplumuna məxsusluğu iddiasını qaldırır. Ancaq onun Rusiya faktoruna nəzərən açıqladığı bir tarixi fakt var. Xocalı cəlladı Rusiyaya vəfa borcu kimi irəli sürdüyü fikirlərinin isbatı baxımından 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələrini yada salır. Nəzərə alaq ki, ermənilərin Cənubi Qafqaza köçürülmələri Rusiya–İran müharibələrinin nəticələrini təsdiqləyən bu iki müqavilənin şərtlərinə uyğun həyata keçirilmiş proses olub.

Bəli, Balasanyan özü də fərqinə varmadan Cənubi Qafqazdakı erməni varlığının real tarixinin məhz həmin müqavilərə bağlı olduğunu açıqlayır. Bu xatırlatmadan sonra Vitonun Putinə "Sizin vasitəçiliyinizlə Qarabağ erməniləri – Böyük Vətən Müharibəsində qələbə qazanan xalqın davamçıları – yenidən tarixi yurdlarına qayıda biləcəklər. Həmçinin, minilliklər boyu yaradılmış tarixi-mədəni irsin, o cümlədən kilsələrin, müxtəlif binaların, yaşayış məntəqələrinin, BVM-yə həsr olunmuş abidələrin qorunması və xilası üçün təcili praktiki addımlar atılacaqdır" şəklində xitab etməsi miskinliyin dramatizmi və kuliminasiya anıdır.

*

Azərbaycan dövləti Qarabağı və digər tarixi torpaqlarını özünə qaytarmaqla, təkcə qədim xalqımızın milli mənliyini və qürurunu bərpa etmədi, eyni zamanda, iki yüz illik erməni planını pozdu. Yada salaq ki, Prezident İlham Əliyevin "Ordumuz tarixi planı 44 günə məhv etdi" kimi böyük fəxrlə bəyan etdiyi fikri var. Bununla belə, dövlətimizin başçısının timsalında Azərbaycan istər İkinci Qarabağ müharibəsindən, istərsə də lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistana sülh əlini uzadıb...

Bəli, V.Balasanyanın Rusiya Prezidentinə ünvanladığı məktub Kreml rəhbərinə erməni planını yenidən işə salmaq çağırışı, hətta yalvarışıdır. Nəzərə alaq ki, Ermənistanda balasanyanlar, onun kimi revanşist və şovinistlər, faşist xislətlilər kifayət qədərdir. Belə xarakter sahiblərinin çoxluq təşkil etməsinin nəticəsidir ki, hazırda rəsmi İrəvan Bakı ilə sülhə gəlmək istəmir, sürətli silahlanma kursu götürür, erməni silahlı qüvvələri şərti sərhəddə atəşkəsi pozurlar.

Hay millətçiləri həm tarixin müxtəlif dövrlərindəki, həm də 1988-ci ildən sonra olduğu kimi, Azərbaycan xalqı ilə normal keçinə bilmədiklərini sübuta yetirirlər. Deməli, ölkəmizin uzatdığı sülh əli havada qalır. Başqa sözlə desək, döyüş meydanında layiqli cəzalarını alan ermənilər, mahiyyətcə, yenə eyni "ampluadadırlar" və Balasanyanın məktubu fikrimizin sübutudur.

Ancaq təkcə Vitonun deyil, bütövlükdə, erməni millətçilərinin unutduğu bir reallıq var. Reallıq budur ki, Azərbaycan artıq özündən nəinki bir yaşayış məntəqəsinin, heç bir qarış torpağın da alına bilinməyəcəyi güclü və qüdrətli dövlətdir. Yəni belə yalvarışlar heç bir nəticə verməyəcək. Əksinə bu kimi hərəkətlərin doğura biləcəyi illüziya və ondan qaynaqlanan destruktiv meyillər Ermənistana yeni fəlakət yaşadacaq.

Sonda bildirək ki, Balasanyan İrəvanda oturub sərsəmləməkdənsə, Putinə məktub yazmaqdansa, Ermənistanın yeni fəlakətlə üzləşməməsi üçün Allaha yalvarsa, daha yaxşıdır. Tülkü xislətli bu məxluq ququasyanlar, araiklər və digər separatçı ortaqları kimi Bakı həbsxanalarına düşmədiyinə görə dua edə, həmçinin dinc azərbaycanlıların başına gətirdiyi faciələrə görə Tanrı dərgahında bağışlanmasını diləyə bilər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Artsaxların ombudsmanı" uzaq Avstraliyada göz yaşı axıdır

**Bu barədə Geqam Stepanyan özünün sosial media hesabında yazıb. Bildirib ki, Avstraliya erməni milli komitəsinin təşəbbüsü ilə bu ölkəyə səfəri çərçivəsində Yeni Cənubi Uels ştatının parlamentində olub. Avstraliya – Ermənistan Dostluq Qrupunun həmsədrləri Hyu MakDermott və Tim Ceyms ilə görüşüb. Görüşdə əsas müzakirə mövzusu "Artsax" xalqının hüquqları, beynəlxalq humanitar yardım, Bakıda "qeyri-qanuni saxlanılan erməni məhbusların" azad edilməsi, ermənilərin Qarabağa geri dönüşü və sair məsələlərdən ibarət olub. "Ombudsman" Erməni apostol kilsəsinin Avstraliya yeparxiyası rəhbərinin iqamətgahını ziyarət etməsini və orada "Artsax"ın erməni əhalisinin hazırkı vəziyyəti, çətinlikləri və problemlərinin həlli ilə bağlı çıxışını da fəxrlə bəyan edir.**

Xaricdə fəaliyyət göstərən erməni milli təşkilatlarının, xüsusən də, "Daşnaksütyun"un dəstəyi ilə reallaşan bu səfərdə əsas məqsəd Avstraliya ictimaiyyətini yeni erməni yalanlarına inandırmağa yönəlib.



Dünyanın müxtəlif ölkələrində yurd salan ermənilər öz xislətinə uyğun yenə iş başındadırlar. Təcavüzkar imicə malik olan Ermənistan və erməni "millətçiləri" bütün dünyanı aldatmaq məqsədilə istənilən fürsətdən həyasızcasına istifadə etməyə çalışır. Hələ də anlamırlar ki, Azərbaycan ərazisində "Artsax" adlanan "dövlət" olmayıb, erməni separatçılarının qondarma rejiminin beynəlxalq səviyyədə tanınması üçün atdığı addımlar əvvəllər də mənasız idi və yenidən hər hansı məqsədlər uğrunda "istəklər" də nəticə verməyəcək.

Din təəssübkeşliyindən istifadə edən erməni kilsəsinin nümayəndələrindən sonra, deyəsən, növbə "hüquq müdafiəçiləri"nə çatıb. İndi də onlar əllərinə düşən fürsətdən yararlanmaq istəyirlər. Avstraliyaya səfər də orada yaşayan erməniləri, erməni tərəfdarlarını aktiv olmağa, öz yalanlarını bu ölkənin ictimaiyyətinə sırımağa yönəlib.

Xatırladaq ki, hayların təşəbbüsünə ara-sıra bəzi avstraliyalı deputatlar da qoşulublar. Hətta vaxtilə bir "dostluq cəmiyyəti" də yaratmışdılar. Avstraliyanın bəzi deputatlarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri, erməni hərbi cinayətkarların bu ölkədə yüksək qonaqpərvərliklə qarşılanması, beynəlxalq hüququn norma və prinsiplərinin pozulması ilə bağlı olan digər məqamlar... Ona görə də hayların Avstraliya sevgisi məhz belə məqamlardan irəli gəlir. Yenə də nəyəsə ümid edirlər. Avstraliyadakı erməni milli təşkilatlarını, kilsəni yenidən aktiv olmağa səsləyirlər.

Ermənilərin Avstraliyanın Yeni Cənubi Uels ştatını seçməsi də maraq doğurur. Görünür ki, bu ştatda erməni diasporu aktivdir və proseslərə təsir etmə qabiliyyəti var. Keçmiş qondarma rejim nümayəndəsinin səfəri də əvvəlcədən planlaşdırılmış xətt üzrə təşkil olunub. Belə demək mümkündürsə, bu onların bəlkə də "nəsə alınar" kimi ümid çırpıntısına oxşayır. Fransadan sonra ümid gözlədikləri ölkələrdən biri də Avstraliyadır axı.

Məlumdur ki, Avstraliyadakı erməni diasporunun əsas təşkilatı Türkiyə ilə yanaşı, Azərbaycana da qarşı həqiqətə uyğun olmayan məlumatlar yaymaqla ölkəmiz haqda mənfi rəy formalaşdırmağa çalışır.

*

**Mövzu ilə bağlı Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov XQ-yə bildirdi ki,** siyasi mövqeyindən asılı olmayaraq, ermənilərdən kimsə Qarabağ ermənilərinin geri dönüşündən danışacaqsa, Bakıda keçirilən məhkəmə prosesinə ritorikalar və müxtəlif bəyanatlar şəklində təzyiq edəcəksə, "böyük Ermənistan"dan dəm vuracaqsa, bilsin ki, Azərbaycan tarixi torpaqlarına – Zəngəzur, Göyçə, Dərələyəzə qayıdışı ortaya qoyacaq: "Azərbaycan 1918-ci ildə qurulan qondarma dövlətin, əslində, ərazilərinin neçə kvadratkilometr olması reallığını or-



taya qoyacaqdır. Ermənistan dövlətinin bu gün var olmasının heç bir əsası yoxdur. Bu dövlət heç vaxt Cənubi Qafqazda olmayıb.

Gürcü və Azərbaycan xalqları əgər 1918-ci ildə öz dövlətlərini özlərinə qaytardılarsa, ermənilər sıfırdan Ararat Respublikası adlı dövlət yaratdılar. Onlar 1920-ci ildə süqut edərkən 9 min kvadrat kilometr əraziyə malik idilər. Beləcə 1991-ci ilə qədər əldə edilən ərazilərin heç bir hüquqi əsası, bazası yoxdur. Nəzərlərinə çatdıraq ki, bu gün dünyanın ayrı-ayrı ölkələrində həmin dövlətlərin ümumiyyətlə, mövcud olmaqlarının legitimliyi və leqallığı sual altına qoyulub. Bunu ABŞ da edir, müəyyən ölkələr ilə bağlı, bunu Rusiya da edir. Belə olan təqdirdə, ümumiyyətlə, erməni dövlətinin möcudluğunun tarixi və hüquqi əsası varmı? Ona görə də Avstraliyada da, digər ölkələrdə də çıxışlar edərkən həmin şəxslər başa düşsünlər ki, onların cavabları mütləq şəkildə olacaq.

Vaxtilə Azərbaycan Qarabağdakı ermənilərə müəyyən güzəştlər təklif edirdi. Ermənistana müəyyən məqamlarda təkliflər edirdi. Həmin şəxslər qəbul etmədilər, maksimalist davrandılar. Nəticə etibarilə bugünkü reallıq qarşısında qaldılar. Reallıq isə ondan ibarətdir ki, Qarabağ BMT, dünya tərəfindən tanınmış Azərbaycan Respublikasının ərazisisidir. Və orada məhz Azərbaycan bayrağı, məhz Azərbaycanın bütövlükdə idarəetmə sistemi var".

Z.Məmmədov qeyd etdi ki, bu gün də Azərbaycanın Ermənistan hakimiyyəti qarşısında qoyduğu tələblər var. Bu tələblər hər kəsə məlumdur, ATƏT Minsk qrupunun ləğvi ilə bağlı razılığın əldə olunması və yeni konstitusiyanın qəbulu. Əgər onlar yeni konstitusiyanı qəbul etmirlərsə, Minsk qrupu ilə bağlı qərarı çevik şəkildə vermirlərsə, deməli ikili oyun oynayırlar. Gələcəklə bağlı müəyyən gözləntiləri var. Bu isə Azərbaycan və Ermənistan dövlətlərinin gələcəkdə bir-birinə qonşuluqda yaşaması məsələsini sual altına qoyur.

Tərəflərdən biri əgər digər ölkənin torpaqlarını işğal etmək, ona nəzarət etmək istəyirsə, bu, artıq o deməkdir ki, qondarma dövlətin buradakı mövcudluğu Cənubi Qafqazdakı sülh prosesinə ziddir. Beləcə baş verənlər və ermənilərin təxribatları əlbəttə ki, sülh yolundakı vəziyyəti qəlizləşdirir. Və Azərbaycanı müəyyən dilemmalar qarşısında qoyur. 2025-ci ildən başlayaraq dünya düzənində müəyyən razılaşmalar əldə ediləcəkdir. Bu kontekstdə, əlbəttə ki, Cənubi Qafqazda yaxın bir neçə aydan sonra həm təhdidlər ilə üzləşəcək, həm də yeni imkanlar əldə ediləcəkdir. Buna görə də yeni mərhələnin başlamasına qədər indiyə kimi olan məsələləri həll etmək lazımdır ki, Qafqaz sabit və güclü olsun.

***Azər MUSTAFAYEV***

Beynəlxalq həyat

# Hindistan gərginliyi niyə artırır?

## *Pakistan isə hələlik dözüm sərgiləyir*



**Aprelin 20-də Pahalqamda baş verən terror aktını bəhanə gətirərək, Hindistanın Baş naziri Narenda Modi qonşu Pakistana qarşı ağır savaş açmaq niyyətindədir. İki böyük nüvə dövlətinin müharibə etməsi təkcə bu ölkələr üçün deyil, bütün dünya üçün ciddi təhlükədir. Amma qonşu Pakistana qarşı kin və qəzəb hissi Dehlinin gözlərini çoxdan örtüb.**

Son illərə qədər planetin hər hansı bir nöqtəsində belə bir gərgin vəziyyət yarananda, bir qayda olaraq Təhlükəsizlik Şurasının (TŞ) fövqəladə iclası çağırılır, gərginliyin azaldılması üçün müzakirələr aparılırdı. Təəssüf ki, hazırda bölgədə silahlı qarşıdurmanı dayandıra biləcək, ən azı, bunu arzulayan bir güc, qüvvə yoxdur.

Beynəlxalq qanunlar isə artıq çoxdan işləmir. Məsələn, TŞ-nin daimi üzvü Rusiya Hindistana necə desin ki, siz özünüzdən ərazicə və əhalisinin sayına görə dəfələrlə kiçik olan Pakistana hücum etməyin. Axı Rusiya özü 3 ildən çoxdur ki, qonşusu Ukraynaya qarşı ağır müharibə aparır. ABŞ da Hindistanla Pakistan arasında gərginliyin azalması üçün real iş görmür. Bəzi təhlilçilər düşünürlər ki, əgər Hindistanla Pakistan vuruşarsa, Çinin "Orta dəhliz" layihəsi təxirə salına bilər. Digər tərəfdən, ona alternativ olan Mumbai–Dubay–Aralıq dənizi layihəsi üçün yaşıl işıq yandırıla bilər. Görünən budur ki, hərə öz xeyrini düşünür.

Hindistanda son günlər baş nazir Modinin "dirijorluğu" ilə qatı millətçilər Pakistana qarşı qan-qan deyirlər. Dehli artıq öz təbliğatının girovuna çevrilir. Kəşmirdən pakistanlıları kütləvi sürətdə qovurlar. Hindistanın digər niyyəti Hind Su Müqaviləsini birtərəfli şəkildə pozmaqdır. Məqsəd Pakistanı içməli və suvarma suyundan məhrum etməkdir.

Kəşmir ştatından Pakistan ərazisinə daxil olan bol sulu Hind çayı əsrlər boyu pakistanlılar üçün həyati əhəmiyyət kəsb edib. Modi hökuməti çayın qonşu ölkəyə axınının qarşısını almaq üçün min cür məkr və hiylə işlədir. Dehli bu yolla təkcə mövcud beynəlxalq müqavilələri pozmur, eyni zamanda, tarixdə misli görünməmiş bir qəddarlığa əl atır. Bütün bunlar XXI əsrin əvvəllərində baş verir. Dünyada aqressivliyin bu qədər artmasını müşahidə etmək çox ağırdır!

N.Modi regionda gərginliyi artırmaqda maraqlıdır. Belə ki, əhalisinin sayına görə, dünyanın 2-ci böyük dövləti olan (bəzi mənbələr Çini arxada qoyaraq 1-ci yerdə olduğunu iddia edirlər-müəllif) Hindistanın sosial-iqtisadi problemləri durmadan artır. Əhalinin hökumətdən narazılığı da güclənir. 2027-ci ildə isə Hindistanda parlament seçkiləri keçirilməlidir. İslamofob siyasət növbəti dəfə seçkiləri udmaq üçün N. Modinin işinə çox yarayır. Yeri gəlmişkən, baş nazir 2019-cu ildəki seçkilərdə də eyni taktikadan istifadə edib.

Başqa bir faktı nəzərinizə çatdıraq. Hələ 4 il əvvəl N.Modinin təşəbbüsü ilə ölkədə vətəndaşlıq aktına düzəlişlər edilib. Yeni qanuna əsasən, Əfqanıstan, Pakistan və Banqladeşdən olan qeyri-müsəlman qaçqınlara Hindistan vətəndaşlığının verilməsi sadələşdirilib. Maraqlıdır ki, bu şəxslər, əsasən, müsəlmanların kompakt yaşadığı şimal vilayətlərində, ən çox da Kəşmir və Cammuda yerləşdirilir. 2021-ci ildən Hindistanda bu qanuna qarşı kəskin etirazlar başlanıb və bu gün də davam edir. Hər dəfə polis etirazçıların başına min bir oyun açır.

Hindistandan fərqli olaraq, Pakistan sülh və əmin-amanlıq tərəfdarıdır. Bununla bərabər, İslamabad qarşı tərəfin mümkün hərbi müdaxiləsi qarşısında geri çəkilmək niyyətində də deyil. Dünən Pakistanın müdafiə naziri Xavaca Asif "Sky News" telekanalına müsahibəsində bildirib ki, Pakistan ordusu Hindistanın istənilən hərəkətinə adekvat cavab verməyə hazırdır.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Siyasət "hind filmi" çəkmək deyil, cənablar!

## Bölgədə yaranacaq istənilən təxribata görə Nyu-Dehli məsuliyyət daşıyacaq

**Bir neçə on illər bundan əvvəl siyasətçilər xəbərdarlıq edirdilər ki, növbəti müharibələr neft, qaz və ya digər enerji daşıyıcılarına görə yox, daha çox içməli suyun bölüşdürülməsindəki ədalətsizliklər üzündən olacaq. Biz həmin arqumentin təsdiqini dünya güclərinin Liviyada söz sahibi olmaq üçün başladığı amansız mübarizələrdə gördük.**

Belə ki, dünya alimlərinin – xüsusən, kosmik vasitələrlə tədqiqat aparan mütəxəssislərin fikrincə, ərazisi iki milyon kvadratmetr olan Liviya səhrasının altında ölçüsü, çəkisi, miqdarı hesablana bilməyəcək qədər böyük içməli su ehtiyatları mövcuddur. Hətta bildirilir ki, bu səhranın bəzi hissələrində qrunt suları səthə çıxaraq El-Fayn, Dahla, Harqa, Kufra, Farafra və digər vahələri əmələ gətirir.

Həmin ehtimalın təsdiq olunub olunmayacağını gözləməyən dünya liderləri su mənbəyi olan ərazilər uğrunda olduqca mürəkkəb bir mübarizəyə başladılar. ABŞ, Avropa, Çin, Rusiya, İran və digər qüvvələrin maraqları məhz Liviya səhrasında toqquşdu və çanaq Müəmmar Qəddafinin başında çatladı.



Planetimiz su problemi üzündən başlanan daha bir böhranın, hətta münaqişənin astanasındadır. Doğrudur, Pakistan rəhbərliyi birmənalı şəkildə bildirir ki, biz həmin böhranın müharibəyə çevrilməsinin qəti əleyhdarıyıq. Amma buna baxmayaraq, "Reuters" agentliyinin məlumatına görə, Pakistan və Hindistan sərhədində gərginlik yüksək səviyyədə qalır, tərəflər atıcı silahlardan atəş açmağa davam edirlər.

Biz "Pakistan bu münaqişəni istəmir" kimi arqumentimizi əsaslandırmaq üçün bu ölkənin Baş naziri Şahbaz Şərifin BMT-nin Baş katibi Antonio Quterreş ilə telefon danışığı zamanı səsləndirdiyi fikirlərə əsaslanırıq. Cənab Şərif rəsmi İslamabadın terrorizmin bütün forma və təzahürlərini pislədiyini söyləyib. O, ölkəsinin bu istiqamətdə atdığı əhəmiyyətli addımları xatırladaraq, Dehlinin İslamabada qarşı son iddialarını əsassız adlandırmaqla yanaşı, ölkəsinin Pahalqam hadisəsi ilə əlaqələndirilməsi cəhdlərini də rədd edib.

Xatırladaq ki, Pahalqam hadisəsi deyəndə aprelin 24-də silahlı yaraqlıların Pahalqam şəhərində (Cammu və Kəşmirin dağlıq Anantnaq rayonunda yerləşir) turistlərə hücumu nəzərdə tutulur. Şəhər Hindistanın nəzarətində olsa da, mübahisəli ərazidə yerləşir. Bildirilir ki, hücum nəticəsində 26 nəfər ölüb, onlarca insan yaralanıb. Bu fakta görə məsuliyyəti "Ləşkər-e-Taibə" adlı təşkilatın bir qolu olan Müqavimət Cəbhəsi öz üzərinə götürüb. Hindistanın iddialarının əksinə olaraq, Pakistan tərəfi bu təşkilatla heç bir əlaqəsinin olmadığını bəyan edib.

Cənab Şahbaz Şərif ölkəsinin həmin hadisə ilə heç bir əlaqəsinin olmadığını bildirib. O, sosial şəbəkədəki paylaşımında qeyd edib: "Pakistanın terrorizmin bütün formalarını qınadığını təsdiqlədim, Hindistanın əsassız ittihamlarını rədd etdim və Pahalqam hadisəsi ilə bağlı şəffaf və neytral araşdırma aparılmasını məsləhət bildim."

Ancaq İslamabadın bu açıq və düzgün mövqeyinə baxmayaraq, Hindistan tərəfi bu ölkədəki Pakistan diplomatlarının sayını azaldıb və Hind çayının suyunun paylaşılması müqaviləsinin dayandırılması da daxil olmaqla, bir sıra sərt tədbirlər görüb. Faktiki Pakistana gedən suyu dayandırıb. Mütəxəssislərin fikrincə, rəsmi Nyu-Dehli əvvəllər heç vaxt əhalinin suyunun kəsilməsi kimi qeyri-insani addım atmamışdı. İndi isə həmin addım günün reallığıdır.

İslamabad isə Hindistanın Hind çayından su axınını dayandırmasını müharibə aktı kimi qiymətləndirəcəklərini bildirib. Çünki ölkənin kənd təsərrüfatı və enerji sektoru əsasən su təchizatının sabitliyindən asılıdır.

Hind çayının Pakistana axan hissəsində suyun kəsilməsi barədə göstəriş veriilməsi o deməkdir ki, Nyu-Dehli 240 milyon pakistanlı üçün həyat mənbəyi olan suyu kəsməklə İslamabadı açıq şəkildə müharibəyə təhrik edir. Ona görə də cənab Şahbaz Şərif xatırladır ki, Nyu-Dehlinin hər hansı ehtiyatsız hərəkəti baş verərsə, İslamabad ölkəsinin suverenliyini və ərazi bütövlüyünü tam gücü ilə müdafiə edəcək. Onu da xüsusilə vurğulamalıyıq ki, BMT-nin Baş katibi də Pakistanın regiona sülh gətirmək səylərini yüksək qiymətləndirib və hazırkı böhran fonunda dünyanın hər hansı bir gərginliyə tab gətirə bilməyəcəyini vurğulayıb.

Bundan başqa, Pakistanın informasiya naziri Ataullah Tarar da xəbərdarlıq edib ki, İslamabadın saxta hesab etdiyi Pahalqam hadisəsini bəhanə edərək, Pakistana qarşı başlanan istənilən təcavüz aktının qarşısı qətiyyətlə alınacaq". Hər halda, nüvə silahına malik iki ölkə arasında hazırkı eskalasiyanın başlanması təkcə Hindistan və Pakistan üçün deyil, həmin regiondakı bütün dövlətlər üçün arzuolunmaz nəticələr verə bilər.

Yeri gəlmişkən, bəzi ekspertlərin fikrincə, Pahalqam hadisəsini Hindistana və Pakistana dəxli olmayan digər ölkələrin müvafiq qurumları törətmişlər. Məqsəd isə 80 il sona çatmayan Hindistan – Pakistan münaqişəsini yenidən alovlandırmaqla Çin Xalq Respublikasını da müharibəyə cəlb etməkdir.

Hər halda regionun müharibəyə sürüklənməsi Hindistan üçün heç bir fayda gətirməyəcək. Bütün dünyanın sülhə, əmin-amanlığa ehtiyacı olduğu bir zamanda rəsmi Nyu-Dehlinin bu addımları atması ... heç kəs tərəfindən müsbət qarşılanmayacaq.

***İttifaq MİRZƏBƏYLİ***



# Azərbaycan–İran: ortaq təməllər, yeni hədəflər

**Bu gün müstəqil Azərbaycan dünya birliyində öz layiqli yeri olan, mövqeyini gündən-günə möhkəmləndirən güclü dövlətlərindən biridir. Qonşu dövlətlərlə qarşılıqlı, faydalı əməkdaşlıq, mehriban münasibətlərin inkişaf etdirilməsi, bölgədə sülh və əmin-amanlığın bərqərar olması ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biridir.**

Çoxəsrlik ortaq tarix və mədəniyyətə malik olan müstəqil Azərbaycanla İran İslam Respublikasının tarixi və mədəni bağlılıqları iki dövlət arasında münasibətlərin bütün sahələr üzrə inkişafı üçün zəmin yaradır.

İran İslam Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 12 mart 1992-ci ildə qurulmuşdur. 1969-cu ildə İranın Bakı şəhərində açılmış konsulluğu 1992-ci ilin mart ayından İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi kimi fəaliyyətini davam etdirir. 1992-ci ilin dekabr ayında isə Azərbaycan Respublikasının İran İslam Respublikasında səfirliyi, 1992-ci ilin mart ayından İranın Naxçıvan şəhərində Baş Konsulluğu , 2004-cü ilin oktyabr ayından isə Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğu fəaliyyətə başlayıb. Ümumilikdə, dövlətlərimiz arasında münasibətlər möhkəm təməllər üzərində qurulub. İran Azərbaycan ilə ən böyük sərhədə malik dövlətdir və qarşılıqlı əlaqələrimizin tərəflər üçün səmərəli formada davam etməsi rəsmi Bakı ilə Tehranın maraqlarına cavab verir. Bu gün ikitərəfli əlaqələrimiz ticarət-iqtisadi, enerji, energetika, nəqliyyat, logistika, kənd təsərrüfatı, humanitar və digər sahələr üzrə inkişaf edir.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın 2025-ci il aprelin 28-də Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mətbuata bəyanatında bu səfərin qarşılıqlı münasibətlərin inkişafında əhəmiyyətli rol oynayacağına əminliyini bildirərək dedi: "Çalışacağıq ki, gələcək üçün geniş, əhatəli və daha yaxşı strateji planımız olsun. Bütün sahələrdə – sənaye, elm, mədəniyyət, iqtisadiyyat, siyasət, təhlükəsizlik üzrə planlarımız olsun. Biz birlikdə bölgədə sülh, təhlükəsizlik və əmin-amanlığı təmin edəcəyik və öz çətinliklərimizi həll edəcəyik".

Bölgənin sabitliyi üçün, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün İran–Azərbaycan dostluğu, qardaşlığı önəmli amildir. Qarşılıqlı hörmətə və dostluğa əsaslanan əlaqələrimiz həm ikitərəfli formatda, həm regional müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində yüksələn xətlə inkişaf edir. Ölkələrimiz hazırda beynəlxalq təşkilatlar çərçivəsində də bir-birini dəstəkləyirlər. Bu məsələ Azərbaycan və İran prezidentlərinin görüşü zamanı da gündəmə gəldi. Prezident İlham Əliyevin bəyanatında bu aspekt belə vurğulandı: "İstər BMT olsun, istər İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində daim bizim nümayəndələrimiz bir-birinin yanındadır." Göründüyü kimi, Azərbaycanla İran yalnız regional deyil, qlobal diplomatik platformalarda da ortaq mövqelər nümayiş etdirirlər. Dövlət başçımız mətbuata bəyanatında həm də qeyd etdi ki, "Azərbaycanla İran arasında Azərbaycan–İran–Rusiya, Azərbaycan–İran–Türkiyə, Azərbaycan–İran–Gürcüstan–Türkiyə və 3+3 regional məşvərət mexanizmi çərçivəsində də əməkdaşlıq mövcuddur".

Görüşdə hər iki ölkə arasındakı siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrindəki əməkdaşlıq və gələcək perspektivlər müzakirə olundu. Azərbaycan ilə İran arasında nəqliyyat sahəsindəki əməkdaşlıq əlaqələri xüsusi diqqət çəkir. Azərbaycan və İran Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi kimi beynəlxalq mahiyyət daşıyan Hindistanı, İranı, Fars körfəzi ölkələrini Rusiya ilə, daha sonra isə Avropa ilə birləşdirən bir layihənin həyata keçirilməsində də əməkdaşlıq edir. Bu layihə Azərbaycan və İran üçün strateji əhəmiyyətə malik olmaqla yanaşı, regionun tranzit potensialını genişləndirən çoxşaxəli layihədir.

Ölkə başçısı bəyanatında bildirdi: "Biz bu gün təbii olaraq üçtərəfli əməkdaşlıq layihələrini geniş müzakirə etdik. Onların arasında təbii olaraq Şimal–Cənub nəqliyyat dəhlizi xüsusi yer tutur. Bu layihə bu layihədə iştirak edən bütün ölkələrə çox böyük səmərə gətirəcək, böyük fayda verəcək. Azərbaycan öz ərazisində bu nəqliyyat dəhlizinin fəaliyyəti üçün bütün lazımi infrastruktur layihələrini həyata keçirib. Hazırda biz, sadəcə olaraq, artacaq yükləri nəzərə alaraq öz nəqliyyat imkanlarımızı və infrastrukturumuzu genişləndiririk. İstər dəniz limanı olsun, dəmir yolu olsun, avtomobil nəqliyyatı olsun – bütün bu istiqamətlər üzrə gözlənilən böyük yük həcmlərini qəbul etmək və ötürmək üçün biz böyük sərmayə qoyuluşu layihələrinə başlamışıq".

Ölkələrimiz arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin, imzalanan sənədlərin böyük rolu var. Son illər ərzində ölkələr arasında imzalanmış 147 sənəd qarşılıqlı ticarət dövriyyəsinin artırılmasından tutmuş, enerji, nəqliyyat, kənd təsərrüfatı və humanitar məsələlərə qədər bir çox sahəni əhatə edir ki, bu da Azərbaycanın və İranın inkişafı və tərəqqisi üçün böyük əhəmiyyət daşıyan mühüm hüquqi bazanı təşkil edir.

Səfər çərçivəsində imzalanan 5 mühüm sənəd münasibətlərin hüquqi-institusional bazasının genişləndirilməsi baxımından əhəmiyyətlidir. Xüsusilə, 2025–2027-ci illəri əhatə edən Siyasi Məsləhətləşmələr Proqramı müntəzəm diplomatik təmasların təminatçısı rolunu oynayır. 2025–2028-ci illər üçün Mədəni Mübadilə Proqramı, nəqliyyat, dənizçilik, mədəniyyət və media sahəsində imzalanan digər sənədlər əməkdaşlıq platformalarının formalaşdırılmasını nəzərdə tutur. Bu isə regionda informasiya təhlükəsizliyinin təmin edilməsində və mədəni diplomatiyanın inkişafında vacib rol oynayır.

Bu görüş iki dövlət arasında tarixi əlaqələrin davamlılığını və regionun sabitliyinə verdiyi töhfələri bir daha nümayiş etdirdi.İki dövlət başçısının Bakıda keçirdiyi görüşlər, əldə edilmiş razılaşmalar, aparılan danışıqlar və imzalanan sənədlər bir daha əminlik yaradır ki, ölkələrimiz arasındakı tarixi köklərlə biri-birinə bağlı olan əlaqələr gələcəkdə daha da dərinləşəcək və sadəcə iki qonşu dövlətin deyil, bütövlükdə, regionun inkişafına xidmət edəcəkdir.

***Gülxarə TARVERDİYEVA,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Çinin Azərbaycana minatəmizləmə dəstəyi

**(əvvəli 1-ci səhifədə)**



Bu barədə Çinin Azərbaycandakı yeni təyin olunmuş səfiri Lu Mey Bakıda keçirilən brifinqdə dedi: "Çin Azərbaycanda insanların rifahının təmin edilməsinə böyük önəm verir və uzun illərdir Heydər Əliyev Fondu ilə birlikdə şəhid ailələrinin uşaqlarına və həyat çətinlikləri yaşayan uşaqlara yardım məqsədilə layihələr həyata keçirir. Səfər zamanı tərəflər humanitar minatəmizləmə sahəsində əməkdaşlığın gücləndirilməsi barədə Anlaşma Memorandumu imzalayıblar. Çin öz imkanları daxilində Azərbaycana minatəmizləmə və mina qurbanlarına dəstək sahələrində humanitar yardım göstərməyə davam edir".

Bəli, bu gün Azərbaycanla Çin arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlıq ölkəmiz üçün çox önəmlidir. Hazırda Azərbaycanın sosial-iqtisadi inkişafının əsas prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, iqtisadiyyatının dirçəldilməsi və böyük qayıdışın təmin edilməsidir. Çin bu tədbirlərdə yaxından iştirak etmək və sərmayə yatırmaqda maraqlıdır. Azərbaycan tərəfi də buna müsbət yanaşır. Azərbaycan–Çin Hökumətlərarası Ticarət–İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclasında Baş nazirin müavini Şahin Mustafayev Çin rəsmilərinə işğaldan azad olunmuş ərazilərindəki həyata keçirilən müasir infrastruktur layihələri və gələcək iqtisadi perspektivlər haqqında ətraflı məlumat verərək, Çin şirkətlərini bu ərazilərə investisiya yatırmağa dəvət edib. Bu baxımdan Çin Cənubi Qafqaz regionunda davamlı sülhə nail olunmasında və Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Əməkdaşlığa ən böyük çətinlik yaradan amil isə mina problemidir.

Yada salaq ki, Azərbaycanın 12 faizdən çox ərazisinə minalar basdırılıb. Ölkəmizin ərazisində 1,5 milyon mina olmaqla dünyanın minalarla ən çox çirklənmiş ilk 5 ölkəsi sırasındadır. İşğaldan azad edilmiş 1 milyon 166 min 702 hektar ərazidə minaların olması güman edilir, bunun da 211 min 800 hektarı yüksək və 954 min 902 hektarı orta və aşağı çirklənmə səviyyəsindədir.

Aparılan tədqiqat zamanı keçmiş təmas xəttinin və onun ətrafında yerləşən bağların, meşələrin, üzüm plantasiyalarının, dağıdılmış yaşayış məntəqələrinin, çay sahillərinin minalarla ciddi şəkildə çirkləndiyi aşkar edilib. Onlara, həmçinin kənd təsərrüfatına yararlı torpaqlarda və ətraflarında, otlaqlarda, yollarda, körpülərdə, məktəblərdə, su mənbələrində (kəhrizlərdə) rast gəlinir. Hətta bəzi yaşayış məntəqələrinin qəbiristanlıqları da minalanıb.

Milli Məclisinin deputatı Fatma Yıldırım bildirdi ki, Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir: "Ermənistanın mina terroru hələ də davam edir. 2020-ci ildə Vətən müharibəsinin bitməsindən bəri mina partlayışları nəticəsində, ümumilikdə, 392 azərbaycanlı həlak olub və ya ağır yaralanıb.

Yalnız hərbi qulluqçular deyil, çoxsaylı mülki şəxslər, öz xidməti vəzifələrini və peşə borclarını yerinə yetirmək üçün işğaldan azad edilmiş bölgələrə ezam olunmuş insanlar, o cümlədən media nümayəndələri onun qurbanı olublar. Bu yaxınlarda Ağdamda bir mülki şəxsin mina qurbanı olması təhlükənin davam etdiyini göstərir. Statistik məlumatlara əsasən, 1991-ci ildən bu günə kimi mina qurbanlarının sayı 3400 nəfərdən çoxdur. Bunların 359-u uşaq, 38-i qadındır. Bu rəqəmlər regionda ədalətli və dayanıqlı sülhün təmin edilməsi yolunda böyük bir maneə olan mina probleminin fundamental insan hüquqlarının kobudcasına pozulmasına səbəb olduğunu əyani şəkildə təsdiq edir. Problemin miqyasını və faciəvi nəticələrini göstərir".

Deputat dedi ki, humanitar problemin aradan qaldırılması işində xarici yardımlar bu sahəyə sərf olunan resursların cüzi bir hissəsini təşkil edir: "Təəssüf doğuran hal odur ki, beynəlxalq humanitar hüquq və minatəmizləmə sahəsində beynəlxalq fəaliyyətə böyük əhəmiyyət verdiyini iddia edən bəzi dövlətlər Azərbaycana minatəmizləmə sahəsində yardım göstərmir, əksinə, Ermənistanın silahlanmasına hərtərəfli dəstək verirlər. Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir".

Dəstək isə gözlənildiyindən çox azdır. Məsələn, Avropa İttifaqından (Aİ) Azərbaycanda minatəmizləmə əməliyyatları üçün ayrılan ümumi maliyyə, bu il ayrılan vəsaitlər nəzərə alınmaqla, təxminən 23 milyon avroya çatacaq. Əlbəttə, Brüsselin ayırdığı məbləğ problemin miqyası ilə müqayisədə çox azdır. Müharibənin başa çatmasından beş il keçməsinə baxmayaraq, hələ də minadan təmizlənməmiş kifayət qədər ərazi var. Həmin ərazilərin təmizlənməsi isə illərlə vaxt aparacaq. Bu səbəbdən Azərbaycan Aİ ilə əməkdaşlığın daha da genişlənməsində və birgə daha böyük layihələrin həyata keçirilməsində maraqlıdır. Ümid edirik ki, gələcək illərdə bu məsələyə xüsusi diqqət yetiriləcək, ayrılacaq məbləğin həcmi artacaq.

Deputat daha sonra dedi ki, kollektiv Qərb yardımdan başqa, Ermənistan tərəfindən törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidir. Erməni tərəfinin təqdim etdiyi mina xəritələrinin dəqiqliyi cəmi 25 faizdir. Əgər minalanmış ərazilərin xəritələrinə çıxış olmasa, mina təmizləmə fəaliyyətləri çox çətinləşəcək.

Bu rəqəm ciddi təhlükədən xəbər verir. Basdırılan minaların isə 75 faizinin dəqiq yeri məlum deyil. Yeri məlum olmadığı üçün böyük həvəslə, böyük ruhla torpaqlarına geri dönən insanlar mina qurbanına çevrilir, ölür və ya əlil olurlar. Deməli, mina terroru həm fiziki təhlükə yaradır, psixoloji gərginliyə səbəb olur, həm də insanların gündəlik yaşamına neqativ təsir göstərir. İşğaldan azad edilmiş ərazilərin bərpasına və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışına ciddi problemlər yaradır.

Ona görə də, tezliklə işğaldan azad olunmuş ərazilərimiz minadan təmizlənməli, sərmayələrin yatırılması üçün geniş imkanlar açılmalıdır. Bu sahədə Çinlə əməkdaşlıq faydalıdır. Artıq Çin Ərazilərin Minalardan Təmizlənməsi üzrə Agentlik (ANAMA) ilə əməkdaşlıq qurmaqla Azərbaycanın Qarabağ bölgəsinin bərpasına dəstək nümayiş etdirir. Əhalinin təbii sərvətlərə təhlükəsiz çıxışının təmin edilməsinə, eləcə də əhalinin öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətlə qayıtması üçün şəraitin yaradılmasına kömək edir.

ANAMA son 4 il ərzində (2021-2024-cü illər) 179 min 186 hektar ərazini mina və partlamamış sursatlardan təmizləyib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planına əsasən, 2022–2025-ci illər ərzində 215 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub. Plana uyğun olaraq, hazırda 159 min hektardan artıq ərazi minalardan təmizlənib. Bu da o deməkdir ki, müddətin bitməsinə bir il qalsa da, dövlət proqramında nəzərdə tutulan ərazinin 73,95 faizi minalardan təmizlənib.

Bundan başqa, tədbirlər planında 2026-cı ilin sonuna kimi işğaldan azad olunmuş ərazilərdə minalardan təmizlənmiş ərazilərin sahəsinin 280 min hektara çatdırılması qeyd olunub.

ANAMA-dan verilən son məlumata görə, azad olunan ərazilərdə aprel ayı ərzində 79 tank əleyhinə mina, 302 piyada əleyhinə mina, 3047 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.

Minatəmizləmə işlərinin görülməsində Çinin dəstəyinin rolu böyükdür. Bu sahədə iki ölkə arasında məhsuldar əməkdaşlığın həyata keçirilməsi, zəruri müqavilə-hüquqi baza yaradılması günün tələbidir. Nəticə etibarilə Azərbaycan–Çin münasibətlərində yeni mərhələnin əsası qoyulub.

Bu gün Bakı ilə Pekin arasında bir-birinə hörmət və strateji əməkdaşlıq əsasında qurulan münasibətlər beynəlxalq sistemdə sülh, təhlükəsizlik və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq nümunəsi kimi dəyərləndirilir. Bu çərçivədə siyasi dialoqun intensivləşməsi, iqtisadi-ticarət, nəqliyyat və minatəmizləmə sahələrində əməkdaşlığın dərinləşməsi regional sabitlik və inkişaf üçün mühüm imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzurun bərpa və inkişafında önəmli rol oynayacaq. Bu, yalnız ikitərəfli münasibətlərin möhkəmlənməsi baxımından deyil, həm də Asiya ilə Avropa arasında geostrateji körpünün güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ermənistanda revanşizm: iddia köhnə, çağırış isə yenidir

**(əvvəli 1-ci səhifədə)**



Beləliklə, Abramyan öz xəstə təxəyyülünə əsaslanaraq bildirir ki, Ermənistanın hazırkı iqtidarı Azərbaycanın tələbi ilə ölkə konstitusiyasına dəyişikliklər çərçivəsində siyasi rəqiblərinin fəaliyyətini asanlıqla cinayət saya və onların mövqeyini bölüşməməyi, yaxud tənqid etməyi ağır cinayət kimi təsnifatlandıra bilər. Onun sözlərinə görə, bundan əlavə, hakimiyyət müəyyən edə bilər ki, onların komfortuna zidd olan istənilən addım, söz və ya hərəkət dövlətə güc tətbiqindən istifadə etmək üçün legitim əsaslar verir. "Ermənistanda diktatura quruculuğu çərçivəsində hakimiyyət təkcə siyasi müstəvidə deyil, bütövlükdə, "qaydasız döyüş" prinsiplərinin əsasını qoyub. Burada hakimiyyətin qeyri-məhdud səlahiyyətləri və qanundan kənar hərəkət etmək hüququ var. Özünü müdafiə edənlərin, döyülənlərin, zorakılığa məruz qalanların isə yalnız bir yolu var: qurbana çevrilmək və barmaqlıqlar arxasına düşmək" – deyə Abramyan sonda yazıb.

Göründüyü kimi, Abramyanın ölkəmizə nifrəti o qədər böyükdür ki, hətta, daxili siyasi mübarizə kontekstində də Azərbaycanın adını çəkir. Bunu sanki özünün vəzifə borcu hesab edir. Bu, bir daha Ermənistana 20 il rəhbərlik etmiş, ölkənin sərvətlərini yağı kimi mənimsəmiş, ordu üçün ayrılan pulları oğurlamış Qarabağ klanının hakimiyyətə məhz erməni xalqını Azərbaycan amili ilə qorxudaraq gəldiyini göstərir. 2018-ci ildə xalq onun qanını zəli kimi soran bu klanı siyasi səhnədən süpürüb onu tarixin zibilliyinə atdı. Ancaq, necə deyərlər, bu "siyasi meyitlər" yenə də xortlayaraq əhalini aldatmağa, xüsusilə gəncləri öz tərəflərinə çəkməyə çalışırlar. Əsas kimi isə yenə də Qarabağ amilindən istifadə etməyə cəhd göstərirlər. Bütün ümidləri isə 2026-cı ildə keçiriləcək parlament seçkilərinə bağlayıblar, "bəlkə də qaytardılar" ümidi ilə yaşayırlar.

İndiyədək Nikol Paşinyanı gözdən-nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edən radikallar indi də diktatura qurulması söhbətini ortaya atıblar. Əlbəttə, bir azərbaycanlı kimi, bizim də Paşinyana münasibətimiz müsbət deyil. Bunun belə olması mümkünsüzdür! Amma Paşinyan iqtidarını diktatura adlandırmaq da sağlam məntiqə uyğun gəlmir. Belə yanaşmalar yalnız reallıqdan uzaqlaşmış Abramyan kimilərinin düşüncəsinin məhsulu ola bilər.

Hər kəsin yaxşı yadındadır ki, İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra İrəvanda başlanan iğtişaşlar və kütləvi etirazlar fonunda Paşinyan 2021-ci il aprelin 25-də hökumətlə birlikdə baş nazir vəzifəsindən istefa vermişdi. Bununla belə, o, ölkənin baş naziri kimi fəaliyyətini davam etdirmiş və iyunun 21-də keçirilən növbədənkənar seçkilərdə qələbə qazanmışdı. Paşinyanın rəhbərlik etdiyi fraksiya 53,92 faiz səs toplamışdı. Qarabağ klanının "xaç atası" Robert Koçaryanın "Ermənistan" bloku ondan 33 faiz az (21,04 faiz) səs toplamışdı.

Müxalifət həmin vaxt da hansısa ciddi qanun pozuntularından bəhs etmiş və nəticələri konstitusiya məhkəməsində mübahisələndirmək istəmişdi. Lakin "BBC rus xidməti"nin xəbərinə görə, Paşinyana səs verənlərin çoxu öz səslərini daha çox 20 il hakimiyyətdə olmuş və inqilabla devrilmiş iki prezidentin koalisiyasına etiraz səsi hesab edirdilər. Eyni zamanda, müşahidə missiyaları, o cümlədən Rusiya, MDB və KTMT missiyaları ciddi pozuntuların olmadığını bəyan edərək seçkilərə yüksək qiymət vermişdilər. Buna da nəticələri mübahisələndirmək asan olmamışdı. Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç Paşinyanı qələbə münasibətilə təbrik edərək, seçkilərdə yaxşı təşkilatçılıq və inkişaf etmiş rəqabətdən də danışmışdı. Bütün bu faktlar ortada var ikən yenidən müxalifətin suları bulandırıb balıq tutmaq cəhdləri , o cümlədən ölkəmizin adını hər bir məsələdə hallandırması etiraz doğurur.

Əgər müxalifət, həqiqətən də, gələnilki seçkilərdə uğur qazanmaq istəyirsə, ona uğur gətirə biləcək digər metodlardan istifadə barədə düşünsə daha yaxşı olardı. Paşinyanı diktatura qurmaqda, despot, əzazil olmaqda ittiham etmək onların olan-qalan reytinqinin də əldən getməsi ilə nəticələnəcək. Məhz elə həmin Qarabağ klanı birbaşa və dolayısı yolla minlərlə ermənin ölümünə səbəb olub. Onların Birinci Qarabağ müharibəsində Azərbaycanla müharibə aparması hayların da itki verməsi ilə nəticələnib. Robert Koçaryan, Serj Sarkisyan, Zori Balayan, Samvel Babayan, bu gün Bakıda mühakimə olanan separatçı "qlavarlar" isə Qarabağda və daha sonra Ermənistanda hakimiyyətə yiyələnib və böyük sərvət toplayıblar.

2008-ci ildə Koçaryanın hakimiyyəti Sarkisyana ötürməsinə erməni xalqının etirazı sonda qan tökülməsinə gətirib çıxarmışdı. Çoxlarının yaxşı yadındadır ki, 2008-ci il fevralın 19-da Hayastanda keçirilən prezident seçkilərindən sonra paytaxt İrəvanda seçki pozuntularına qarşı kütləvi etiraz aksiyaları başlamışdı. Prezidentliyə namizəd və ölkənin birinci prezidenti Levon Ter-Petrosyanın tərəfdarları tərəfindən təşkil edilən etirazlarda təxribat törədilmiş, etirazçılarla hüquq–mühafizə orqanları əməkdaşları arasında toqquşma zamanı azı 8 nümayişçi və 1 hərbçi həlak olmuş, 230 nəfər yaralanmışdı. Beləliklə, Sarkisyan axan qanlar üzərindən hakimiyyətə yiyələnmişdi.

**Mövzu üzrə fikirlərini XQ ilə bölüşən politoloq İlyas Hüseynov** dedi ki, biz də



cəmiyyət olaraq sayıqlığımızı itirməməliyik. Bilməliyik ki, hazırda bu qüvvələr iş başındadırlar və fürsət gözləyirlər: "Onlar özlərini erməni cəmiyyətinə "vətənpərvər" kimi təqdim edərək, İkinci Qarabağ müharibəsi sonrası yaranan vəziyyəti qəbul etmədikləri görüntüsünü yaratmağa cəhd edirlər. Müharibənin, həmçinin antiterror əməliyyatının nəticələrini qəbul etməyən və Ermənistanın müharibədə itirdiyi torpaqları yenidən bərpa etməyə çalışan bu mariginal qruplar "keçmişin qaytarılması" eşqi ilə yaşayırlar. Birinci Qarabağ müharibəsindən sonra hayların nəzarətində olmuş Qarabağ və ətraf ərazilərin tamamilə yenidən işğalını hədəfləyirlər. Onlar, "Qarabağ Ermənistanındır!" şüarını irəli sürərək bu əraziləri yenidən ələ keçirmək istəyirlər. Revanşist qruplar ölkəmizin Cənubi Qafqazdakı mövqeyini zəiflətməyi və Ermənistanın "tarixi böyük dövlət" statusunu bərpa etməyi hədəfləyirlər. Xüsusən, erməni xalqının müstəqilliyinin qorunmasını və "Dağlıq Qarabağın müstəqilliyini" təmin etməyə çalışırlar".

Politoloq qeyd etdi ki, bu çərçivədə Paşinyan hökumətinə təzyiq göstərmək onların başlıca iş prinsipidir. Onlar iqtidarın Azərbaycanın qalibiyyətini və Qarabağdakı itkiləri qəbul etməsini tənqid edirlər. Paşinyan hökumətinin kapitulyasiya etdiyini iddia edir və sülh danışıqlarına qarşı çıxırlar. Ermənistandakı revanşist hərəkatlar regional və beynəlxalq sabitliyə də təhlükə yaradır. Azərbaycanın müharibədə qazandığı Qələbə Cənubi Qafqazda yeni geosiyasi düzən yaradır. Ermənistan revanşistləri isə bu yeni tarazlığı pozmağa və müharibəyə gətirib çıxara biləcək yeni münaqişələrin yaranmasına səbəb ola bilərlər. Azərbaycan bunun fərqindədir.

Onu da bildirək ki, Ermənistandakı revanşistlərlə bağlı məsələyə aprelin 9-da ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev də münasibət bildirdi. Dövlətimizin başçısı dedi ki, biz Ermənistanda kifayət qədər güclü revanşist qrupların olduğunu bilirik: "Mən onları iki qrupa bölərdim: 30 illik işğala görə məsuliyyət daşıyan fəal revanşistlər və guya, konstruktiv yanaşma sərgiləməyə cəhd göstərən, lakin, əslində, eyni revanş və intiqam hissi ilə yaşayan bugünkü hökumət olan passiv revanşistlər. Onların ölümcül silahları almasının səbəbi də budur..."

Dövlətimizin başçısı onu da bildirdi ki, biz, eyni zamanda, ayıq-sayıq olmalı, 30 illik işğalı unutmamalıyıq: "Biz təkcə diasporda, Fransa və ABŞ-da yox, Ermənistan hökumətində və bütün siyasi dairələrdə hələ də dövriyyə edən "böyük Ermənistan" xəyallarını unutmamalıyıq. Qarabağın yenidən geri alınmasını xəyal etməyən bir erməni siyasətçisini demək olar ki, tapa bilməzsiniz. Bu, reallıqdır. Biz bu reallığı müxtəlif informasiya mənbələrindən bilirik və biz bununla yaşamalıyıq. Odur ki, ola bilsin, bunlar bizim müharibədən, postmüharibə vəziyyətindən çıxardığımız nəticələrdir və postmüharibə vəziyyətinin necə inkişaf edəcəyi əsasən Ermənistandan asılıdır...."

Beləliklə, aydın olur ki, Ermənistandakı radikal revanşist hərəkatlar vaxtilə işğal etdikləri ərazilərin geri alınması ideyasını irəli sürərək regionda yeni münaqişələrə yol aça bilərlər. Onların təbliğ etdiyi sərt millətçi ideologiyalar bölgənin sosial və siyasi sabitliyini təhdid edir. Ermənistan cəmiyyətinin bu radikal düşüncələrdən uzaqlaşması zəruridir.

***Səxavət HƏMİD***
***XQ***

# "İctimai proseslər media müstəvisində" mövzusunda forum

**Mayın 2-də Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "İctimai proseslər media müstəvisində" mövzusunda forumun açılış mərasimi keçirilib.**






Forumun keçirilməsində məqsəd medianın maarifləndirici funksiyasının və ictimai rəyin formalaşmasında proaktiv həssas rolunun artırılması, mediadan müxtəlif aktual məsələlərə qarşı mübarizədə düzgün istifadə, həssas məlumatların cəmiyyətə müəyyən prinsiplərə uyğun şəkildə ötürülməsi, media, dövlət qurumları və digər tərəflər arasında koordinasiyanın təkmilləşdirilməsidir.

Tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin, həmçinin Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş videoçarx nümayiş olunub.

Mərasimdə çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ölkəmizin media gündəminin aktual əhəmiyyət kəsb edən ictimai məzmunlu məsələlərinin müzakirəsini hədəfləyən forumun artıq ikinci ildir dövlət–media dialoqunu formalaşdıran səmərəli platforma kimi fəaliyyət göstərdiyini vurğulayıb. 2025-ci ilin Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edildiyini xatırladan icraçı direktor bildirib ki, Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətləri sırasındadır.

Ə.İsmayılov, həmçinin qeyd edib: "Son illərdə media və kommunikasiya fəaliyyətinin müasir formada təşkil edilməsinin nəticəsidir ki, ölkəmizə qarşı qarayaxma kampaniyaları aparan tərəflərin həqiqi niyyətləri yerli mediada operativ formada ifşa olunur, cəmiyyətdə neqativ xəbər axınına qarşı dayanıqlı təbii müqavimət – informasiya immuniteti gücləndirilir".

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva bildirib ki, hüquqi dövlət quruculuğunun əsas prinsiplərindən birini müstəqil medianın mövcudluğu, fikir, söz və mətbuat azadlığı təşkil edir. Media, eyni zamanda, effektiv ictimai nəzarət vasitəsi kimi çıxış edir. Onun sözlərinə görə, son illər rəqəmsal texnologiyalara sürətli keçid, media mühitinin müasirləşməsi və bu qəbildən olan digər innovasiyalar keyfiyyətcə yeni media mühitini formalaşdırmaqdadır. Lakin bu transformasiya fonunda bəzi ciddi risklər də meydana çıxa bilər. Onlar sırasında dezinformasiya, nifrət nitqi, şəxsi həyatın toxunulmazlığına müdaxilə, rəqəmsal təqib, kiberzorakılıq, təhsildən yayındırma, zərərli sahələrə meyillilik, aqressiv davranışlara səbəb olma halları ilə bağlı risklər xüsusi ilə qeyd olunmalıdır.

Ali Məhkəmənin Kollegiya sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev çıxışında diqqətə çatdırıb ki, məhkəmə fəaliyyətinə dair informasiyanın açıqlığı öz növbəsində xüsusi yanaşma tələb edən məsələlər dairəsinə aiddir. Belə ki, bu, istənilən məlumata deyil, vətəndaşların şəxsi həyatına toxunmayan, o cümlədən şəxsi və ailə sirri təşkil etməyən məlumatlara əlçatanlığı nəzərdə tutur. Bu baxımdan, fikir və söz azadlığından istifadə edilərkən digər şəxslərin şərəf və ləyaqətinin, şəxsi həyat toxunulmazlığına qanunsuz müdaxilənin yolverilməz olduğu diqqətdən kənarda qalmamalıdır.

Onun sözlərinə görə, media məkanında şəxslərin şərəf və ləyaqətinin müdafiəsi məsələlərinə müəyyən qədər diqqət ayrılsa da, təəssüf ki, vətəndaşların şəxsi həyatının toxunulmazlığı, şəxsi və ailə sirri kimi konstitusion hüquqlarının qorunması ilə bağlı vəziyyət heç də ürəkaçan deyil. Belə ki, xüsusən televiziya verilişlərində bu hüquqlara qanunazid müdaxilə adət halı alıb.

Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev çıxışında qeyd edib ki, Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar ölkəmizdə siyasi, iqtisadi və hüquq sisteminin köklü dəyişdirilməsindən ibarət olmaqla, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edib. Azərbaycan Konstitusiyasında sosial ədalət konsepsiyası geniş formada öz əksini tapıb. Burada iqtisadiyyatın azad inkişafına təminat verməklə ölkənin hər bir vətəndaşının rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsi funksiyası olaraq dövlətin üzərinə qoyulub.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, ölkəmizdə rəqəmsal inkişaf sahəsində atılan mühüm addımlar media məkanında tərəqqi və müasir tələblərə uyğunlaşma üçün münbit şərait yaradır. Bu yaxınlarda uğurla həyata keçirilmiş onlayn layihələr, internet sahəsində qazanılan nailiyyətlər informasiyaya əlçatanlığı əhəmiyyətli dərəcədə artırıb, ucqar bölgələrdə yaşayan vətəndaşların da müxtəlif mənbələrdən operativ məlumat əldə etmələrinə şərait yaradıb.

Forum işini "Konstitusiya və Suverenlik İli"ndə media gündəmi", "Nəqliyyat infrastrukturunda davamlı həllər media müstəvisində", "Təhlükəsiz rəqəmsal media mühiti: məlumatlı istifadəçilər" mövzularında panel sessiyaları ilə davam etdirib.

**Forum çərçivəsində "Konstitusiya və Suverenlik İli"ndə media gündəmi" panel iclası keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, polkovnik Anar Eyvazov çıxışında bildirib ki, bəzən mediada bilərəkdən və ya bilməyərəkdən informasiya təhlükəsizliyi ilə bağlı məhdudiyyətlər pozularaq məlumatlar paylaşılır.

Konstitusiya Məhkəməsinin İnsan hüquqları və analitik şöbəsinin müdiri Anar Cəfərov medianın proseslərin işıqlandırılmasında müxtəlif hüquqşünasların rəyinin paylaşılmasının mühüm addım olduğunu qeyd edib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Laman Hüseynzadə bildirib ki, media ilə dövlət qurumları arasında münasibətlər tərəfdaşlığa əsaslanır.

Ombudsman Aparatının mətbuat katibi Araz Əsgərli isə qeyd edib ki, media nümayəndələrinin hüquqlarının qorunmasında Ombudsman İnstitutu mühüm rol oynayır və insan hüquq və azadlıqlarının təminində medianın rolu danılmazdır.

Çıxışlardan sonra panel sessiya sual-cavab formatında davam etdirilib.

**Forum çərçivəsində "İctimai proseslər media müstəvisində" panel iclası keçirilib.**

Baş Dövlət Yol Polisi İdarəsinin Hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rövşən Tağıyev yollarda təhlükəsizliyin təmin edilməsinin idarənin əsas vəzifələrindən biri olduğunu diqqətə çatdırıb. Bildirib ki, maarifləndirmə prosesində media nümayəndələri qurumun işinin təşkilinə çox kömək edir.

"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) daxili və xarici kommunikasiyalar şöbəsinin rəhbəri Fərid Hüseynov hava nəqliyyatının ictimaiyyəti maraqlandıran ən vacib sahələrdən biri olduğunu bildirib. O, AZAL-da xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı çox böyük işlərin görüldüyünü diqqətə çatdırıb. Əlavə edib ki, son 3 ildə əməliyyat və sərnişin dövriyyəsi baxımından AZAL böyük nəticələr əldə edib.

"Bakı Metropoliteni" QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov çıxışında metronun cəmiyyətin nəbzini vuran bir nəqliyyat sistemi olduğunu qeyd edib. O, müasir dövrdə sosial medianın ənənəvi mediada daha çox xəbər mövzusu verdiyini vurğulayıb. Həmçinin B.Məmmədov "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın icrası məsələsində medianın onlara böyük dəstək göstərəcəyinə ümidvar olacağını ifadə edib.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) kommunikasiya departamentinin direktoru Vəli Məmmədov AYNA-ya gündəlik ortalama 12 sorğunun daxil olduğunu qeyd edib. O, daxil olan sorğuların 95 faizinin gün ərzində qurum tərəfindən cavablandırıldığını diqqətə çatdırıb.

Çıxışlardan sonra tədbir sual-cavab formatında davam etdirilib.

**Forum çərçivəsində "Təhlükəsiz rəqəmsal media mühiti: məlumatlı istifadəçilər" panel iclası da keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev hazırda kibertəhdidlərin, onlayn oğurluq hallarının onları narahat edən əsas məsələlərdən biri olduğunu deyib. E.Hacıyev vətəndaşların bank kartları ilə bağlı məlumatlarının digər şəxslərlə paylaşılmamasını tövsiyə edib.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Saleh Hacıyev kiberməkanda mövcud olan təhlükələrin dövlət qurumlarının daim diqqət mərkəzində olduğunu qeyd edib. Həmçinin saxta yayılan informasiyalarla bağlı media orqanlarının üzərinə çox böyük iş düşdüyünü diqqətə çatdırıb.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin idarə rəisi Nadir Novruzov dövlət qurumlarına müxtəlif növ hücumların olduğunu bildirib. O, həmçinin informasiya təhlükəsizliyinin təmin olunmasını vacib amil hesab edib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin rəis müavini Elvin Şahverdiyev ölkədə rəqəmsallaşmanın artmasının Azərbaycanı regionda lider dövlətinə çevirdiyi vurğulayıb. E.Şahverdiyev kibertəhdidlərin gündən-günə artdığını vurğulayaraq bununla bağlı maarifləndirmə tədbirlərinin vacib olduğunu diqqətə çatdırıb.

Panel sessiyası sual-cavab formatında davam etdirilib.

*XQ*

## Xuntaçıların məhkəməsi

# Qondarma rejimin "nazir"ləri İrəvanda təyin olunurdu

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 2-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin ifadələri və sualları cavablandırması ilə davam etdirilib.

Zərərçəkmiş şəxs, Qaradağlı kənd sakini Rafiq Quliyev Ermənistan silahlı qüvvələrinin kəndə hücumlar etməsi, mülki şəxsləri və avtobusları atəşə tutması, azərbaycanlılara işgəncə verilməsi, onların qətlə yetirilməsi və s. barədə danışıb və kəndin işğalı ilə bağlı suallları cavablandırıb.

"Bizə deyirdilər ki, Qarabağ ermənilərindir, çıxın gedin", – deyə R.Quliyev qeyd edib.

O, Qaradağlı kəndi işğal olunan zaman özünün, atasının və anasının Ermənistan hərbçiləri tərəfindən girov götürüldüyünü bildirib. Zərərçəkmiş şəxs kəndə hücum edənlər arasında muzdluların da olduğunu deyib.

R.Quliyev Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında özünün, atası Əlastan Quliyevin digər azərbaycanlılarla birlikdə "KamAZ"lara yığılaraq Xankəndiyə aparıldığını, yolda "Bəylik bağı" adlanan yerdə maşını saxlayaraq girovların bir qisminin qətlə yetirildiyini bildirib.

Zərərçəkmişin atası Ə.Quliyev bir müddət girovluqda qalandan sonra Ermənistan hərbçilərinin verdiyi işgəncələr nəticəsində ölüb. "Anam 13 gün girovluqda saxlanıldıqdan sonra qaytarıldı. Mən isə 45 gündən sonra girovluqdan azad edildim. Girovluqda olan zaman bizi hər gün axşam döyürdülər. Hər gün bir tikə çörək, azca su verirdilər ki, ölməyək, sağ qalaq. Amma işgəncə verməkdə davam edirdilər", – deyə o əlavə edib.

R.Quliyev yaralı ola-ola ona işgəncə verildiyini də vurğulayıb.

Zərərçəkmiş şəxs, Xocavənd rayonunun Axullu kənd sakini Namik Hüseynov təqsirləndirilən şəxsləri televiziya vasitəsilə tanıdığını söyləyib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən o, vaxtilə Hadrutda kinomexanik işlədiyini, 1988-ci ildən Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana verilməsi barədə ermənəsilli əhali arasında təbliğatların başlandığını bildirib.

N.Hüseynov 1989-cu il sentyabrın 25-də qanunsuz erməni silahlı birləşmələrinin azərbaycanlıların məktəbinə hücum etməsi və həmin vaxt yaralanması barədə də danışıb: "Gördüm İsanı öldürəcəklər, mən də yaxınlaşdım. İndiki kimi yadımdadır, qırmızı geyimdə beş nəfər çıxdı. Orada bizi vəhşicəsinə döydülər. Bu barmağımı görürsünüz? Onu həmin vaxt sındırdılar. Başımı partlatmışdılar, sonradan 13 tikiş qoyuldu".

Zərərçəkmiş şəxs, Qaradağlı Kənd Xalq Deputatları Sovetinin sədri olmuş Cavay Hüseynov ifadəsində Ermənistan silahlı qüvvələrinin kəndə dəfələrlə hücum etməsindən və özünün yaralanmasından danışıb. Zərərçəkmiş bildirib: "İnsanlar təsərrüfatla, heyvandarlıqla məşğul idilər. Onlar heç bir müharibə, münaqişə istəmirdilər".

C.Hüseynov Qaradağlı kəndinin ətrafındakı yaşayış məntəqələrinin sakinlərinin ermənisilli olduqlarını, 1990-cı ilin noyabrından başlayaraq Qaradağlıya giriş-çıxışda ciddi maneələrin yarandığını bildirib. Bu səbəbdən də Qaradağlıya ərzaq vertolyotlarla daşınırmış. Zərərçəkmiş qeyd edib ki, bir müddət sonra Ermənistan silahlı qüvvələri vertolyotların da hərəkətinə imkan verməyib. 1992-ci il yanvarın 9-da o, Ağdamdan Qaradağlı kəndinə ərzaq gətirərkən vertolyot Ermənistan hərbçiləri tərəfindən atəşə tutulub.

C.Hüseynov kəndin "Alazan" raketləri, pulemyotlar və avtomatlar ilə mütəmadi şəkildə atəşə tutulduğunu, nəticədə ölənlərin və yaralananların olduğunu bildirib.

Zərərçəkmiş şəxs dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıraraq zaman 1992-ci il yanvarın məlumatlarına istinad edərək həmin vaxt Qaradağlı kənd sakinlərinin sayının 1166 nəfər olduğunu söyləyib.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Fasilədən sonra təqsirləndirilən şəxs Davit İşxanyan Xocavənd rayonunun işğalı ilə bağlı dövlət ittihamçılarının suallarını cavablandırıb. O, Xocavənd rayonunun Heşan kəndində dünyaya gəldiyini, həmin kənddə əhalinin 600–650 nəfər olduğunu bildirib. O, bacısının və Qriqori İşxanyan adlı qardaşının olduğunu vurğulayaraq deyib: "Qriqori təxminən 1988–1990-cı illərdə Levon Mirzoyan adına kolxozun mühasibi olub".

O, suallara cavabında Emil Balayanı tanıdığını, onun kolxoz sədri olduğunu deyib və əlavə edib: "Amma qardaşım mühasib olanda rəhbər deyildi, sonradan kolxoza rəhbər təyin olundu".

Növbəti suallara cavabında isə o, 1991-ci il iyunun 26–27-də Qaradağlı kəndində olmadığını iddia edərək bildirib: "İyunun 26-da gələcək həyat yoldaşımın ad gününü qeyd etmək üçün Xankəndiyə getmişdim".

Bu zaman prosesdə Emil Balayanın 1991-ci il iyunun 28-də istintaqa verdiyi ilkin izahat elan edilib. E.Balayan həmin izahatında azərbaycanlıların yaşadıqları Qaradağlı kəndindəki fermaya hücum üçün necə hazırlaşdıqlarını, hücumda kimlərin iştirak etdiyini açıqlayıb, hücum edənlərin özü ilə yanaşı, Balayan Emil Vartanoviç, Avakyan Armin Rodikovic, Qabrilyan Monik Aramoviç, İşxanyan Araik Yeqoroviç, Arapityan Armin Arzikovic, İşxanyan Davit Rubenoviç, Koçaryan Davit Maksimoviç, Qriqoryan Andranik Karlenovic, İşxanyan Qriqori Rubenoviç, Koçaryan Aras Maksimovic, Sevumyan Vrenik Karlenoviç olduqlarını bildirib və əlavə edib: "Bütün bunlara başçılıq edən Valodiya Xaçaturyan idi".

D.İşxanyan Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin ünvanladığı növbəti suallara cavabında 1992-ci ilin sentyabrında hərbi xidmətə çağırıldığını, daha sonra 28-ci "Xocavənd batalyonu"nda tabor komandiri təyin olunduğunu bildirib. Təqsirləndirilən şəxs "Xocavənd müdafiə rayonu"nun komandirinin Monte Melkonyan, müavininin isə Movses Akopyan olduğunu deyib.

"Taborumda 430-480 hərbçi var idi. Digər taborlarda say daha az və ya daha çox olurdu. Tapşırıqları qərargahdan alırdım. Taborun sərəncamında qumbaraatanlar, pulemyotlar, "Kalaşnikov" avtomatları var idi", – deyə o əlavə edib.

D.İşxanyan Ağdərənin yuxarı hissəsinin işğalı əməliyyatında, Kəlbəcər rayonu istiqamətində Çərəkdarın və Xudavəngin, Füzuli rayonunun iki istiqamətində, o cümlədən Aşağı Veysəlli istiqamətində kiçik bir yüksəkliyin işğalında iştirak etdiyini bildirib.

Təqsirləndirilən şəxs "Emil Balayanın sizinlə ədavəti var idimi ki, sizin və qardaşınızın adını çəksin" sualına cavab verməkdən yayınaraq bildirib ki, o, şənbə və bazar günləri kənddə növbə çəkilməsi ilə məşğul olub.

Bu zaman dövlət ittihamçısı Vüsal Əliyev elan edib ki, digər ermənisilli şəxslər (Aleksandr Qriqoryan və digərləri) də E.Balayanın ifadəsinə bənzər ifadələr verib, eyni adları çəkiblər.

Ardınca təqsirləndirilən şəxs Levon Mnatsakanyan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırıb. O, 2015–2018-ci illərdə Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində qondarma rejimin "müdafiə ordusunun komandanı" vəzifəsini, buna qədər isə hərbi sahədə bir sıra vəzifələr tutduğunu təsdiqləyib. O, qondarma rejimin "ordusu"nda xidmətə 1992-ci ilin sentyabrında başladığını bildirərək qeyd edib: "Motoatıcı taborun komandirinin müavini vəzifəsində başladım".

O, Xocavənd əməliyyatlarında iştirak etmədiyini, Xocalıda isə ümumiyyətlə, ilk dəfə 1990-cı illərin ikinci yarısında olduğunu deyib.

Təqsirləndirilən şəxs bildirib ki, 1992-ci il oktyabrın 2-də Şuşa rayonunun Şırlan kəndində yerləşən tabora gedərkən yaralanıb.

Levon Mnatsakanyan Azərbaycanın Şuşa şəhərinin işğalı əməliyyatına rəhbərlik etmiş "Komandos" ləqəbli general-mayor Arkadi Ter-Tadevosyanı Ermənistanda xidmət etdiyi zaman tanıdığını deyib. Bildirib ki, həmin vaxt Arkadi Ter-Tadevosyan ordu üçün mütəxəssis hazırlayırdı.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan dövlət ittihamçılarının suallarına cavabında Xocavəndin işğalında və Qaradağlıdakı qətliamlarda hansı qüvvələrin iştirak etməsi barədə məlumatsız olduğunu iddia edib.

O, Aşot Qulyan və Monte Melkonyan ilə şəxsən tanış olmadığını da iddia edib.

A.Qukasyan dövlət ittihamçısı Fuad Musayevin həmin adamları tanımadan onları qondarma rejimin "qəhrəmanı" adı ilə təltif etməsi barədə suala isə konkret cavab verə bilməyərək, bununla bağlı "komissiya"nın təqdimatının olduğunu söyləyib.

O, Artur Aqabekyanla təxminən 1994–1995-ci ildən sonra tanış olduğunu və onu 1999-cu ildə qondarma rejimin "daxili işlər naziri" "təyin" etdiyini bildirib.

"Bildiyim qədərilə Ermənistan Müdafiə Nazirliyində xidmət edirdi", – deyə A.Qukasyan əlavə edib.

Xatırladaq ki, A.Aqabekyan 2000–2007-ci illərdə Ermənistan Respublikası müdafiə nazirinin müavini olub, habelə Ermənistanda bir sıra digər yüksək vəzifələrdə çalışıb.

Məhkəmənin növbəti iclası mayın 5-nə təyin olunub.

*XQ*

*3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür*

# Yubileyə zəngin təcrübə və yeni yanaşma ilə gedirik

**3 may Ümumdünya Mətbuat Azadlığı Günüdür. Azərbaycan media ictimaiyyəti də bu təqvimi qeyd edir. Bu il Azərbaycan həm də milli mətbuatımızın yaradılmasının 150 illik yubileyinə hazırlaşır. Bu iki təqvim milli medianın fəaliyyətinin təhlilini dəyərləndirmək zərurətini yaradır. Azərbaycan mediası yubileyə hansı nailiyyətlərlə gedir?**

**Müşfiq ƏLƏSGƏRLİ,
XQ-nin media eksperti**



“Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 aprel 2025-ci il tarixli Sərəncamda media ictimaiyyətinin ötən dövrdəki fəaliyyəti də qiymətləndirilir. Bu kontekstdə jurnalistlərimizin Vətən müharibəsi dövründəki fəaliyyətinə xüsusi diqqət yetirilir. Qeyd olunur ki, Azərbaycan mediası Vətən müharibəsində şanlı Zəfərin qazanılmasında, ərazi bütövlüyünün və suverenliyin tam bərpa olunmasında əsl vətənpərvərlik, həmrəylik nümunəsi sərgiləyib. Haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün yüksək səy göstərib.

Prezident sərəncamında yer alan bu cümlələr mediamızın həm peşəkar, həm də vətənpərvər olduğunu göstərir. Onun keçmiş fəaliyyəti barədə dolğun təsəvvür formalaşır. Sərəncam Azərbaycan jurnalistikasının tarixi fəaliyyətini qiymətləndirməklə yanaşı, həm də ondan gələcək gözləntiləri ifadə edir.

## Mediadan gözləntilər

Azərbaycan media məkanında beş il əvvəl – 2020-ci illərdən etibarən həyata keçirilən islahatlar dalğası spesifik xüsusiyyətlərə malikdir. Öncəki proqramlardan əsas fərqi budur ki, sonuncu dəyişiklər kompleks xarakterlidir, media üzrə bütün komponentləri əhatə edir.

Beynəlxalq mərkəzlər ölkələr üzrə media mühitini dəyərləndirərkən 4 mühüm istiqamətə birlikdə diqqət yetirirlər. Media qanunvericiliyinə, KİV-lərin maliyyə müstəqilliyinə, jurnalist təhlükəsizliyinə və nəhayət, etik standartların tətbiqi imkanlarına kompleks şəkildə yanaşılmasını zəruri sayırlar. Media mühitinin normal olması üçün, bu istiqamətlərdən hər birinin normativlərə uyğun gəlməsi vacibdir. Prezident İlham Əliyevin 2021-ci il yanvarın 12-də imzaladığı “Media sahəsində islahatların daha da dərinləşdirilməsi haqqında” Fərmanı bu prinsiplərin hər birini özündə cəmləşdirir. Sənəd ayrı-ayrı istiqamətlərin deyil, ümumilikdə, media mühitinin yeniləşdirilməsini ehtiva edir. Paralel olaraq, jurnalistlərin sosial durumunu və statuslarını da diqqətə alır.

Son islahatların nəticəsi olaraq, Azərbaycan informasiya məkanı həm də struktur tərtibatı baxımından yenilənir. Dəyişiklik dövlətin kommunikasiya işinə cavabdeh olan müvafiq strukturlarından başlayaraq, medianın özünütənzimləmə qurumlarına qədər ən geniş spektiri əhatə edir. “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmana əsasən, 2021-ci ildə Medianın İnkişafı Agentliyi qurulub. Agentliyinin yaradılmasında məqsəd dövlət tərəfindən medianın inkişafı üzrə zəruri dəstəyin effektiv formada çatdırılmasıdır. 5 oktyabr 2002-ci il tarixdə isə Prezident İlham Əliyev Azərbaycan Respublikası Audiovizual Şurasının yaradılmasına Fərman verib. Şura televiziya və radio yayımı sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edir.

Bəllidir ki, adıçəkilən təsisatların hər biri özlərindən əvvəl mövcud olmuş müvafiq qurumların bazasında, yeni adlar altında formalaşdırılıb. Amma dəyişiklik təkcə adlarla məhdudlaşmayıb. Səlahiyyət, məsuliyyət, öhdəlik, informasiya işinə yanaşma, media mühitinə baxış fərqlidir.

Belə fərqlilik Medianın İnkişafı Agentliyi ilə yanaşı, yenidən qurulmuş digər təsisatlar üçün də xarakterikdir. İslahatlar fonunda yeniləşdirilmiş bu qurumlar çevik funksionallıq mexanizmlərinə malikdirlər. Proseslərə, tendensiyalara, problemlərə reaksiyaları operativdir. KİV-lərdə, sosial media platformalarında müzakirə olunan istənilən məsələyə, məlumatlara çevik reaksiya verə bilirlər.

## Media təhdidlərdən qorunur

“Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmana uyğun olaraq, bu sahəni tənzimləyən qanun dəyişdirilib. 2022-ci ildə qüvvəyə minmiş “Media haqqında” Azərbaycan Respublikasının Qanunu dövlət və media münasibətlərinin hüquqi mənzərəsini aydınlaşdırır.

Yenin qanunu əvvəlkindən fərqləndirən əsas məqamlardan biri də budur ki, o, media subyektlərinin dəqiq təsnifatını verir. Çap, onlayn, audiovizual media subyektlərinin, informasiya agentliklərinin standartlarını, fəaliyyət çevrəsini müəyyənləşdirir. Qanun rəqəmsal transformasiya dövründə media subyektlərinin tiplərinin qorunub saxlanılmasını təmin edir.

Yeni qanun media subyektləri ilə yanaşı, jurnalistlərin də statuslarını, hüquq və vəzifələrini dəqiq ifadə edir ki, bu da yeni media alətlərinin inkişaf etdiyi bir dövrdə son dərəcə zəruridir.

Sosial şəbəkə platformalarının sürətli inkişafı xəbər istehsalçılarının çeşidini artırıb. Analitik mərkəzlər qeyd edirlər ki, hazırda dünya əhalisinin yarıdan çoxu sosial media istifadəçisidir. Statista.com-un hesablamalarında bu göstərici təqribən 5.7 milyard nəfərdir. Dünya əhalisinin 62,6 faizi sosial şəbəkə platformaları üzərindən xəbər alır və yayır. Yəni, xəbər istehsalçısı rolunda çıxış edir. Azərbaycan seqmentində də mənzərə oxşardır. Son məlumatlara əsasən, ölkə əhalisi arasında sosial media istifadəçilərinin sayı 50 faizi ötüb.

Bu dinamika bir tərəfdən alternativ informasiya mənbələrinə çıxış imkanlarını artırmaqla fayda verirsə, digər yandan xəbərin keyfiyyətinə təsir göstərir. Etimadlı xəbərin kəmiyyətini azaldır, “feyk xəbər”in çəkisini çoxaldır. Öz növbəsində, peşəkar xəbər istehsalçısı olan jurnalistlərin vəziyyətinə da ciddi təsir göstərir. Onların hüquq və səlahiyyətlərinin qorunması üçün tədbirlər görülməsini zərurətə çevirir.

Mövzu beynəlxalq jurnalist təşkilatlarının gündəmində yer tutur. Peşəkar medianın qorunub saxlanması, jurnalistlərin hüquq və səlahiyyətlərinin dəqiq müəyyənləşdirilməsi üçün təkliflər hazırlanır. Keyfiyyətli Jurnalistika Uğrunda Beynəlxalq Hərəkat (KJUBH) da bu səbəbdən təsis edilib. KJUBH jurnalistikanı sosial medianın yaratdığı təhdidlərdən qorumağa çalışır

Bu tendensiyalar kontekstdə yanaşsaq, Azərbaycanda hazırlanaraq tətbiq edilən “Media haqqında” Qanun ölkəmizdə fəaliyyət göstərən jurnalistlərin səlahiyyətlərini müəyyənləşdirmək, haqlarını qorumaq üçün faydalıdır. Eyni zamanda, peşəkar jurnalistikanı qoruyub yaşatmaq istəyən dünya ölkələri üçün bir örnəkdir. Yeni qanun sosial media istifadəçiləri, həvəskar xəbər istehsalçıları ilə peşəkar jurnalistlər arasındakı sərhədləri çox dəqiq şəkildə müəyyənləşdirir. Konvergensiya olunmuş ənənəvi media qurumları ilə sosial şəbəkə platformaları üzərindən xəbər yayan həvəskarlar arasındakı fərqi göstərir. Jurnalistlərin hüquq və səlahiyyətlərini qoruyur, inkişaf etdirir. Bir cümlə ilə ifadə etsək, “Media haqqında” Qanun Azərbaycanda peşəkar medianın inkişafına təminat verir.




## Azad medianın inkişafı üçün güzəştlər

Sərhədlərin müəyyənləşməsi peşəkar media üçün güzəştlərin və imtiyazların tətbiq olunmasına şərait yaradır. Təsadüfi deyil ki, “Media haqqında” Qanun imzalandığı gün – 2022-ci il fevralın 8-də Prezident İlham Əliyev həm də İpoteka qanunvericiliyi üzrə dəyişiklikləri təsdiqlədi. Beləliklə, jurnalistlərə dövlət təminatlı, güzəştli ipoteka kreditindən istifadə etmək hüququ verilib. Qanunun qəbulundan 3 ay sonra, 13 may 2022-ci il tarixində isə Azərbaycanda kütləvi informasiya məhsullarının ərsəyə gəlməsi üçün kağızın idxalı və satışı ƏDV-dən azad edilib.

2021-ci ilin sonlarından etibarən, medianın müstəqil biznes modelinə keçidinin sürətləndirilməsi üçün sistemli addımlar atılır. Prosesin davamı olaraq, 2023-cü il yanvarın 1-dən ölkə mətbuatına vergi güzəştləri tətbiq olunub. Çap və onlayn media subyektləri gəlir (mənfəət) və sadələşdirilmiş vergilərdən, eyni zamanda, əlavə dəyər vergisindən 3 il müddətinə azad edilib.

Bu dövr ərzində media subyektlərinin inkişafını təmin etmək üçün verilən dövlət dəstəyinin həcmi artırılıb. Məlumat üçün bildirək ki, 2009–2020-ci illərdə ölkədə dövlət hesabına yalnız çap media subyektlərinə – qəzetlərə dəstək göstərilirdisə, indi həmin dəstək həm də onlayn media subyektlərinə aid edilir. Son 3 ildə hər il üzrə 39 xəbər saytına (xəbər portalına) müsabiqəli yardımlar göstərilib. 39 xəbər saytı, 17 qəzet redaksiyası olmaqla ümumilikdə il ərzində 56 media subyektinə iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki təminatlarının yaxşılaşdırılması, faliyyətinin təkmilləşdirilməsi və keyfiyyətin artırılması məqsədilə maliyyə yardımı ayrılır. Bu, ölkədə KİV qollarının paralel inkişafını təmin edir. O cümlədən, onlayn media subyektlərinin qurulmasını, inkişafını və peşəkarlaşmasını stimullaşdırır.

## Onlayn media subyektlərinin statusu tanınıb

Yeri gəlmişkən qeyd edək ki, son islahatlar fonunda qəbul edilmiş “Media haqqında” Qanunun gətirdiyi yeniliklərdən biri də onlayn media subyektlərinin statuslarının tanınmasıdır. 1999-cu ildə qəbul edilmiş “KİV haqqında” Qanunda bu sahədə boşluq olub. Düzdür, həmin qanunun 3–cü maddəsi “İnternet informasiya ehtiyatları”nı da “kütləvi informasiya xidməti” kimi təsbit edib. Amma bu müddəa sonrakı bəndlərdə inkişaf etdirilməmişdi. Xəbər portallarının, internet TV-lərin statusları tanınmırdı. İnternet KİV-lərin standartları barədə aydın təsəvvür yaradılmırdı. 2022-ci ildən qüvvəyə minmiş “Media haqqında” Qanun isə qeyd edilən boşluğu aradan qaldırır. İnternet media resurslarının strukturunu və statusunu müəyyən edir. 14 oktyabr 2022-ci ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Respublikasının Media Reyestri ölkənin bütün ciddi media resursları kimi, onlayn media subyektlərini də uçota alır.

Media reyestrində qeydə götürülmək üçün xəbər saytları qarşısında orijinal məzmun yaradıcılığı tələbinin qoyulması bu seqmentdə keyfiyyət göstəricilərini xeyli yüksəldir. Saytlar keyfiyyətli, etimadlı, məzmun müxtəlifliyi olan xəbərlər yaymaq üçün daha çox çalışır və nəticədə özləri də peşəkarlaşırlar. Media Agentliyinin qurduğu monitorinq sistemi real dataları (orjinal kontent, istinad sayları və s.) ortaya qoyur və bunun nəticəsində sayt vitrini yenilənir. Onlayn mediaya dövlət dəstəyinin göstərilməsi bu platformada qeyri-şəffaflıq meyillərini də azaldır.

**(ardı var)**




# Həyatın güzgüsü, həqiqətin carçısı

**Azərbaycanda da fəal dəstəklənən söz azadlığının əsas prinsipləri mətbuatın müstəqilliyinin təmin olunması, senzuranın ləğvi, insan hüquq və azadlıqlarının müdafiəsində mətbuatın rolu və sairdən ibarətdir. 1993-cü ildə azad sözün şərəfinə təsis edilmiş bu gün “soyuq müharibə” dövrünün başa çatması ilə Yer kürəsinin vahid informasiya məkanına çevrilməsi məramı ilə ortaya çıxıb. Bir çox beynəlxalq qurumlar dünyada söz və mətbuat azadlığını diqqət mərkəzində saxlayırlar. Axı gizli deyil ki, bu azadlığın olmadığı ölkələrdə insan hüquqlarının pozulması hallarına daha çox rast gəlinir.**

Bu il “Əkinçi” qəzetinin nəşri ilə başlanan anadilli mətbuatımızın 150 yaşı tamam olur. Özündə böyük ənənələri yaşadan mətbuat tariximizin yetərli qədər şanlı səhifələri var. Dövlət müstəqilliyi dövründə Azərbaycanda söz və məlumat azadlığının təmini ilə bağlı müvafiq qanunvericilik aktları qəbul edilib. 1998-ci il avqustun 6-da Azərbaycan Prezidentinin Fərmanı ilə mətbuat üzərində senzura ləğv olunub. Senzuranın ləğvi və bu qəbildən digər tədbirlər müstəqil medianın inkişafını, vətəndaşların söz, məlumat və fikir azadlığını təmin edib ki, bu da demokratik cəmiyyət quruculuğu yolunu seçən Azərbaycanın perspektiv hədəflərinə uyğun idi. 1999-cu il dekabrın 7-də qəbul olunan “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunu isə bu sahədə fəaliyyəti tənzimləyən əsas hüquqi sənəd olub, ölkəmizin Konstitusiyasında söz, fikir və mətbuat azadlığı təsbit edilib.

Ümummilli lider Heydər Əliyev deyirdi: “Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir”.

Hazırda Azərbaycanda dünya standartlarına uyğun media, ənənəvi və elektron KİV formalaşıb. Müstəqil KİV-in sayına görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında öncül mövqe tutur. 12 yanvar 2021-ci ildə imzalanmış Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında Prezident fərmanının nəticəsi olaraq ölkədə Medianın İnkişafı Agentliyi yaradıldı. Qlobal informasiya mühitinin tələblərinə uyğun modernləşmə və qabaqcıl texnologiyaların ən geniş tətbiqi, aparıcı fəaliyyət prinsipi və digər mühüm şərtləri özündə birləşdirən fərman auditoriyaların peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətin stimullaşdırılması üçün əlverişli şərait yaratmış oldu. Mediada ardıcıl islahatların aparılması ölkə başçımızın “Media haqqında” Qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Fərmanı ilə xüsusi diqqətdə saxlanıldı.

Bu gün Azərbaycanda dövlət qeydiyyatına alınmış media agentlikləri, xeyli sayda jurnalist təşkilatları və ictimai birliklər müstəqil şəkildə fəaliyyət göstərir. Deməli, Beynəlxalq Söz və Mətbuat Azadlığı ideyası hərtərəfli şəkildə həyata keçirilir.

***Ə.DOSTƏLİ
XQ***



# Aqrobiznesin İnkişafı Forumu

**Dünən Bakıda keçirilən IV Aqrobiznesin İnkişafı Forumu toplantı iştirakçıları tərəfindən ötən ilin noyabrında paytaxtımızda reallaşan COP29-dan sonra Kənd Təsərrüfatı Nazirliyi ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında iqlimə dayanıqlı kənd təsərrüfatının təşviqi istiqamətində həyata keçirilən əməkdaşlığın növbəti praktik nümunəsi kimi yüksək dəyərləndirilib. Bu əməkdaşlıq çərçivəsində forumun əsas məqsədinin aqrobiznesin davamlı inkişafı üçün innovativ maliyyələşmə mexanizmlərinin tətbiqi, "yaşıl" subsidiyaların təşviqi və ictimai-özəl dialoqun gücləndirilməsi olduğu bildirilib.**




"Aqrobiznesin İnkişafı Forumu: Harmoniyaya gedən yol" mövzusuna həsr olunan toplantıda Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri, Mərkəzi Bank, Azərbaycan Qida Təhlükəsizliyi, habelə Kiçik və Orta Biznesin İnkişafı agentlikləri və Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının rəhbər şəxsləri, nazirliklərin tabeli qurumlarının, Azərbaycan Banklar Assosiasiyasının, respublikada fəaliyyət göstərən bankların, eləcə də yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, regionların və kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirildiyini diqqətə çatdırıb. Reallaşdırılan siyasət nəticəsində ölkənin dayanıqlı inkişafının təmin edildiyi qeyd olunub. Nazir, eyni zamanda, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kiçik ailə təsərrüfatlarından iri aqroparklaradək bütün subyektlərin dəstəklənməsinin əsas prioritetlər sırasında qərarlaşdığını da vurğulayıb.

Kənd təsərrüfatı nazirinin sözlərinə görə, aqrar sektora göstərilən dəstəyin mühüm komponentlərini subsidiyalar, güzəştli maliyyələşmə, texniki təminat və institusional təşviqlər təşkil edir. Eyni zamanda, IV Aqrobiznesin İnkişafı Forumunun bu il "Harmoniyaya gedən yol" mövzusunda keçirilməsi iqtisadi inkişafla ətraf mühitin qorunması arasında tarazlığın yaradılmasından, dövlət və özəl sektor arasında güclü dialoqun qurulmasından, fermerlərin səsinin eşidilməsi və qərarların iştirakçılıq əsasında formalaşmasından xəbər verir.

Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev çıxışında bildirib ki, qlobal iqlim müzakirələrinin ən ali platforması olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyinin Azərbaycana həvalə olunması göstərilən yüksək etimadın, beynəlxalq təşkilatlarla qurulan uğurlu əməkdaşlığın bariz nümunəsidir. COP29-a evsahibliyi etməklə ölkəmiz enerji, şəhərsalma, maliyyə, kənd təsərrüfatı, insan kapitalının inkişafı və digər sahələri əhatə edən qlobal təşəbbüslərə start verib. Həmin təşəbbüslər iqlim dəyişikliklərinə qarşı inklüziv yanaşmaları özündə birləşdirir.

Forumda bildirilib ki, COP29 Sədrliyi, Kənd Təsərrüfatı Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə təşəbbüsü ilə təqdim olunan "Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsü" qadın və gənc fermerlərin imkanlarının artırılması, iqlimə davamlı kənd icmalarının qurulması və bilik mübadiləsinin gücləndirilməsi üçün yaradılıb. Həmin təşəbbüs 90-dan çox qlobal və regional proqramı bir araya gətirərək kənd yerlərində dayanıqlı inkişafı dəstəkləyir və investisiyaların bu sahəyə yönəldilməsinə kömək edir.

Tədbirdə çıxış edən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional rəhbər müavini Nabil Gangi kənd təsərrüfatı, su və qida təhlükəsizliyinə təsir edən qlobal amillərdən, dayanıqlı kənd təsərrüfatı inkişafının təmin olunması yollarından danışıb. O, ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) yüksək səviyyədə təşkil edən Azərbaycanın qlobal iqlim gündəliyinin formalaşmasında aparıcı rol oynadığını, iqlim dəyişikliyi ilə bağlı öhdəliklərin yerinə yetirilməsinin vacib olduğunu vurğulayıb.

Nabil Gangi iqlim dəyişikliyi, torpağın deqradasiyası, qida tələblərinin dəyişməsi və kənd miqrasiyasının mövcud olduğu müasir dövrdə yeni texnologiya və innovasiyalardan geniş istifadənin dayanıqlı inkişafa aparan körpü olduğunu qeyd edib. Bildirib ki, Azərbaycanda innovasiyaların, məhsuldarlığı və səmərəliliyi artırmaq üçün müasir texnologiyaların tətbiqinə önəm verilir, ərzaq istehsalının təhlükəsiz, dayanıqlı və ekoloji cəhətdən sağlam olmasını təmin edən qabaqcıl təcrübələrdən geniş istifadə olunur.

Daha sonra kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimovanın moderatorluğu ilə "Azərbaycanda aqrobiznesin inkişafına baxış" mövzusunda yüksəksəviyyəli panel sessiya təşkil olunub. Paneldə Milli Məclisinin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev, iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Balarəhim Quliyev, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Mərkəzi Bankının sədr müavini Toğrul Əliyev, Banklar Assosiasiyasının icraçı direktoru Yunus Abdulov çıxış edərək aqrobiznesin davamlı inkişafı üçün strateji dəstək mexanizmlərinin formalaşdırılması və tətbiqi, iqlimə dayanıqlılıq və davamlı inkişaf üçün aqrobiznesin innovasiyası imkanları mövzusunda fikirlərini bölüşüblər.

Forum çərçivəsində kənd təsərrüfatı sektorunda "İlin fermeri" nominasiya üzrə qalib gəlmiş 3 fermerə və 2 nümunəvi təsərrüfatın rəhbərinə mükafatların təqdim olunması mərasimi də keçirilib. Fermerlərə aqrar sahədə qazandıqları nailiyyətlərə görə Fəxri fərman və dəyərli hədiyyələr təqdim edilib.

IV Aqrobiznesin İnkişafı Forumunda, eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov "Azərbaycanın aqrobiznes sektorunda əsas tendensiyalar, çağırışlar və imkanlar" mövzusunda təqdimat keçirib.

Forum işini "Maliyyə təşviqləri və aqromaliyyələşmə həlləri" və "2024-cü ildə aqrobiznesin inkişafı üçün subsidiya mexanizmlərinin təkmilləşdirilməsi" mövzularında dəyirmi masalarla davam etdirib. Mütəxəssislər təqdimatlar edib, aqrar sektora göstərilən dövlət dəstəyi, bu sahənin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər, aqrar sahənin investisiya imkanları və yeni çağırışlar, aqrar biznes sektorunda investisiya perspektivləri, bu istiqamətdə qabaqcıl təcrübələr, aqrar sahəyə innovativ yanaşmaların tətbiqi yolu ilə dövlət və özəl sektorun birgə kapital investisiyası imkanları, aqrar sığortanın əhəmiyyəti, aqrar sahənin dayanıqlı inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

***XQ***

# Antiinhisar və istehlakçı hüquqları üzrə beynəlxalq təcrübə öyrənilir



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin nümayəndə heyəti Türkiyə Respublikasının Ankara şəhərinə işgüzar səfər edib. Səfər çərçivəsində agentliyin nümayəndələri istehlakçı hüquqlarının müdafiəsi, reklam və istehlak bazarına nəzarət sahələrində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə keçirilən təlim və görüşlərdə iştirak ediblər.**

Qurumdan XQ-yə verilən məlumata görə, Türkiyənin Ticarət Nazirliyinin İstehlakçıların Müdafiəsi və Bazara Nəzarət Baş İdarəsinin mütəxəssisləri tərəfindən keçirilən İstehlakçı Hüquqlarının Müdafiəsi və Mühafizəsi üzrə Beynəlxalq Şəbəkənin (ICPEN) Mentorluq Proqramı çərçivəsində istehlakçı hüquqlarının müdafiəsi, istehlak bazarına nəzarət və reklam fəaliyyəti sahələrindəki qanunvericilik alətləri mövzularını əhatə edən təlimlər isə daha maraqlı və yaddaqalan olub.

Təlimlər zamanı istehlakçı arbitraj komitələrinin işi, qeyri-qanuni ticarət fəaliyyəti ilə bağlı qaydalar, bazara nəzarət mexanizmləri, reklam sahəsində istehlakçı hüquqlarının müdafiəsi, abunəlik və məsafədən satış müqavilələri, turizm, qüsurlu məhsul və xidmətlər, satış sonrası xidmətlərə dair hüquqi tənzimləmələr barədə ətraflı məlumat verilib.

Mentorluq Proqramı çərçivəsində, həmçinin Türkiyədə həyata keçirilən Yenilənmiş Məhsul Sistemi üzrə təqdimatlar nümayiş etdirilib. Təqdimat zamanı bu sistemin mahiyyəti, tətbiq sahələri və istehlakçılar üçün yaratdığı üstünlüklər iştirakçıların diqqətinə çatdırılıb. Bununla yanaşı, agentlik nümayəndələri Türkiyə Reklam Şurasının iclasında reklam sektorunda istehlakçı hüquqlarının pozulması hallarının müəyyənləşdirilməsi prosesi, pozuntu hallarının aradan qaldırılması üçün atılan addımlar və qərar qəbuletmə mexanizmlərinə həsr olunmuş müzakirələrdə iştirak ediblər.

Nümayəndə heyətinin üzvləri iki dost və qardaş ölkənin birgə təşəbbüsü ilə yaradılan, Türkiyə Respublikasının Ticarət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Türk Dünyası Marketinq, Reklam və Media Birliyinin təsis mərasimində iştirak ediblər. Tədbir zamanı birliyin fəaliyyət istiqamətləri, ölkələr arasında sıx əməkdaşlıq və informasiya mübadiləsinin təşkili məsələləri müzakirə edilib.

Xatırladaq ki, Azərbaycan Respublikası 2006-cı ildə İstehlakçıların Hüquqlarının Müdafiəsi və Mühafizəsi üzrə Beynəlxalq Şəbəkəyə üzv qəbul edilib. 2023-cü ildə isə təşkilatın Məsləhət Qrupuna üzv seçilmiş ölkəmizi beynəlxalq təşkilatda Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi təmsil edir.

# Energetika nazirinin İstanbul görüşləri

**Energetika naziri Pərviz Şahbazov İstanbul Təbii Sərvətlər Zirvəsi çərçivəsində Rumıniyanın energetika naziri Sebastian-İoan Burduja və Bolqarıstanın energetika naziri Jeço Stankov ilə görüşlər keçirib.**



Energetika Nazirliyinin məlumatına görə, Rumıniyanın energetika naziri Sebastian-İoan Burduja ilə görüşdə təbii qaz və "yaşıl" enerji təchizatı, eləcə də ikitərəfli enerji əməkdaşlığının gündəliyindəki aktual məsələlərlə bağlı fikir mübadiləsi edilib. "Xəzər – Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin icra vəziyyəti, eləcə də Rumıniyanın "Azərbaycan – Gürcüstan – Türkiyə – Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihəsinə qoşulması perspektivləri nəzərdən keçirilib. Söhbət zamanı Rumıniyada "mavi yanacağ"a tələbat müstəvisində qaz tədarükü və infrastrukturların inkişafına dair müzakirələr aparılıb.

Bolqarıstanın energetika naziri Jeço Stankovla görüşdə isə Azərbaycanla enerji sahəsində tərəfdaşlıqdan məmnunluq ifadə edilib. Bolqarıstanın enerjiyə tələbatının ödənilməsində əhəmiyyətli paya malik Azərbaycan təbii qazının ölkəyə faydalarından bəhs edilib. Türkiyə ilə sərhəddə interkonnektorun ötürücülük gücünün artırılması imkanları dəyərləndirilib. Bununla yanaşı, Bolqarıstanda həyata keçirilən qazlaşdırma layihəsi üzrə irəliləyişlər nəzərdən keçirilib, həmçinin Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "yaşıl" enerji infrastrukturunun qurulması prosesindən irəli gələn məsələlər müzakirə edilib.

Hər iki ölkənin nazirləri 2–4 iyun tarixində Bakıda keçiriləcək "Enerji Həftəsi"ndə iştiraka dəvət edilib.

# Fermerlərə subsidiya ödənişi artıb

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bakıda keçirilən IV Aqrobiznesin İnkişaf Forumundakı çıxışında respublikada 2023-cü ildə 387 min 340 fermerə 352 milyon manat, 2024-cü ildə isə 380 min 704 fermerə 362,5 milyon manat subsidiya ödənildiyini bildirib. Onun sözlərinə görə, bu, sadəcə rəqəm deyil, kənd həyatına, ailələrin rifahına, məhsuldarlığın artımına verilmiş dəstəkdir.**



Dövlətin həyata keçirdiyi subsidiya siyasəti çərçivəsində fermerlərə göstərilən dəstək davamlı və sistemli şəkildə icra olunur. Bu dəstəyin mühüm komponentlərini subsidiyalar, güzəştli maliyyələşmə, texniki təminat və institusional təşviqlər təşkil edir.

Nazir qeyd edib ki, fermerlərin texnika və damazlıq heyvanlarla təminatı sahəsində də dövlət onların yanındadır. 2023-cü ildə 6477 texnika üçün 83,9 milyon manat, 2024-cü ildə isə 9107 texnika üçün 80,8 milyon manat güzəşt vəsaitinin ayrılması da bunun bariz ifadəsidir. Həmçinin 2024-cü ildə 5830 baş damazlıq heyvan üzrə 17,4 milyon manat güzəştin təqdim olunması da həm yerli istehsalın stimullaşdırılmasına, həm də iqlim risklərinə dayanıqlı təsərrüfatların qurulmasına xidmət edir.

M. Məmmədov əlavə edib ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən bütün subyektləri, yəni kiçik ailə təsərrüfatlarından tutmuş iri aqroparklara qədər hamısını dəstəkləmək ölkənin strateji prioritetidir. Biz fermerin yanında olmaqla, əslində, dövlətin iqtisadi təməlini möhkəmləndiririk. Çünki kənd təsərrüfatı təkcə ərzaq təhlükəsizliyi deyil, həm də məşğulluq, sosial sabitlik və ixrac potensialıdır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Şahdəniz” – Azərbaycanı qaz ölkəsinə çevirən xəzinə



(əvvəli 1-ci səhifədə)

Bu ilin birinci rübündə “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” adlı platformalardan, ümumilikdə, təqribən, 7 milyard kubmetr qaz və 1 milyon ton (təqribən 8 milyon barel) kondensat çıxarılıb.

Layihə səhmdarlarının yekdil qərarına əsasən, “Şahdəniz” yatağının bir neçə mərhələdə işlənməsi qərara alınıb. Xatırladaq ki, birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb. Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Belə ki, hazırda “Şahdəniz-2” layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur.

Təxminən, 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

“Şahdəniz” yatağının ikinci işlənmə mərhələsi çərçivəsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı “SDC03Z” quyusunun istismara verilməsi ilə “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə isə “Şahdəniz-2” layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını da işlənməyə daxil ediblər.

2025-ci ilin birinci rübünü də “Şahdəniz-2” layihəsi üçün uğurlu hesab etmək olar. Hesabat dövründə layihə çərçivəsində qərb-cənub cinahından 5-ci quyu işə salınıb. Qalan quyularda isə sualtı işlər üzrə fəaliyyətlər davam etdirilib. Bu ilin əvvəlindən etibarən “Xankəndi” sualtı tikinti gəmisi ilə layihə çərçivəsində göstərilən xidmətlərin həcmi xeyli genişləndirilib. Belə ki, yanvar-mart aylarlnda sözügedən gəmi vasitəsilə hazırda istismarda olan bütün “Şahdəniz-2” və AÇG sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə lazımi dəstək verilib.

Bütövlükdə isə, regionda tətbiq edilən vahid gəmi strategiyasına uyğun olaraq “Xankəndi” dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas su nəqliyyatı kimi istifadə olunur. Bu da BP və tərəfdaşlarının əməliyyatlarının daha təhlükəsiz və daha səmərəli olmasına xidmət edir.

Hazırda uğurla istismar olunan “Xənkəndi” gəmisinin əsas iş həcmləri “Şahdəniz-2” layihəsi çərçivəsində görülən işlərlə bağlıdır. Burada əsas diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəlib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb.

Cari ilin ilk rübündə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. BP-nin rüblük hesabatında qeyd olunduğu kimi, ilin əvvəlindən “Şahdəniz Alfa” platformasının qazma qurğusu yenidən fəal iş rejiminə keçirilib. Bununla yanaşı, hesabat dövründə “İstiqlal” və “Heydər Əliyev” qazma qurğuları vasitəsilə “Şahdəniz-2” layihəsi çərçivəsində quyular üzrə işlər davam etdirib.

Rüb ərzində “İstiqlal” qurğusu yatağın qərb-cənub cinahında “SDF02” və “SDF042 quyularında qazma işləri həyata keçirib. “Heydər Əliyev” qurğusu isə yatağın qərb cinahında “SDD05” quyusunda qazma işlərini bitirib. Qurğu hazırda şərq-şimal cinahında “SDH04” quyusunda qazma işlərini davam etdirir. Ümumilikdə isə, işlənmənin ilk vaxtlarından etibarən “Şahdəniz-2” layihəsi çərçivəsində 22 quyu qazılaraq istismara daxil edilib. Həmin quyuların 5-i yatağın şimal, 5-i qərb, 4-ü şərq-cənub, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb.

“Şahdəniz” yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Terminaldakı mövcud qurğular isə qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə (CQBK) ötürür. Bu ilin ilk rübü ərzində terminaldan gündəlik orta hesabla, təxminən, 73,3 milyon kubmetr “Şahdəniz” qazı ixrac olunub. Hesabat dövründə boru kəmərinin səmərəli idarə edilməsi məqsədilə yaradılmış şirkətin səhmdarları tərəfindən CQBK-nin əməliyyat tədbirlərinə təqribən 18 milyon dollar, əsaslı məsrəflərinə isə 6 milyon dollar xərclənib.

2006-cı ilin sonlarında istismara verilimiş Cənubi Qafqaz boru kəməri “Şahdəniz” qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb. 2025-ci ilin ilk rübü ərzində Cənubi Qafqaz boru kəmərinin ixrac üçün gündəlik orta ötürücülük gücü 60,8 milyon kubmetr təşkil edib.

Xatırladaq ki, “Şahdəniz” layihəsinin iştirakçıları BP (operator – 29,99 faiz), Cənub Qaz Dəhlizi (21,02 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz) NİKO (10 faiz) şirkətləridir.

# Paytaxtın avtobus parkı yenilənir

**Hazırda Azərbaycanda yerli şirkətlərə məxsus 14 minə yaxın “TIR” adlanan nəqliyyat vasitəsi fəaliyyət göstərir. Bu da 2022-ci illə müqayisədə 10 min ədəd çoxdur. Yük avtomobillərinin sayının kəskin artması isə çoxsaylı iş yerləri deməkdir.**

Bunu Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə “İctimai proseslər media müstəvisində” mövzusunda keçirilən forumun “Nəqliyyat infrastrukturunda davamlı həllər media müstəvisində” adlı panel sessiyasında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin kommunikasiya departamentinin direktoru Vəli Məmmədov deyib.

Agentlik rəsmisinin sözlərinə görə, son illər paytaxtda sərnişindaşıma sahəsində çoxsaylı tədbirlər həyata keçirilib.



Elə hazırda Bakıda sərnişin avtobuslarının sayının 2200-ü ötməsi də bunun bariz nümunəsidir. Bu, həm də gündə bir milyondan çox sərnişin daşınması deməkdir.

V.Məmmədov deyib ki, son zamanlar sərnişindaşıma xidməti göstərən şirkətlər tərəfindən müasir standartlara cavab verən avtobusların paytaxta gətirilərək istismara buraxılması kimi müsbət məqamlar ona hesablanıb ki, Bakı 2030-cu ilə qədər dünyanın 30 ən yaxşı şəhərinin sırasına qoşulsun. “Bunun üçün də nəqliyyat sistemi gözəlləşdirilməlidir. Yaxın gələcəkdə avtobusların sayını bir az da artırmağı düşünürük”, – deyə o əlavə edib.

# İqtisadiyyata yatırımın həcmi çoxalıb

**Bu ilin aprelin 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 29,7 milyard manat təşkil edib. Bu isə aylıq müqayisədə 277 milyon manat və ya 0,9 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 4,2 milyard manat və ya 16,6 faiz çoxdur. Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.**



Bildirilib ki, cari ilin birinci rübündə kredit qoyuluşunun 7,2 milyard manatı özəl bankların payına düşüb ki, bu da bir ay əvvələ nisbətən 65 milyon manat və ya 0,9 faiz, əvvəlki ilin 1 aprel tarixi ilə müqayisədə isə 1,3 milyard manat və ya 20,9 faiz artım deməkdir. Bundan əlavə, 2025-ci ilin aprelin 1-nə özəl bankların kredit qoyuluşları 20,6 milyard manata bərabər olub. Bu isə aylıq müqayisədə 219 milyon manat və ya 1,1 faiz, 2024-cü ilin eyni dövrünə nisbətən isə 2,5 milyard manat və ya 13,9 faiz çoxdur.

Eyni zamanda, cari ilin aprelin 1-nə bank olmayan kredit təşkilatlarının kredit qoyuluşu isə 1,8 milyard manat olub. Bu, aylıq müqayisədə 8 milyon manat və ya 0,4 faiz az,ötən ilin eyni dövrü ilə müqayisədə isə 462 milyon manat və ya 34,5 faiz çoxdur.

# I rübdə qeyri-neft ixracı 15 faiz artıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı “İxrac icmalı”nın aprel sayına əsasən, 2025-ci ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,7 faiz artaraq 771,9 milyon dollar təşkil edib. Birinci rübdə yeyinti məhsulları 15,1 faiz artaraq 224,7 milyon dollara çatıb.**

Bu ilin yanvar – mart aylarında ixrac olunan qiymətli və ya azqiymətli daşlar və metallar ötən ilin müvafiq dövrü ilə müqayisədə 46,7 milyon dollar və ya 3,4 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar 9,1 milyon dollar və ya 76,8 faiz, kimya sənayesi məhsulları 21,9 milyon dollar və ya 33,4 faiz, şəkər 976,3 min dollar və ya 18,8 faiz, meyvə-tərəvəz 20,8 milyon dollar və ya 15,7 faiz, alüminium və ondan hazırlanan məmulatlar 4,9 milyon dollar və ya 10,2 faiz, spirtli və spirtsiz içkilər 724 min dollar və ya 5,7 faiz, çay 74,1 min dollar və ya 5,1 faiz, bitki və heyvan mənşəli piylər və yağları 237,9 min dollar və ya 4,2 faiz, pambıq iplik 22,1 min dollar və ya 0,4 faiz artıb.




İlin ilk rübündə aqrar məhsullar 12,3 faiz artaraq 170,5 milyon dollar, aqrar-sənaye məhsulları 17,6 faiz artaraq 69,1 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar – sənaye məhsullarının birgə ixracı 13,8 faiz artaraq 239,6 milyon dollar təşkil edib. Qeyd olunan dövrdə ixraca yönəldilən qeyri – neft sektoruna aid malların siyahısında qızıl (65,2 milyon dollar) birinci olub. Bu siyahıda karbamid (48 milyon dollar) ikinci, pomidor (tomat) (44,6 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin mart ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (25 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (17,8 milyon dollar) ikinci, pambıq (15,9 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb. 3 ayda Rusiya Federasiyasına 232,9 milyon dollar, Türkiyəyə 134,3 milyon dollar, Gürcüstana 80,6 milyon dollar, İsveçrəyə 69,6 milyon dollar, Ukraynaya isə 51,1 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Hesabat dövründə 2025-ci ilin mart ayında Rusiya Federasiyasına 82,1 milyon dollar, Türkiyəyə 51,5 milyon dollar, Gürcüstana 27,7 milyon dollar, İsveçrəyə 26 milyon dollar, BƏƏ-yə isə 10,7 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

Cari ilin I rübündə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər – “MKT İstehsalat Kommersiya” MMC,”Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin ölkəmizdəki Nümayəndəliyi,”-Baku Steel Company” QSC,”P-AQRO” MMC,”LEPIN LM” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Avrora” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Export Stream” Məhdud Məsuliyyətli Cəmiyyəti,”KHAN-EL” MMC, “BİNƏ AQRO” QSC və ”Sahdag Sy” Məhdud Məsuliyyətli Cəmiyyəti təmsil olunublar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda – “SOCAR Polymer” MMC, “AzerGold” QSC, “Azəralüminium” MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, “Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, “Azərbaycan Hava Yolları” QSC, “Azərenerji” ATSC, Naxçıvan MR Dövlət Energetika Xidməti və “Qaradağ Şüşə Zavodu” ASC təmsil olunublar.

I rübdə Kosmik Agentlik (“Azərkosmos”) tərəfindən dünyanın 40 ölkəsindən 100-ə yaxın şirkətə 4 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. Qurumun xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65 faizi qədər olub. 2025-ci ilin mart ayında isə “Azərkosmos” dünyanın 39 ölkəsinə 1,3 milyon dollar dəyərində xidmət ixrac edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 1 milyon dollar ilə Birləşmiş Krallıq, 890,3 min dollar ilə Lüksemburq, 213,4 min dollar ilə Nigeriya, 179 min dollar ilə Misir və 174 min dollar ilə Pakistan qərarlaşıb.

İxrac əməliyyatlarında diqqətçəkən bu uğurlu göstəricilər bir sıra diqqət mərkəzində saxlanılması ilə əldə edilib. Məsələn, respublikada ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstliyə mühüm önəm verilib. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi layihələr də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Azərbaycanda Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Bütün bunlarla bərabər, respublikamızda prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti aparılır, makroiqtisadi və büdcə dayanıqlığının reallaşdırılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir. Məhz bütün bunların nəticəsidir ki, hazırda qeyri-neft-qaz sənayesində artım neft-qaz sektorundakı artımı üstələyir.

# Ölkədə 184 enerji doldurma mərkəzi açılıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) “Dayanıqlı maliyyə hesabatı”nda bildirilir ki, hazırda ölkə üzrə ümumi enerji doldurma mərkəzlərinin sayı 184-ə yüksəlib. Sənədə əsasən, ötən il 160 yeni elektrik avtobusu alınıb.**



Yeni elektromobil idxalının ümumi nəqliyyat vasitəsi idxalındakı payı 3,3 faiz, yeni hibrid avtomobil idxalının ümumi nəqliyyat vasitəsi idxalındakı payı isə 29 faiz təşkil edib. Hesabatda daha sonra vurğulanıb ki, Azərbaycan “yaşıl” iqtisadiyyata keçid çərçivəsində nəqliyyat infrastrukturunun modernləşdirilməsi və dayanıqlılığının artırılması məqsədilə mühüm investisiyalar həyata keçirməkdədir.

Karbon emissiyalarının azaldılması və ekoloji təmiz nəqliyyat sisteminin formalaşdırılması üçün son dövrdə ictimai nəqliyyatda elektrik mühərrikli avtobusların tətbiqi genişləndirilib, elektrik dolum mərkəzlərinin sayı artırılıb və velosiped yollarının inşası həyata keçirilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Sumqayıtda "yaşıl" aksiya

**Sumqayıt şəhərində "Konstitusiya və Suverenlik İli" çərçivəsində Sumqayıt Bulvarı ərazisində ağacəkmə aksiyası keçirilib.**







Aksiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Aksiya çərçivəsində 150-yə yaxın ağac əkilib. Aksiyada "Asan xidmət" könüllüləri də iştirak ediblər.

Şəhərin ekoloji mühitinin yaxşılaşdırılması, yaşıllıq sahələrinin genişləndirilməsi və gələcək nəsillər üçün sağlam mühitin formalaşdırılmasına töhfə verən bu təşəbbüs Sumqayıtda ekoloji layihələrin davamlı şəkildə həyata keçirilməsi və şəhərin inkişaf strategiyasının vacib istiqamətlərindən biridir. Bu çərçivədə şəhərdə yaşıllaşdırma tədbirləri mütəmadi olaraq keçirilir, müxtəlif ağac növlərinin əkilməsi və ekosistemin qorunması istiqamətində ardıcıl işlər görülür.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Vətən müharibəsi qazisi, birinci qrup əlil Əzizov Rəvan üçün inşa edilən evlə də tanış olublar. Görüş xoş təəssüratla yadda qalıb.

*XQ*

# Müstəqil dövlətin hüquqi təməli

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Bakı Dövlət Universiteti hüquq fakültəsinin birgə təşkilatçılığı ilə keçirilən "Konstitusiya – dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında mühüm hüquqi bazadır" mövzusunda beynəlxalq konfransda müstəqil Azərbaycan dövlətinin demokratik inkişaf yolu, son 30 ildə qazandığı misilsiz uğurlar diqqət mərkəzində olub.**



BMTM-in baş məsləhətçisi Mətin Məmmədlinin moderatorluğu ilə keçirilən konfransda çıxış edən mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev konstitusiyanın dövlətin daxili idarəçiliyini müəyyənləşdirən sənəd olmaqla yanaşı, onun beynəlxalq arenada davranışlarını formalaşdıran əsas hüquqi baza yaratdığını bildirib.

Qloballaşan dünyada dövlətlərin suverenliklərinə və daxili işlərinə təzyiqlərin artdığını bildirən mərkəz rəhbəri hüquqi bazanın möhkəmliyinin dövlətin müdafiə mexanizmlərindən biri olaraq çıxış etdiyini diqqətə çatdırıb. O bildirib ki, dünyada baş verən proseslərə uyğun Konstitusiyaya dəyişikliklər edilə bilər. Bu, imkan verir ki, xaricdən gələn çağırışlara cavab verək. Bu çağırışlar hazırda da davam edir. Daxili siyasət və iqtisadiyyatın möhkəmləndirilməsində Konstitusiya və digər qanunvericilik aktları vacib rol oynayır.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov qeyd edib ki, 1995-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş müstəqil Azərvbaycanın Konstitusiyası dövlət quruculuğunda və vətəndaş cəmiyyətinin formalaşmasında əsaslı dönüş nöqtəsi olub. Konstitusiyamız əldə edilən tarixi nailiyyətlərin hüquqi əsasını təşkil edir. Alim Ulu öndərin Azərbaycanın intellektual potensialının formalaşmasındakı rolundan da ətraflı bəhs edib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev söyləyib ki, 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiya demokratik, hüquqi və dünyəvi dövlətin qurulması yolunda əhəmiyyətli mərhələ olub və indiyədək bu sənəd ölkəmizdə hüquqi islahatların aparılması, insan hüquq və azadlıqlarının təmin olunması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində bünövrə rolunu oynayıb. Bu baxımdan konstitusiya müstəqil dövlətin hüquqi pasportu sayılır.

Maliyyə nazirinin birinci müavini Anar Kərimov qeyd edib ki, Konstitusiya hər bir müstəqil dövlətin varlığının hüquqi əsasını təşkil edən sənəddir, o yalnız siyasi və hüquqi sistemin deyil, eyni zamanda, iqtisadi idarəçiliyin də əsaslarını müəyyənləşdirir. Onun sözlərinə görə, Azərbaycan Konstitusiyası dövlətin iqtisadi fəaliyyətinin hüquqi çərçivəsini dəqiq şəkildə təsbit edir və maliyyə sisteminin formalaşdırılmasında mühüm rol oynayır. Nazir müavini son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatların məhz Konstitusiyada müəyyən edilmiş məqsədlərə – əhalinin rifahının yüksəldilməsi, iqtisadi sabitliyin qorunması və sosial bərabərliyin təmin olunmasına xidmət etdiyini diqqətə çatdırıb.

Konfransın davamında Türkiyənin Balıkəsir Universitetinin rektoru Yücel Oğurlu Türkiyənin bu sahədə təcrübələrini bölüşüb, Konstitusiyanın təkcə hüquqi sənəd deyil, eyni zamanda, xalqın suverenliyinin, dövlətin müstəqilliyinin və milli birliyin təminatı olduğunu diqqətə çatdırıb. Qardaş ölkə təmsilçisi qeyd edib ki, konstitusiyalar yalnız dövlətin daxili idarəçiliyini deyil, onun beynəlxalq münasibətlərdəki mövqeyini də formalaşdırır.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov Konstitusiyanın ölkənin hüquqi portreti olduğunu bildirib. Onun sözlərinə görə, Konstitusiya həm də beynəlxalq birliyə qoşulan dövlət tərəfindən təqdim edilən bəyannamədir. Konstitusiya beynəlxalq birlikdə dövlətin yerini göstərir, bu sənəd daxili amillərə və ümumbəşəri dəyərlərə əsaslanmalıdır.

BDU-nun hüquq fakültəsinin dekanı Zaur Əliyev konstitusiya və insan hüquqları mövzusunda geniş təqdimat edib. Konstitusiyamızın hazırda bütün ərazimizi əhatə etdiyini vurğulayan dekan Azərbaycanda hüquq sahəsində islahatların əsaslarını ulu öndər Heydər Əliyevin yaratdığını söyləyib.

Beynəlxalq konfrans BDU tələbələrinin və hüquq ictimaiyyəti nümayəndələrinin iştirakı ilə interaktiv müzakirə və elmi fikir mübadiləsi formasında davam etdirilib.

*T.RÜSTƏMLİ*
*XQ*

# Tarixdən konstitusiyalı dövlətə gələn yol

**AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş elmi konfrans keçirilib.**



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransın plenar iclasını açaraq "Konstitusiya və Suverenlik İli" çərçivəsində bölmədə keçirilən konfrans və tədbirlər, görülməsi nəzərdə tutulan işlər barədə qısa məlumat verib, bu gün baş tutan konfransın professor Vəli Baxşəliyevin təşəbbüsü ilə keçirildiyini qeyd edib. Bölmə sədri bildirib ki, konfransın materialları artıq çap olunub.

Bölmə sədri İsmayıl Hacıyev "Azərbaycanın tarixi ərazisi olan Qərbi Zəngəzurun Ermənistan SSR tərkibinə verilməsi" başlıqlı məruzəsini təqdim edib. Akademik XIX əsrdə Yelizavetpol quberniyasının tərkibində mövcud olmuş Zəngəzur mahalı, onun əhatə etdiyi ərazilərdən bəhs edib. Zəngəzur toponiminin etimologiyası, əhalisinin etnik tərkibi, bölgəyə ermənilərin süni şəkildə köçürülməsi sayəsində burada demoqrafik vəziyyətin dəyişdirilməsi barədə söz açıb.

Çar Rusiyasının ermənipərəst siyasətinin Sovet Rusiyası zamanında da davam etdiyini nəzərə çatdıran tarixçi alim "mübahisəli" ərazilərimizin ermənilərə verilməsindən, dövrün ictimai-siyasi reallığı və Nəriman Nərimanovun mövqeyi ilə bağlı elmdə mövcud olan bəzi fikir ayrılıqlarından danışaraq mövzu ilə bağlı aparılan araşdırmaları, qələmə alınan elmi tədqiqat əsərlərini diqqətə çatdırıb. Professor İsmayıl Hacıyev Qərbi Zəngəzurun itirilməsinin Azərbaycan və bütünlükdə Türk dünyası üçün zərərləri, Zəngəzur dəhlizi və başqa mühüm məsələlərə toxunub.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Naxçıvanda qədim mədəniyyətlərin izləri" mövzulu məruzəsində bildirib ki, muxtar respublikada aparılan arxeoloji tədqiqatlar bu ərazidə insanların hələ Daş dövründən yaşadığını sübut edir. Alim vurğulayıb ki, Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqə şəraitində inkişaf edib.

Alim qeyd edib ki, bölgədə boyalı qablar, Ubeyd, Dalmatəpə, Xocalı–Gədəbəy mədəniyyətlərinin izlərinə rast gəlinməsi Naxçıvanın Şimali Mesopotamiya və Urmiya hövzəsi ilə əlaqələrinin Neolit dövrünə gedib çıxdığını göstərir. Naxçıvan Cənubi Qafqazla Yaxın Şərq arasında mədəni körpü rolunu oynamış və burada yaşayan tayfalar öz müstəqilliklərini qorumaq uğrunda mübarizə aparmışlar. Muxtar respublikanın arxeoloji abidələrlə zəngin olduğunu dilə gətirən arxeoloq-alim bildirib ki, aparılan araşdırmalar və onların nəticəsi bölgədə hələ kəşf olunmamış xeyli sayda arxeoloji abidənin mövcud olduğunu deməyə əsas verir.

Məruzəçilər konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırıblar.

Konfrans günün ikinci yarısında bölmə iclasları üzrə davam edib. "Tarix" və "Arxeologiya və Etnoqrafiya" bölmələri üzrə 20-yə yaxın elmi məruzə təqdim olunub.

*Səbuhi HƏSƏNOV*
*XQ-nin Naxçıvan müxbiri*

# Konstitusiya və Suverenlik ili Aktauda da qeyd olundu



**Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 2024-cü ilin "Konstitusiya və Suverenlik ili" elan olunması çərçivəsində Qazaxıstanın Aktau şəhərində beynəlxalq konfrans keçirilib. Tədbir Azərbaycanın Aktau şəhərindəki Baş Konsulluğu, Ş.Yessenov adına Xəzər Texnologiya və Mühəndislik Universiteti, həmin universitetdə fəaliyyət göstərən "Azərbaycan Mərkəzi"nin təşəbbüsü və Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin, yerli diaspor təşkilatlarının dəstəyi ilə baş tutub.**

Konfransa qədər universitetin rektoru Berik Axmetov və Azərbaycanın Aktau şəhərindəki baş konsulu Ayxan Süleymanlı arasında görüş keçirilib. Görüşdə iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Konfransda universitet rəhbərliyi, professor-müəllim heyəti, tələbələr, baş konsulluğun əməkdaşları, Türkiyə, Özbəkistan, Türkmənistan və İranın Aktau şəhərindəki baş konsulları, eləcə də Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Tədbiri "Azərbaycan Mərkəzi"nin rəhbəri İlkin Orucov açaraq "Konstitusiya və Suverenlik ili" ilə bağlı ümumi məlumat verib. Baş konsul Ayxan Süleymanlı isə çıxışında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş ilk Konstitusiyamızın əhəmiyyətindən bəhs edib. O, 12 noyabrın ölkəmizdə Konstitusiya Günü kimi qeyd olunduğunu vurğulayıb.



Baş konsul həmçinin Dövlət Suverenliyi Günü ilə bağlı da məlumat verib. O bildirib ki, 2020-ci ildə başlanmış Vətən müharibəsində əldə olunan Qələbə və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə 20 sentyabr Azərbaycanda Dövlət Suverenliyi Günü elan olunub.

Ayxan Süleymanlı Azərbaycan-Qazaxıstan münasibətlərinə də toxunaraq, ölkə rəhbərləri və xalqlar arasında etimada əsaslanan əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb.

Konfransda daha sonra universitetin rektoru Berik Axmetov, professorlar Eldar Cəfərov, Akmaral Medixanova, kafedra müdiri Bağdad Aueşova, eləcə də onlayn şəkildə qoşulan Azərbaycan Universitetinin Siyasi və ictimai elmlər kafedrasının müdiri Elvin Talışinski və Azərbaycan Turizm və Menecment Universitetinin dosenti Şəbnəm Zeynalovanın çıxışları dinlənilib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Aktau**

BƏXTİYAR VAHABZADƏ – 100

# Vətəndaşlıq və istiqlal poeziyası

**XIX əsr Azərbaycan ədəbi mühitinin yetişdirdiyi fikir dühası, söz bahadırı Bəxtiyar Vahabzadə həm böyük alim, publisist, həm də mövzu etibarilə rəngarəng, dərin məfkurəli şair kimi əsrin poeziya aləminə öz möhürünü vurmuşdur.**

*"Azərbaycan xalqının, Azərbaycan dövlətinin istiqlal və azadlıq mücadiləsində Bəxtiyar Vahabzadənin xidmətləri böyükdür".*

***Heydər ƏLİYEV***



B.Vahabzadə haqqındakı ədəbi düşüncələrdən biri onun "min il əvvəl, min il sonranın şairi" olması haqqındakı mülahizələrdir.

B.Vahabzadə haqqında yazanların bir qismi də onun poeziyasını "Düşüncə poeziyası", "Düşündürən poeziya", özünü "Mifli filosof şair", "Narahat şair" adlandırmışlar. Bu düşüncə və narahatlıq onun hikmət və müdrikliklə dolu yaradıcılıq aləmində fəlsəfi ağırlığa malikdir.

Yaradıcılığının ana xəttini hissin müdrikliyi təşkil edən Bəxtiyar Vahabzadənin yaradıcılıq uğurlarından biri onun əsərlərində xalqının neçə minillik təcrübəsinin, zəka qüdrətinin, milli-qürurun, mənəvi təkamülün toplanmasının əks-sədasıdır.

Əsərlərinin ana xəttində fəlsəfi ağırlığın, ideoloji mükəmməlliyin hakimliyi onun yaradıcılığındakı azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərləri əks etdirən fəlsəfi düşüncələrə, ana dilinə, torpağa, onun təbiətinə, cəmiyyətə, onun elmi və siyasi təfəkkürünə münasibəti əks etdirən mövzuların zənginliyidir.

***Mən həyat yollarından,***
***Ayaqlarımla deyil,***
***Əqidəmlə keçirəm***

– deyən Bəxtiyar Vahabzadənin mövzuları bu əqidə, iradə, siyasətdə ortaya çıxdığı üçün onun qələmə aldığı mövzular ciddi və böyük problemlərin həllinə yönəlmişdir. Odur ki, Bəxtiyar Vahabzadənin əsərlərinin ana xəttini bütöv Azərbaycan, vətəndaşlıq mövqei, milli-mənəvi dəyərlər, ana dilinə, Vətən torpağına münasibət bildirən mövzular əhara edir. Bu mövzular filosof şairin hikmət və fəlsəfə ilə dolu yaradıcılığının əsas meyarları olduğundan əsərlərindəki siyasi-ictimai və tarixi kəskinliyi ilə seçilir.

Yaradıcılığındakı siyasi və ictimai kəskinlik onun şeirlərində namərd qonşular, torpaqlarımıza göz dikən düşmən ermənilərə 1966-cı ildə yazdığı "Torpaqdan pay olmaz" şeirində belə ifadə edilirdi:

***Hardan sənin oldu bizim Qarabağ?***
***Adı sahibini demirmi aşkar?***
***Xoşluqla verməzlər torpağı, ancaq,***
***Qanla möhürləyib, zorla alarlar!***

***Hələ göz dikmisən Naxçıvana da,***
***Təbriz də, Sərab da bəlkə səninmiş?***
***Vartazar yaşayan bütün ölkələr –***
***Yəni bütün dünya öz vətəninmiş?***

Başqa bir şeirində:

***"Əcdadımızın türbəsi torpaq-kökümüzdür,***
***Torpaqsız açan buğda dənindən də dən olmaz"***

– deyən Bəxtiyar Vahabzadənin əsərlərindəki vətəndaş mövqei elə "Torpaq", "Vətən", "Millət" və "Kök" kəlmələrindən yoğrulmuşdur.

***Ağaclar***
***Kök üstə boy atır,***
***Ucalır.***
***Ağaclar***
***Kökündən güc alır.***
***Dünyada hər şeyin kökü var.***
***Torpağın da, daşın da.***
***Adamsa kökünü***
***Gəzdirir başında.***

Millətin güvəninin köklə bağlılığının əsil ifadəsi olan bu poeziya nümunəsində olduğu kimi, kökünü bilməyən xalqın fəlakətə uğraması B.Vahabzadə poeziyasında belə ifadə edilmişdir:

***Bir xalq üçün səfalət,***
***Ya aclıq, ya fəlakət.***
***Bir elə zillət deyil.***
***Amma millət qul olsa,***
***Ayaqlarda çul olsa,***
***Fikircə yoxsul olsa,***
***O, hələ millət deyil".***

Şeirlərinin birində Bəxtiyar Vahabzadə:

***Yaşamaq yanmaqdır, yanasan gərək,***
***Həyatın mənası yalnız ondadır.***
***Şam əgər yanmırsa, yaşamır demək,***
***Onun yaşamağı yanmasındadır – deyir.***

Gerçəkdən də, zaman-zaman xalqının taleyini düşünən şair XX əsrdə yaşadığı totalitar sovet rejimi içərisində üzləşdiyi haqsızlıq və ədalətsizliklərlə mübarizəyə girmiş, xalqının haqqını almayınca yanıb-yaxılmış, şam kimi damla-damla göz yaşı tökmüşdür. Şamın yanması həyat əlaməti olduğu kimi, insanoğlunun da duya-duya, şam kimi əriyə-əriyə, yana-yana yanması onun yaşama bəlgəsidir. Odur ki, "yaşamaq yanmaqdır" hikmətinin ifadəsi B.Vahabzadənin bütün yaradıcılığı üçün xarakterikdir və əsərlərinin ana xəttinin içindən keçən bir sonluqdur.

Şair sovetlər birliyinin 70 il davam edən totalitar rejiminin təsiri altında siyasi qadağaların hökm sürdüyü bir sistemdə "öz sərvəti özünə qənim olmuş" Azərbaycan xalqının sərvət və ləyaqətinin, dil və şərəfinin tapdalanmasını əsərlərində əks etdirmək üçün müxtəlif ədəbi üsullardan, sətiraltı ifadələrdən məharətlə istifadə edən müdrik Bəxtiyar Vahabzadə hansı cəsarətlə sözlərini deyə bilirdi. O, bir ədəbi üsul olaraq xalqının dərdini yabançı adreslərdə göstərir və özünün dediyi kimi, "millətinin dərdini özgəyə ünvanlayaraq, başqasının yasında öz ölüsünə ağlamağı" belə poetikləşdirirdi:

***İçimi göstərmədən cahil tutan güzgüyə,***
***Üzdə gülüb, ürəkdə nisgilimə ağladım.***
***Millətimin dərdini ünvanlayıb özgəyə,***
***Başqasının yasında öz ölümə ağladım.***

Bu cəhətdən ustad Bəxtiyar Vahabzadə vaxtilə dillərdə əzbər olan "Latın dili", "Ələddinin çırağı", "Hayd park" şeirləri, "Leninlə söhbət" poeması, tarixi "Fəryad" əsəri", "Dörd yüz on altı" poeması kimi əsərlərində bu üsuldan istifadə edirdi.

"Leninlə söhbət" poemasında şair zahirən Leninə hüsn-rəğbətini göstərsə də, əslində, Leninin əsərlərindən gətirdiyi sitatlarla yaşadığı rejimdə olan haqsızlığı ifşa edirdi. İlk baxışda Leninə hüsn-rəğbət hiss olunsa da, onun rus millətçi (velikorus) şovinizminə qarşı olduğunu öz sitatlarından əsas gətirərək, Azərbaycan xalqının, Azərbaycan dilinin tarixi haqlarının vəkilinə çevrilir, sətiraltı ifadələrlə leninizmin yalanlarını belə poetikləşdirirdi:

***Yalanlar al-əlvan, yalanlar min-min,***
***Deyir gecəyə bax, zülməti görmə.***
***Yalanlar... Ağ yalan qara köynəyin,***
***Üzünə rəng çəkir, gözünə sürmə.***

Göründüyü kimi, "Leninlə söhbət" poeması B.Vahabzadə yaradıcılığında müşahidə olunmuş, lakin qadağaların hökm sürməsi səbəbindən zamanında birbaşa açıqlanmayan bəzi məqamların şərhi idi.

Tarixi "Fəryad" əsərində də, "Dörd yüz on altı" poemasında da ustad sənətkar B.Vahabzadə eyni bədii üsuldan istifadə edirdi. İlk baxışda sovet mövzusunda qələmə alınmış "Dörd yüz on altı" poemasında II Dünya müharibəsində faşizm üzərində qələbə münasibətilə Mozdokdan Berlinə qədər gedən 416-cı Azərbaycan diviziyasının qəhrəmanlığından bəhs edilir. Əslində, başqa bir ideya isə bu əsərdə 1937-ci ildə faşist Almaniyasında Buhenvald ölüm kampları qurularkən sovetlər birliyində də şiddətlənən kütləvi həbslər və sürgünlərin eyni vaxta təsadüf etdiyini şairin oxucuya hiss etdirməli idi.

***Buhenvald salındı otuz yeddidə,***
***Fikir zəncirləndi, vicdan boğuldu.***
***Tarixin ləkəsi bu ağır ildə,***
***İnsan ahı üstə il təhvil oldu.***

Bu misralarda şair 1937-ci ildə sovetlər birliyindəki repressiyanın Buhenvalddan heç də geri qalmadığına işarə edərək, 1937-ci ili tarix olaraq xüsusi vurğulayır və yaddaşları oyadırdı. Azərbaycan ziyalılarının da repressiyaya məruz qaldığı 1937-ci illərə bir daha işarə edirdi.

"Dörd yüz on altı" poemasında B.Vahabzadə II Dünya müharibəsində məğlubiyyətə uğramış faşist Almaniyasının müharibədən sonrakı illərdə "Panther Faust" kimi ölüm saçan silahla silahlanmasının bir üz qarası olduğunu vurğulayır. Bu silahın məhz alman ədəbiyyatında vaxtilə mərhəmət təbliğ edən bir bədii əsər olan "Faust"un "Panther Faust" adı ilə eyniləşdirməsinə şairin sanki bir etiraz notası idi:

***Utan, utan, Almaniya,***
***Mərhəməti, insanlığı,***
***Bədxahlığa, alçaqlığa,***
***Axı, niyə dəyişdin?***
***Bir dahinin əsərini***
***Sən mərmiyə dəyişdin.***
***O, "Faust"la insanları,***
***İnsanlığı çağırdı.***
***"Panther-Faust" paketindən,***
***Bu torpağın sinəsi,***
***İndi yağır-yağırdı.***

B.Vahabzadənin çox zaman tarixə və başqa ölkələrə istinad edərək yazdığı "416" kimi əsərlərlə bərabər "Dar ağacı" (1972), "Fəryad" (1981-1984) adlı pyeslərinin, "Amerika gözəli" (1982), "Mərziyə" (1984), "Bağışlayın, səhv olub" (1984) poemalarının, "Şairləri öldürdülər" (1978), "Ehramların önündə" (1969), "Qara qutu" (1978) kimi onlarla əsərinin hədəfi içərisində yaşadığı totalitar rejim idi. Zəngin yaradıcılığa malik Bəxtiyar Vahabzadənin hər hansı bir əsərini götürüb şərh etsək, bu əsərin hər birində zaman hansı sözü demək istəyirsə, o sözü B.Vahabzadənin müdrikliklə ifadə etdiyinin şahidi olarıq. "Gülüstan"da Rusiyanın və İranın Azərbaycanı işğalının, "İki qorxu"da sovet dönəmindəki kommunist rejiminin meydana gətirdiyi mənəvi təxribatın, "Şəhidlər"də sovet rejiminin son illərində Azərbaycan xalqını məhv etməyinin, soyqırımı planlı şəkildə həyata keçirməyin pərdə arxasını görürük.

Tarixdən məlumdur ki, sovet rejiminin 1937–1953-cü illər arasındakı həbslər, böhranlar dövründə Azərbaycan xalqının milli musiqisi üzərində də təxribatlar aparılmağa çalışırdı. Xalqın saz, tar kimi milli alətləri gerilik əlaməti kimi ortadan götürülməyə çalışılır, bunların yerinə rus və qərb çalğı alətlərini qəbul etdirmək üçün hər cür tədbirlər görülür, təbliğatlar aparılırdı. Bütün bu tarixi yaddaşında yaşadan B.Vahabzadə 1972-ci ildə "Muğam" poemasını yazdı. B.Vahabzadə Azərbaycan muğamı dedikdə ilk ağla gələn tar, qaval, müğənni olduğunu, Azərbaycan muğamının heç bir muğama bənzəməyən özünəməxsus bir milli muğam olduğunu poetikləşdirdi.

Poemanın "Segah" fəslində "Anamın öz südütək halalımsan, halalım", – deyə Azərbaycan muğamını tarixi poemaya çevirən şair poemanın hər fəslini bir muğama həsr edir, hər bir muğamı şeirin dili ilə poetikləşdirir:

***Daş ürəklərdə yanıb daşları sındırdı muğam,***
***Haqqa düşmən olanı haqqa tanıtdırdı muğam.***

Bəxtiyar Vahabzadə sanki ədəbi vəsiyyətini də muğama bağlayırdı.

***Dəfn edin siz məni zabul segahın mayəsinə,***
***Deyirəm, bəlkə məni bir gün oyandırdı muğam***

– deyərək, Azərbaycan muğamına, xalqın ölməzliyinə təminat verən dəyər kimi baxırdı.

Vətən sevdalısı olan B.Vahabzadənin milli musiqi mədəniyyətimizə, klassik ədəbiyyatımıza, bu ədəbiyyatın gözəlliyini şərh edən ana dilinin saflığının qorunmasında böyük xidmətləri danılmaz həqiqət kimi çox qiymətlidir. O, daim axtarışda olub dilimizin nəhayətsiz gözəlliklərini əsərlərinə gətirən, əsərlərini Azərbaycan adlı Ananın halal südündən yoğuran mütəfəkkir-şair, milli filosofdur.

60-70 illik yaradıcılığını azərbaycançılıq, türkçülük, dövlətçilik məfkurəsinə, milli-mənəvi dəyərlərin qorunmasına həsr edən müdrik şair və yüksək məfkurə sahibi və elm adamı kimi Bəxtiyar Vahabzadə sözün əsil mənasında Vətən, torpaq, xalq, onun dilinin, tarixinin fədaisi olmuşdur. Totalitar sovet rejimi illərində deyə bildiklərinə cəsarəti çatmış, bədxahlardan ehtiyat edib deyə bilmədikləri həqiqətlər isə "dilinin uğrunda" qalsa da, bunu

***Çəkilmişəm qınıma,***
***Qorxuram mən.***
***Yalan desəm, Tanrıdan,***
***Doğru desəm, bəndədən –***
***şəklində etiraf etmişdir.***

Yüksək intellekt sahibi bir insan, düşünən və düşündürən şair kimi əsl vətəndaşlıq duyğuları daşıyan, Allahın insanoğluna verdiyi Vətən sevgisinin daşıyıcısı olan filosof şairimiz Bəxtiyar Vahabzadə dünənin və sabahın vətənpərvər şairidir. Bu xüsusiyyət onun haqqında yazılanlarda da yetərincə yer almışdır.

Əslən azərbaycanlı, İranın Məşhəd şəhərində yaşayan Mehdi Münəccimi Nəmqan Bəxtiyar Vahabzadəyə yazdığı bir şeirində Vahabzadənin milli ruhunu, onun bütöv Azərbaycan düşüncəsini dilə gətirmişdir:

***Sən həyatın boyu dünyadan ədalət istədin,***
***Şərə meydan oxuyub, zülmə qiyam eyləmisən.***

***Bəxtiyar oldu adın, dərd-qəmi ləzzətlə yeyib,***
***Bilirik, sən özünə keyfi haram eyləmisən.***

***Maarifə HACIYEVA,***
***filologiya elmləri doktoru,***
***professor***

# Qızıl əllərin mənəvi xəzinəsi

**Əl sənətkarlığı sadə bir iş deyil – o, keçmişin yaddaşı, xalqın ruhu, babalardan miras qalan hikmətdir. Dulusçu, zərgər, toxucu – bu sənətlərin hər birində əllərin sükutla danışan dili var. İstər naxışlı bir sandıq olsun, istər gümüş bir kəmər, istərsə də sadə bir saxsı – onu düzəldən sənətkarın ruhunu özündə daşıyır. Zaman keçsə də, bu əşyalar yaşamaqda davam edir. "Xalq qəzeti"nin müsahibi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin şöbə müdiri, rəngkar Cəfər Əliquliyevdir.**

**– Cəfər müəllim, standart sualla başlamaq istəyirəm. Əl əməyi məhsullarının Azərbaycan mədəniyyətinin, tarixinin, etnoqrafiyasının təbliğinə nə kimi təsirləri var?**

– Əl əməyinin tarixi daş dövründən tunc dövrünə keçid ərəfələrindən başlayır. Oturaq həyat tərzi keçirən əhalinin bu sahədə xidmətləri böyük olub. Qədim əl əməyi məhsulundan onun hansı dövrə aid olmasını həm istifadə edilən materiallarla, həm də cizgi və naxışları ilə müəyyən etmək olur. Hazırlanmış qabların üzərində insanlar öz həyat tərzlərindən də nişanələr qoyurlar. Bütün bunlar mədəniyyətimizin, tariximizin və etnoqrafiyamızın qorunub saxlanılması, təbliğidir.

**– Bəs müasir dövrdə əl əməyi ilə məşğul olan ustalar hansı yenilikləri ilə diqqət çəkirlər?**

– Müasir dövrdə yeni, dəyişən elə ciddi bir şey yoxdur. Keçmişin izindəyik və qədim ustaların etdiklərini təkrarlayırıq. Sadəcə onlara bir qədər müasirlik qatırıq.

**– Ənənəvi əl sənətkarlığının hansı sahələri var və ən qədim olanı hansıdır?**

– Keramika ən qədim olanıdır. Ölkəmizin bu sarıdan da bəxti gətirib, dünyada gilin 128 növü varsa, onun 98-i Azərbaycandadır. Məsələn, Xızı dağlarında müxtəlif rəngdə mis, nikel, xrom, aliminium var. Əşyanın üzərindəki bütün rəsm əsərləri bu materiallar əsasında yaradılır. Bu zənginlik yaradanın Azərbaycana bəxş etdiyi təbii nemətlərdəndir.

**– Əməkdaşı olduğunuz mərkəz həm də qırılmış, əzilmiş, cırılmış əl əməyi məhsullarının bərpası ilə məşğuldur. İstərdim bu barədə də oxuculara məlumat verəsiniz.**

– Mərkəz 1957-ci ildən fəaliyyətə başlayıb və banisi mərhum Fərhad Hacıyev olub. Azərbaycanın bütün bölgələrindən, müxtəlif muzeylərdən göndərilən sənət əşyalarını bərpa edirik. Bunlar keramik qablar, xalçalar, metal, taxta və tikmə işləridir.

**– Bəs əşyalar erroziyaya məruz qalıb qədimliyini itirmir? Əşyanın hazırlandığı materialla müasir dövrün materialı bir-birini necə tamamlayır?**

– Mərkəzdə fəaliyyət göstərən elmi şöbə bərpa üçün göndərilmiş əşyanı qiymətləndirir. Kimyaçı, bioloq və sahə üzrə digər şəxslər fəsadları müəyyən edir və sonra bərpaçıya təqdim edilir. Mərkəzin Şurası, ümumilikdə, əşya üzərində hansı işlərin görüləcəyini tam müəyyən edir, ona uyğun materiallarla bərpa işləri aparılır.

**– Tarixən ölkəmizin müxtəlif ərazilərində ənənəvi əl sənətkarlığı emalatxanaları fəaliyyət göstərib. Şagirdlər bu emalatxanalarda yetişirdi. Ustalar məşhur məktəblər irs qoyurdular. Dövr dəyişdi, bir çox ənənələr ali təhsil ocaqlarına daşındı. Bəs hazırda usta-şagird münasibətləri hansı səviyyədədir?**

– Bəli, ənənələr qismən unudulub. Şəkidə məşhur piti qablarını, əsasən, tanınmış 1 nəsil hazırlayır. Onlar bu bacarığı ailədən-ailəyə ötürürlər, başqalarının isə buna marağı yoxdur. Nəticədə qədim sənətlər yaddan və məişətdən çıxıb gedir.

Düzdür, gəlir azdır, maddiyyat isə əsasdır. Amma insanlar var ki, həyatını bütünlüklə bu sənətə həsr edib. Nəsə düzəltməsələr, yaratmasalar, sanki, yaşaya bilməzlər. Əlbəttə, təkbaşına yüksək gəlir əldə etmək çətindir. Təşkilat formasında, hansısa birlik olarsa, yaxşı qazancdan danışmaq olar. Məsələn, Gürcüstanda əl əməyi ilə məşğul olanlar üçün şəbəkə yaradılıb, şərait yaxşıdır. Sənətkar əsər yaratmalıdır, satışı ilə məşğul olmamalıdır. Bizdə satış-sərgilər də az olur.



**– Cəfər müəllim, əl sənətkarlığı sahəsində tanınmış sənətkarlarımızdan kimlərin adını çəkmək olar?**

– Keramika sahəsində bu sahənin bilicisi Mir Teymur Məmmədovdur. Nailə Sultan, Saleh Məmmədov da bu sahənin əsl ustalarındandır. 10 il əvvələ qədər ölkəmizdə keramikaya maraq yox idi, lakin hazırda var. Xüsusilə də xanımlar arasında daha da maraq artıb.

**– Bu istiqamətdə təhsilin də rolu az deyil. Əməkdaşı olduğunuz mərkəzə yeni tələbələr gəlir. Necə düşünürsünüz, müasir təhsil tələblərə adekvatdırmı?**

– Bizə iş üçün və eləcə də praktikaya tələbələr gəlir. Düzünü desəm, təhsil səviyyələri çox aşağıdır. Söz yox, aralarında elələri var ki, bilir, məlumatlıdır. Bu qənaətdəyəm ki, bu sahəyə gəlmək istəyən şəxsin marağı olmalıdır.

**– Əl sənətkarlığının daha da inkişaf etməsi, məhsullarımızın daxili və xarici bazarlara çıxarılması üçün nə tövsiyə edərdiniz? Cəfər müəllim hansı innovatik layihələr düşünür ki, bu istiqamətdə işlər görülsə, faydalı olardı?**

– 2019-cu ildə Şəkidə Mir Teymur müəllimin təşəbbüsü ilə keramika ilə bağlı simpozium keçirildi. Orada, təxminən, 18 dövlətin nümayəndəsi iştirak edirdi. Simpozium elə yüksək təşkil edilmişdi ki, qonaqlar da təəccüblənmişdilər. Belə simpoziumlar sənətkarlarımızı, ölkəmizi tanıtdırmaq üçün çox lazımdır. Biz hazırda evin içindəyik, çöldən xəbərimiz azdır. Qonaq dəvət etməliyik, xarici ölkələrə çıxış imkanlarımız artırılmalıdır. Maraqlı layihələr hazırlanıb həyata keçirilməlidir.

***R.FİKRƏTOĞLU***
***XQ***

# "Yaşılım, yaşılım, hara gedirsən"




**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda "Yaşılım, yaşılım, hara gedirsən" kitabının təqdimatı olub.**

Kitabın redaktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənli yeni nəşr haqqında məlumat verərək bildirib ki, topluda 300-ə yaxın şairin təbiət mövzüsunda yazdığı ədəbi nümunələr cəmlənib. Kitabın ön söz müəllifləri Xalq yazıçısı Anar və "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırovadır. Ədəbiyyatımızın cəmiyyətə dəyərli töhfəsi kimi qəbul olunan şeirlər toplusu 700 səhifədən ibarətdir. "Kitabi Dədə Qorqud", "Koroğlu", "Tahir və Zöhrə, "Aşıq Qərib" kimi dastanlardan da təbiətlə bağlı şeirlər burada yer alır. Nəşrin adı isə mərhum şair Eldar Baxışın şeirindən götürülüb. Kitabda Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev, Mircavad, Arif Əziz, Zahir Məlikli, Yusif Mirzə kimi fırça ustalarının əsərlərinin reproduksiyaları yer alıb.

Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsinin sədr müavini, AYB-nin İdarə Heyətinin üzvü, professor Jalə Əliyeva təbiətin füsünkarlığını tərənnüm edən şeirlər kitabının ərsəyə gəlməsində Xalq yazıçısı Anarın, ideya müəllifi Rəşad Məcidin, redaktor Vaqif Bəhmənlinin və tərtibçi Xatirə Fərəclinin böyük zəhməti olduğunu vurğulayıb.

Sonra Bakı şəhəri Rafiq Nəsrəddinov adına 39 nömrəli tam orta məktəbin və Sumqayıt şəhəri, general-mayor Polad Həşimov adına 28 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında ədəbiyyatımızın görkəmli simalarından Rəsul Rza, Anar, Nurəngiz Gün, Rəşad Məcid və digərlərinin təbiətlə bağlı şeirləri səsləndirilib.

Mərasimdə Mətanət Şirvanlı, Adil Cəmil, İbrahim İlyaslı, Ağacəfər Həsənli, Arifə Əliyeva, Nazir Rüstəm, Zahir Məlikli, Məlahət Yusifqızı, Tofiq Nurəli, İbrahim Yusifoğlu, Dayandur Sevgin və başqaları ürək sözlərini söyləyərək, təbiət mövzusunda şeirlər oxuyublar.

Təqdimatda təbiətə həsr olunmuş toplunun kitabxanalara, məktəblərə verilməsi, oxucu kütləsi arasında geniş yayılması və yeni cildinin hazırlanması da təklif olunub.

Sonda topluda yer almış müəlliflərin hər birinə kitab hədiyyə olunub.

***Fidan SALMANOVA***
***XQ***

Azərbaycan Milli Mətbuatı – 150

# Jurnalistika elm güzgüsündə

**Qarşıdan özülü "Əkinçi" qəzeti ilə qoyulan anadilli mətbuatımızın şanlı yubileyi gəlir. Bu ərəfədə həm jurnalistikamızın şərəfli tarixini, həm də bu sahədə fədakarcasına qələm çalmış ziyalılarımızı xatırlayır, danılmaz xidmətlərini qeyd edirik. Zaman-zaman mətbuat aləmində jurnalistikanın konkret elm sahəsi olub-olmaması ilə bağlı müzakirələr də aparılır. Elə oxucuların diqqətinə çatdırdığımız yazıda da bu barədə söhbət açmaq istəyirik.**



Jurnalistika yarandığı ilk gündən geniş ictimaiyyətin diqqətini özünə cəlb edib. Vaxtaşırı onun haqqında tədqiqatçı, nəzəriyyəçi alimlər araşdırmalar aparıb, maraqlı, dəyərli fikirlər söyləyiblər. Bu isə həm də jurnalistikanın inkişafını ləngidən problemlərin həlli baxımından önəmlidir.

Hələ XVIII yüzillikdə jurnalistika haqqında fikir və mülahizələrə rast gəlsək də, dünya mətbuatının tarixi ilə bağlı araşdırmalar 1 əsr sonra geniş şəkildə meydana gəlib. İngiltərənin görkəmli media tədqiqatçılarından Adam Brizq və Pol Qobli "media elmi" anlayışını hələ 20-ci yüzilliyin əvvəllərində söyləyiblər. O vaxtdan başlayaraq, bu sahədə tədqiqat işlərinin fəaliyyəti genişləndirildi. Hətta bəzi ölkələrdə bu işi əsasən elmi-tədqiqat institutlarında, sosioloji tədqiqat mərkəzlərində, elmi laboratoriyalarda həyata keçirdilər və saysız-hesabsız araşdırmalar hazırlandı. Bu iş bu gün də davam edir. Qeyd etmək lazımdır ki, jurnalistikanın öyrənilməsi onun inkişafına təkan verən əsas amillərdəndir. Çünki əldə edilən nəticələr bu gün bizi həm nəzəri, həm də metodoloji cəhətdən zənginləşdirir.

Jurnalistikanın tədqiqinə nəzər salarkən aydın olur ki, mətbuatın ilk nümunələri Avropada yarandığından, onun haqqında fikirlər də öncə burada yaranıb. Bunun ilkin nümunələrini Fransada, İngiltərədə, Almaniyada görürük. Məsələn, Karl Byuxerin "Qəzetin meydana gəlməsi", Lüdviq Salamonun "Mətbuatın ümumi tarixi" və digər məşhur əsərlərin adlarını çəkə bilərik.

Bu tədqiqatlardan belə aydın olur ki, Qərbi Avropa ölkələri arasında jurnalistika tarixinin araşdırılmasına daha çox Almaniyada yer verilib. Orada 5 cildlik "Qəzetçilik tarixi" adlı tədqiqat əsərləri hazırlanıb. Lakin buna baxmayaraq, Almaniyanın görkəmli tədqiqatçılarından O.Qort hələ 1948-ci ildə təəssüflə yazırdı ki, "bizdə qəzet elmi yoxdur".

Beləliklə, jurnalistikanın tədqiqinin tarixi təcrübəsi sübut edir ki, "başqa elm sahələri kimi, jurnalistikada da ənənələrin inkişaf prosesinə təsiri" hər an özünü büruzə verir. Belə olmasaydı, biz bu gün cəmiyyətdə KİV-in sürətlə artan gücündən, nüfuzundan danışa bilməzdik. Deməli, tarixən əldə edilən təcrübələr bizə daha düzgün yol göstərir və qiymətləndirmə aparmağa imkan verir.

Sovet dövrü ölkəmizdə jurnalistikanın öyrənilməsi sistemli xarakter alsa da, onun bütün parametrləri öyrənilsə də, bu proses siyasi rejimin, ideoloji konsepsiyanın tələb-təklifinə uyğun aparılmışdır. Ona görə də bu sahədə boşluqlar daha çoxdur. Düzdür, dövlət müstəqilliyimizin bərpasından sonra jurnalistikanın tarixinə, nəzəriyyəsinə, təcrübəsinə və s. məsələlərinə aid çoxsaylı tədqiqat işləri aparılmışdır. Bu tədqiqatlar jurnalistikanın tarixi, mövzu dairəsi, inkişaf yollarını öyrənməklə yanaşı, həm də jurnalist etikası, məsuliyyəti, KİV-in marketinqi, reklam və s. mövzulara həsr edilib.

Əksər tədqiqatçılar jurnalistika üzrə dünya tarixşünaslığının zəif inkişaf etməsinin əsas iki səbəbi olduğunu vurğulayırlar. "Birincisi, jurnalistika hələ də bir çox ölkələrdə elm kimi qəbul edilməyib, ikincisi, ümumdünya jurnalistika tarixinin zəif öyrənilməsidir". Düzdür, prosesə 100 il bundan əvvəl başlansa da, bu sahədə canlanma son 15–20 ildə hiss edilir.

Burada bir faktı da vurğulamaq lazımdır ki, jurnalistikanın tədqiqində uzun illər iki konsepsiya mövcud olub. Biri sovet nəzəriyyəçilərinin predmetə yanaşma tərzi, ikincisi dünyanın inkişaf etmiş azad jurnalistikaya malik ölkələrinin məsələyə münasibəti. Bu konsepsiyalar bir-birindən ciddi şəkildə fərqlənib. Sovet nəzəriyyəçiləri KİV-ə yalnız təbliğat vasitəsi kimi yanaşırdılar. Dünyanın inkişaf etmiş, azad sözə, mətbuata malik olan ölkələrin nəzəriyyəçiləri isə jurnalistikaya əsasən informasiya, kommunikasiya vasitəsi kimi baxıblar və onun azad fəaliyyətinin cəmiyyətdəki rolunu qabarıq verirdilər. Sovetlər mətbuatı güclü nəzarət altında saxlamağın tərəfdarı idilər və belə də edirdilər. Ona görə də sovetlərin dövründə şəxsi mətbuat, onun bazar iqtisadiyyatındakı rolu məhdudlaşdırılmışdır. Sovetlər mətbuata yalnız sinfi mövqedən, ideoloji aspektdən yanaşırdılar. Bu yanaşma yanlış təsəvvür yaradırdı ki, bu da elmi tədqiqat üçün arzu olunmaz bir cəhətdir.

Elm-texnikanın sürətli inkişafı nəticəsində jurnalistika "bugünkü qədər geniş və çoxşaxəli olmayıb". XXI yüzilliyin əvvəllərindən elektron informasiya vasitələrinin anbaan inkişafı jurnalistikanın imkanlarını sürətlə artırıb. Bu gün bütün ənənəvi KİV-in elektron versiyası mövcuddur. İnternetin fəaliyyəti jurnalistikanın cəmiyyətdə yerini və rolunu daha da artırıb. Təbii, bütün bunlar tədqiqatçıların da diqqətindən yayınmır. Yeni məzmunda, yeni formada çoxsaylı tədqiqat əsərləri ərsəyə gəlir.

Azərbaycanda jurnalistikanın bir elm kimi formalaşması məsələsini hələ 1974–75-ci illərdə professor Şirməmməd Hüseynov irəli sürmuşdür. O, yazırdı ki, "mətbuat tarixi konkret tarix elmlərindən biridir. Digər elmlər kimi, bu elm də daim inkişaf edir, təkmilləşir, şaxələnir". İllər sonra onun bu fikrini professorlar Yalcın Əlizadə, Cahangir Məmmədli, Şamil Vəliyev və başqaları dəstəklədilər. Yalçın Əlizadə 2010-cu ildə "Azərbaycanda ali jurnalistika təhsili" adlı məqaləsində yazırdı ki, "bu gün ölkəmizdə jurnalistikanın praktik istiqamətləri ilə yanaşı, elmi-nəzəri aspektləri də inkişaf yolundadır. Jurnalistika ölkədə bir elm kimi formalaşmaqdadır".

Həqiqətən də, ölkəmizdə jurnalistikanın son illərdəki fəaliyyətinə nəzər salarkən bəlli olur ki, bu sahədə elmi-nəzəri fikrin və tövsiyələrin formalaşmasına şərait yaranıb. Hazırda "Azərbaycan elmində islahatlar aparılmasına zərurət yarandığı bir vaxtda jurnalistikanın müstəqil elmi istiqaməti kimi tanınmasına kifayət qədər əsas var", – söyləyən tədqiqatçı alimlər çox haqlıdırlar.

Professor Cahangir Məmmədli 2011-ci ildən mövzu ilə bağlı çox maraqlı məqalələrlə çıxış edir. Hörmətli professor "Medialogiya anlayışının elmi mahiyyəti" adlı məqaləsində "jurnalistikanın müstəqil elm kimi tanınmasına kifayət qədər əsas" olduğunu söyləyir və fikirlərini elmi-nəzəri aspektdən əsaslandırır. Doğrudan da, bu gün jurnalistikamız inkişaf edərək "mükəmməl ictimai-siyasi fikir institutu səviyyəsinə yüksəlibdir". Odur ki, bu gün jurnalistikamızın fəaliyyəti "elmi-nəzəri meyarlar baxımından daha geniş təhlil və tədqiqata cəlb edilməlidir".

Professor C.Məmmədli son 20 il ərzində jurnalistikanın artıq öz elmi kateqoriyalarının formalaşdığını və onu müstəqil elmi sahəyə çevirmək vaxtının çatdığını məqalələrində irəli sürür. Müəllifin bu fikirləri qardaş Türkiyənin media nəzəriyyəçiləri, görkəmli alimlər Atilla Girgin, Murçay Türkoğlu, Ersan Hilal tərəfindən də dəstəklənir.

"Əkinçi"dən üzü bəri H.Zərdabinin yaradıcılıq ənənələrini davam etdirən yazarlarımız onun "jurnalistikaya dair elmi-nəzəri görüşlərini yeni dövrə uyğunlaşdırdı, təkmilləşdirdi, milli mətbuatşünaslığın yaranmasına nail oldular", – söyləyən professor Şamil Vəliyev "Varis olmağı bacarmalıyıq" adlı məqaləsində milli mətbuatşünaslığın yaranması məsələsinə geniş yer verib. Tədqiqatçı alim sonda yazırdı ki, "jurnalistika da özünəməxsus predmetə, təhlil və tədqiq obyektinə malikdir".

Tədqiqatçı alim Veydəddin Piriyev "Jurnalistikaşünaslığa giriş" adlı əsərində son illərdə jurnalistikanın müstəqil elm kimi formalaşmasına işarə edərək "jurnalistika varlığı əks etdirən peşə, sənət və elm sahəsidir" söyləyir.

İstər dünya alimlərinin, istər bizim alimlərimizin söylədiyi dəyərli fikir və mülahizələr bir daha sübut edir ki, jurnalistika, həqiqətən, bu gün müstəqil elm sahəsi kimi formalaşmaqdadır. Unutmayaq ki, "jurnalistika ictimai şüuru və sosial mühiti tənzimləyən elm sahəsidir". Ona görə də alimlər onun bir elm kimi formalaşması prosesini elmi ictimaiyyətin diqqətinə çatdırmağı özlərinə borc bilirlər.

***Qərənfil DÜNYAMİNQIZI,***
***filologiya elmləri doktoru,***
***Əməkdar jurnalist***

Bölgə ziyalıları

# Zəngilanın ağsaqqal oğlu

**Dağlar insan xarakterinin formalaşmasına təsir göstərə bilirmi? Yaxından tanıdığım insanlar düşür yadıma. Onları görəndə dağları, dağları görəndə onları xatırlamışam...**



Dağlar ucalıq rəmzidi, qürur rəmzidi, duyanlar üçün həm də heyrət rəmzidi. Uşaqlığı, yeniyetməliyi, ilkin gəncliyi dağlarla ünsiyyətdə keçənlərlə kəlmələşəndə bir daha əmin olmuşam ki, düşüncələrində dağ amili olanların gəncliyi dağla, dağ ifadəsinin yozumu ilə taraz formalaşır. Dağları həm də buna görə sevmişəm: dağların duruşunda gördüyü qürur, əzəmət, mərdlik, əyilməzlik insanın könül dünyasının səyyarəsinə dönür...

Əsgülüm dağı Zəngilanın Keçikli kəndinin sıx meşələrinin, buz bulaqlarının, əsrarəngiz çəmənlərinin, biçənəklərinin keşikçisidi. Əsgülümdən əsən yellər Keçiklinin özünün də, Keçikli uşaqlarının da könül dünyasına sığal çəkib. Xuduş Əmən oğlu İsgəndərov 1940-cı il mayın 2-də anadan olub. Altı yaşında atasızlıq ağrısı yaşayacağı illərin göynərtisinə çevrilib.

Xuduş İsgəndərov Keçikli kənd məktəbinin yeddinci sinfini 1954-cü ildə bitirib (Bu məktəb mənim də ömürlüyümün bir zərrəsi olub. İllər sonra – 1980-ci ildə bu məktəbdə 3 ay mən də müəllim işləmişəm). Təhsilini Pircivan kənd orta məktəbində (indiki Zəngilan şəhər orta məktəbində) davam etdirib. Orta məktəbi 1957-ci ildə fərqlənmə ilə bitirib.

Müharibədən sonra ailələrin əksəriyyətinin təhsildən daha çox güzəran qayğıları vardı. Xuduş İsgəndərov da Kənd Təsərrüfatı Nazirliyinin nəzdində texniki peşə məktəbində taxıl məhsullarının analizi üzrə laborant peşəsinə yiyələndi. Öz istəyidimi, məsləhətmi görmüşdülər? – deyə bilmərəm, amma yanılmamışdı. O, 1958-ci ildə Bakıdakı 2 nömrəli un dəyirmanında laborant kimi işə başladı. Həmin gün xəyalən atasının ruhu ilə danışdı: "Böyüdüm, ata, bu gündən işləyirəm..."

1959-cu ilin aprelində Zəngilana qayıdıb. Mincivan qəsəbəsində pambıq qəbulu məntəqəsində laboratoriya müdiri vəzifəsinə təyin olunub. Bacarıqlı kadr, məsuliyyətli gənc kimi tanınıb, ona inanıblar və güvəniblər də...

Könül sirrini kimsəyə açmayan dünyadır. Könüllərdən nə keçdiyi deyilməsə bilinməz. Texniki peşə məktəbində təhsil alanda da, Bakıda işləyəndə də, Mincivanda laboratoriya müdiri olanda da Xuduşun ürəyində bir niyyət vardı: müəllim olmaq. Bu niyyət nə vaxt yaranıbmış? – kimsə bilmədi. 1960-ci ildə sənədlərini H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universiteti) biologiya və kənd təsərrüfatı istehsalının əsasları fakültəsinə verdi, qəbul olundu.

1965-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdi. Zəngilanlı dünyasının işığı çəkirmiş onu. Əsgülümə bir vəfa borcu vardı Xuduş Əmən oğlunun. Orta təhsil aldığı Zəngilan qəsəbə orta məktəbinə biologiya müəllimi təyin olundu.

Sevgi varsa, uğur var, sevgi varsa, sevilmə də var. Xuduş bacarıqlı müəllim kimi tanındı. Tədris etdiyi fənni sevdirə bildiyinə görə sevildi. Rayon rəhbərliyi belə bir təşəbbüskar müəllimin raykomda işləməsini məsləhət bildi. O illərdə kadrlarda bilik və bacarıq öz yerində, siyasi dünyagörüş də zəruri amil idi. Xuduş müəllim belə tanınırdı. 1966-cı il sentyabrın 28-də Zəngilan Rayon Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsinin təlimatçısı vəzifəsinə irəli çəkildi.

X.İsgəndərov RPK-də işlədiyi iki il ərzində dərin biliyi və yüksək təşkilatçılığı ilə rayon ziyalıları və zəhmətkeşlərinin hörmətini qazandı. Pedaqoji təhsili, partiya işindəki bacarığı və təşəbbüskarlığı nəzərə alınaraq rayon maarif şöbəsində metodiki kabinetin müdiri vəzifəsində işləməsi tövsiyə edildi. 1968-ci ildən 1971-ci ilədək metodiki kabinetin müdiri oldu. Buradakı uğurlu fəaliyyəti nəzərə alındı, 1973-cü ildə Bakı Ali Partiya Məktəbinə göndərildi.

Ali partiya məktəbini fərqlənmə diplomu ilə bitirəndən sonra 1975-ci ildə Zəngilan RPK-də siyasi maarif kabinetinin müdiri vəzifəsinə irəli çəkildi. Eyni zamanda, ictimai əsaslarla RPK-nin partiya komissiyasının sədri vəzifəsini də yerinə yetirdi. Burada da özünü bacarıqlı, səmimi bir kadr kimi doğrultdu, rayon ictimaiyyətinin dərin hörmətini qazandı...

Xuduş müəllim 1988-ci ildə Zəngilan rayon avtonəqliyyat müəssisəsinin müdiri vəzifəsinə təyin olunanda siyası-maarif kabinetirnin müdiri vəzifəsində onu mən əvəz etdim. Onun nə qədər təmiz və məsuliyyətli kadr olduğunu bir daha yəqin etdim.

Sonrakı iki ildə 144 №-li peşə məktəbində direktorun tərbiyə işləri üzrə müavini kimi əmək fəaliyyətini davam etdirib. 1992-ci ilin fevralından 2019-cu ilin fevralınadək Bəsitçay Dövlət Təbiət Qoruğunun direktoru işləməklə yanaşı, elmi işlə də məşğul olurdu. O, bir monoqrafiya və on elmi əsərin müəllifidir. "Azərbaycanın Arazboyu dağətəyi düzən rayonlarında payızlıq taxıl əkinlərinin alaqlarına qarşı kimyəvi mübarizə tədbirləri" barədə əldə etdiyi elmi təcrübə bu gün təsərrüfatlarda geniş tətbiq olunmaqdadır.

Səmərəli əmək və elmi fəaliyyətinə görə X.İsgəndərov 2010-cu il mayın 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilib. 2009-cu ildən Zəngilan rayon Ağsaqqallar Şurasının sədri olan Xuduş İsgəndərov "Heydər Əliyevin anadan olmasının 100 illiyi ( 1923-2023)" yubiley medalı ilə təltif olunub.

Xuduşu tanıyanlar həmişə bu qürurla, bu saflıqla, bu sadəliklə tanıyıb. Xuduş müəllim hamıya xeyirxahlıq eləməklə yaşayıb, indi də belə yaşayır. "Ahıllığın xeyirxahlığı daha gərəkli və bir qədər də kövrək olur" – deyir Xuduş müəllim.

***Bayram MƏMMƏDOV,***
***Əməkdar müəllim***

GÜNÜN SUALI

# Rəqəmsal yorğunluq nədir?

**Elm və texnologiyanın inkişafı ilə bağlı onun zərərli tərəfləri də müşahidə olunur. Qadcetlərdən və rəqəmsal xidmətlərdən daimi istifadə nəticəsində həddindən artıq yüklənmə rəqəmsal yorğunluq sindromunun yaranmasına gətirib. Müasir dövrdə insanların 80 faizindən çoxu özünü telefonsuz və onlayn ünsiyyətsiz təsəvvür etmir.**



Buna görə də ətrafımızda olanların əksəriyyəti bu gün halsızlıq, fiziki və rəqəmsal yorğunluq sindromu yaşayır. Təhlükəli odur ki, daha çox gənclər qadcetlərdən daimi istifadə və internetdə olmaq nəticəsində yaranan fiziki və emosional tükənmə vəziyyətindən şikayətlənirlər. Bu, təkcə gözlərin, beyinin yorğunluğu deyil. Rəqəmsal yüklənmə səbəbindən orqanizmin ümumi fəaliyyəti kompleks şəkildə pozulur.

**Bəs rəqəmsal yorğunluq necə yaranır?**

Bu suala nevroloqların bir cavabı var: İnsan beyini orta istifadəçinin internetdə gündəlik gördüyü reklam mesajlarının sayını faydalı şəkildə emal etmək iqtidarında deyil.

**Diqqət daim dəyişir** – Təxminən, hər 6–8 dəqiqədən bir bəzi bildirişləri və ya xəbər resurslarını, yaxud, işə aid olmayan bəzi digər məlumatları oxumaqla diqqət yayınır. Zamanla bu, dəqiqləşdirmənin, konsentrasiyanın azalmasına səbəb ola bilər. Bundan əlavə, şəbəkə məzmununun bu cür "istehlakı" məhsuldarlığa da ciddi və neqativ təsir göstərir.

**Ekranlardakı mavi işıq** – bu işıq yuxuya getmə ilə bağlı problemləri aradan qaldıran melatonin istehsalını boğur və yuxunun keyfiyyətini pisləşdirir. Eyni zamanda, dərin yuxunun müddətini azaldır.

**Rəqəmsal yorğunluğa daha çox həssas olanlar** – gündə 8 saat və ya daha çox vaxtını kompüter arxasında olan ofis işçiləri, günün ən azından 6 saatını sosial mediada keçirən yeniyetmələr və onlayn – məsafədən işləyən insanlardır.

**Rəqəmsal yorğunluğun əsas simptomları** – baş ağrıları, gözlərdə quruluq və qızartı, boyun və bel ağrıları, yuxusuzluqdur. Bundan başqa, simptomlara emosional əlamətlər – qıcıqlanma, getdikcə artan narahatlıq, apatiya, motivasiyanın azalması və psixoloji pozğunluqlar daxildir.

ÜST-nin məlumatına görə, həddən artıq rəqəmsal yüklənmə insanlarda depressiya və narahatlıq pozuntuları riskini artırır.

Mütəxəssislərin fikrincə, qadcetlərdən daimi istifadə etmək və beynimizin yerinə yetirməli olduğu funksiyaları onlarla həyata keçirmək bizi kütləşdirə bilər. Daim internetdən istifadə edənlərdə yaddaş, öyrənmə qabiliyyəti və yaradıcı təfəkkür pisləşə bilər.

Həkimlər, ilk növbədə, hər kəsin öz rəqəmsal vərdişlərindən xəbərdar olmağını və beyinə davamlı olaraq daxil edilən "məlumat səs-küyündən" ara verməyi tövsiyə edirlər.

Nevroloqların fikrincə, yorğunluq zamanı rəqəmsal detoksdan istifadənin də faydası böyükdür. Belə ki, gündə 1–2 saat telefonsuz vaxt keçirmək və müəyyən saatlarda bildiriş funksiyasını söndürmək məsləhətdir.

Bundan başqa, 20–20–20 qaydasına əməl etmək də faydalıdır. Yəni, hər 20 dəqiqədən bir ekrandan 20 metr uzaqlıqdakı obyektə 20 saniyə müddətində baxmaq lazımdır.

Onlayn məzmun şüurlu şəkildə təmizlənməlidir:

***– Az istifadə etdiyiniz proqramları silin.***

***– Sosial mediada keçirdiyiniz vaxtı məhdudlaşdırın.***

***– Fiziki cəhətdən aktiv olun.***

***– Telefonsuz gəzintiyə çıxın.***

***– Göz məşqləri edin: bəbəyi saga–sola–yuxarı–aşağı–dairəvi və əks istiqamətə hərəkət etdirməklə gözlərin yorğunluğunu aradan götürün.***

***Zərifə HÜSEYNOVA***
***XQ***

# "Nemesis" haqqında bir neçə söz

**Bu kitabın ilk bir neçə səhifəsini oxumaq kifayətdir ki, öz üslubuna, yazı və dünyanı qavrama manerasına, bununla paralel olaraq, öz dünyasını yaratmaq və onun bədii təqdimatını vermək bacarığına görə tam fərqli bir müəlliflə üz-üzə durduğunun fərqinə varasan. Biləndə ki, həmin müəllifin cəmi iyirmi altı yaşı var, heyrətlənməmək mümkün deyil. Bəs onu başqa yazıçılardan fərqləndirən nədir? Cavab çox uzun ola bilər, amma mən qısa deməyə çalışacağam:**




– Azərbaycan nəsrinin çoxdan daşlaşmış ənənəvi bağlarını cəsarətlə qırıb ədəbiyyata yeni yanaşmalarla gəlməsi;

– xarici konfliktlərdən imtina edib daxili konfliktə, hisslər dünyasına üstünlük verməsi və əminliklə deyirəm – uğur qazanması;

– mətn boyu müəllif "mən"inin daim hiss olunması və onun yaratdığı personajların içində əriməsi, hətta eyniləşməsi...

Qisas ilahəsi Nemesisin adını daşıyan romanın ən maraqlı cəhətlərindən biri müəllifin yaratdığı qəhrəmanı yazıçı Yasonun yazmaqda olduğu əsərdə boy göstərən personajların əsərin əsas və real qəhrəmanları ilə ünsiyyəti, onların bir-birinin həyatında və əməllərində iştirakı, hətta əlyazmanın sıradan çıxarılması nəticəsində hansısa uyğun personajın məhv olması və ya psixoloji sarsıntılara uğramasının çox maraqlı epizodlarla təqdimatıdır.

İyirmi altı yaşlı İmranın 21 yaşında yazdığı "Nemesis" əsəri kəskin dramatik süjetə hesablanmayıb. Burada həyat, insan, gənclik, qocalıq, ömrün mənası, dünyanın məzmunu, qadın-kişi münasibətlərinin dərin psixoloji qatlarının çox fərqli ifadəsi, bədbəxtlik və xoşbəxtlik kimi fikirlər, insan və insanlıq haqqında ümumiləşdirmələr diqqətdən yayınmır.

Ümumiyyətlə, bu əsər haqqında danışanda, ilk növbədə, ağıla gələn fikir axını, ifadə sərbəstliyi və hisslərin zənginliyidir...

Burada sözümü bitirib gənc yazıçının ilk kitabını oxuculara təqdim etməklə bərabər müəllifə böyük yaradıcılıq uğurları arzulayıram.

***Əli ƏMİRLİ,***
***yazıçı – dramaturq,***
***Əməkdar incəsənət xadimi, professor***

*Xüsusi olaraq "Xalq qəzeti" üçün*

# İgidlər oylağı, bayrağın sancağı Xankəndi

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəvəti ilə İraq və Suriya türkmənlərindən ibarət nümayəndə heyəti "Türkmən mirası: sivil toplum dayanışması" konfransına qatılmaq məqsədilə Bakıda olub. "XQ" heyət üzvlərinin Şuşaya səfəri barədə məlumat vermişdi. Bu dəfə İraq Türkmən Jurnalistlər Cəmiyyəti xarici əlaqələr şöbəsinin müdiri, doktor Kürşat Çavuşoğlunun Xankəndi səfəri ilə bağlı özəl qeydlərini oxucuların ixtiyarına veririk.**

Qarabağın ən böyük şəhəri Xankəndiyə səfərimiz hafizəmdə dərin izlər buraxdı. Bələdçimizdən öyrənirik ki, 1991-ci ildən Ermənistanın işğalı altında olan Xankəndini Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-da Qarabağda başladılan və 23 saat davam edən anti-terror əməliyyatından sonra azad edib. İndi qədim Azərbaycan torpağı olan Qarabağın hər yerində, o cümlədən Xankəndinin üzərində üçrəngli bayrağımız dalgalanır.

Daha sonra türkmən heyəti Xankəndi şəhərində yeni qurulmuş, azərbaycanlı gənclərə yüksək təhsil verməyə başlayan Qarabağ Universitetini ziyaret etdi. Universitetin rektoru Şahin Bayramov bu yeni təhsil ocağının normal fəaliyyət göstərməsi üçün dövlət tərəfindən hər cür şəraitin yaradıldığını söylədi. Biz universitenin laboratiya və kitabxanasını gəzdik, dərsliklərlə tanış olduq. Heyətin üzvləri Azərbaycanın müasir elm və təhsil yolunda atdığı uğurlu və qətiyyətli addımları əyani şəkildə, həm də yerində görməkdən böyük qürur və məmnunluq duydular. Ziyarət zamanı türkmən heyətinin üzvləri Qarabağ Universiteti ilə Türkmən akademiyaları arasında elmi-mədəni ortaq layihələrlə akademik əməkdaşlığı gücləndirməklə bağlı öz baxışlarını bildirdilər. Hörmətli rektora qonaqqpərvərliyi üçün təşəkkür borcumuz var.



### Azərbaycan igidləri Qarabağı yağıdan azad etdi

Azərbaycan Prezidenti İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə yaradılan Qarabağ Universitetinin təməl hədəfi bölgənin sosial-iqtisadi vəziyyətinə uyğun olaraq pedaqoq ehtiyacını ödəməkdir. Xankəndinin göbəyində qərar tutmuş universitet Elm və Təhsil Nazirliyinin muxtar statusa malikdir. Onun bu statusu Azərbaycan Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli qərarı ilə təsdiqlənib. 2024-cü il sentyabrın 23-dən etibarən 1,154 tələbə, 6 fakültə və 27 şöbə ilə ilk tədris ilinə başlayıb. Bu universitetin hədəfləri arasında cəmiyyətin sosial, iqtisadi, texnoloji və mədəni həyatında mühüm rol oynayacaq, beynəlxalq miqyasda tanınacaq, müasir elm, təhsil və sənət mərkzlərindən birinə çevrilmək yer alır.

Qarabağ Universitetinin əsas missiyası isə ölkənin gələcəyə yönəlik sosial, iqtisadi və mədəni inkişafına öz töhfəsini verməkdir. Buna görə, universitet müasir elmi araşdırmalar aparmağı, çağdaş problemlərin yeni həll yollarını tapmağı, dünya standartlarına uyğun yüksək intellektli mütəxəssislər yetişdirərək dövlətə və xalqa faydalı xidmət göstərməyi özünün proqramı kimi qəbul edib.

2023-cü ilin sentyabrında 23 saata Ermənistan silahlı qüvvələrinin Qarabağdan çıxmağa tələsməyən 15 minlik tör-töküntüsünün müqavimətini qıran Azərbaycan Ordusu bununla 2020-ci ildə yarımçıq qalmış işi başa çatdırdı, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Bir il səkkiz ay bundan əvvəl Azərbaycan, Xankəndi daxil olmaqla, bütün torpaqları üzərində nəzarətini və təhlükəsizliyini təmin etdi. Bununla da Xanın kəndindəki separatçı rejim çökdü, onun "liderləri" isə bunu rəsmən bəyan etdilər. Qarabağın 1992-ci ildən bəri davam edən erməni işğalına son qoyuldu, üçrəngli bayraq şəhərin ən hündür nöqtəsinə sancıldı.

### Hayların qulağına taxılan "sırğa"

SSRİ-nin dağıldığı və müstəqilliyini qazandığı o çətin dövrdə Azərbaycan naxələf qonşusu Ermənistanın "pis sürprizi" ilə qarşılaşmalı oldu. Yəni siyasi, iqtisadi, sosial xarakterli problemlərlə üzləşmiş Azərbaycan, üstəlik, işğalçı Ermənistanla mücadilə etməyə məcbur oldu. Yüz il əvvəl Azərbaycanın tarixi torpaqları hesabında heçdən qurulan Ermənistan bu dəfə Qarabağa iddia etmək kimi həyasıqlığını sərgilədi. Sovetlər birliyi dağılanda böyük ərazilərini itirən Rusiya isə keçmiş SSRİ coğrafiyasında hegomonluğunu davam etdirməyin ən asan yolu kimi etnik qarşıdurmalara rəvac verməyə başladı. Milli zəmində körükləndirilən münaqişə ocaqlarından biri olmaq Qarabağın bəxtinə düşmüşdü. Moskva məhz bu səbəbdən Ermənistanı hər cəhətdən dəstəkləyirdi. Hayların 1988-ci ildən etibarən başladıqları Qarabağa iddiaları işğalla yekunlaşdı. Bölgənin aborigen sakinləri – azərbaycan türkləri hər cür işgəncəyə, soyqırımına məruz qaldı. Ölən öldü, sağ qalanlar isə öz yurdlarında köçkünə, qaçqına döndülər. Dünya xəritəsində nöqtə boyda olan Qarabağ Azərbaycan üçün böyük yaraya çevrilərək 30 ilə yaxın Ermənistanın işğalı altında inlədi.

Amma zülmün, istibdadın, işğalın da bir sonu olur. İndi Ermənistanın baş naziri Nikol Paşinyanın "Azərbaycanın 86 min 600 kilometrlik ərazi bütövlüyünü tanıyırıq" açıqlaması hayların qulağına taxılan sırğa kimi batır.

### Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Səfərimiz zamanı ünsiyyətdə olduğumuz insanlardan eşitdiklərimiz bizdə qəti qənaət formalaşdırdı: Azərbaycan türkləri Ermənistanın 30 il sürən işğal məşəqqətinə baxmayaraq, doğma yurdlarından bir gün deyil, bir saniyə belə vaz keçmədilər. On illərcə davam edən mücadilə və yaşanan acılar mütləq özünün məntiqi sonluğuna çatmalı, Qarabağ özünün əvvəlki azadlığına qovuşmalı idi. Artıq qardaşlarımız "Qarabağ Azərbaycandır!" nidasını bütün dünyaya qəbul etdirib. Bu gün üçrəngli Azərbaycan bayrağı qədim türk yurdu Qarabağın hər guşəsində dalğalanır.

Vətən torpağından bir an belə vaz keçməyən Azərbaycan xalqı, onun Ali Baş komandanı və müzəffər ordusu Qarabağı erməni işğalından birdəfəlik qurtardı. Bununla da Qarabağ özü də həqiqi sahibləri olan Azərbaycan türklərinə qovuşdu. Azərbaycan igidləri xalqın illərlə davam edən acısına, Vətən həsrətinə də son qoydu. Haqq edilərək qazanılan Zəfər Azərbaycanın özü qədər də Türk dünyasını sevindirdi. Bəli, bu Zəfər, sadəcə tək Azərbaycanın deyil, eyni zamanda, bütün Türk dünyasının zəfərinə çevrilmiş oldu.

Şair gözəl deyib: Bayraqları bayraq yapan üstündəki qandır, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Doğma torpağını işğaldən qurtaran, Vətəninin bölünməzliyi, bütövlüyü uğrunda canlarını sevə-sevə fəda edən şəhidlərimizin əziz xatirəsini minnətlə, rəhmətlə anırıq.

***Kürşat ÇAVUŞOĞLU,***
***İraq Türkmən Jurnalistlər Cəmiyyətinin xarici əlaqələr şöbəsinin müdiri***

## Xırdalan məktəbliləri Polis Akademiyasında



**Abşeron rayonunun Xırdalan şəhər məktəbliləri Daxili İşlər Nazirliyinin Polis Akademiyasında keçirilən "Açıq qapı" tədbirində iştirak ediblər.**

Şagirdlər akademiyada yaradılmış təhsil şəraiti – tədris korpusları, kriminalistika şəhərciyi, mühazirə zalları, "Məhkəmə zalı", "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, elektron kitabxana, kursant yeməkxanası, qapalı atıcılıq tiri və krossfit meydançası ilə tanış olublar.

Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və burada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, həmçinin rəsmi saytda yerləşdirilmiş "Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə tanış olmaq imkanı şagirdlərin nəzərlərinə çatdırılıb. Məktəblilərin akademiyaya qəbulla bağlı sualları cavablandırılıb.

"Açıq qapı" tədbirində iştirak edən təhsil məsələləri üzrə ekspert Vüsət Əzizov "Xalq qəzeti"nə deyib ki, Polis Akademiyasında kursantların məişət şəraiti yüksək səviyyədə təmin edilib və təhsilin təşkili isə dünya təcrübəsinə uyğun standartlar əsasında həyata keçirilir: "Açıq havada olan idman meydançaları və qapalı idman zalı lazımi ləvazimat və avadanlıqlarla təmin edilib, ən son texnoloji yeniliklərdən istifadə olunur. Kursantların yüksək səviyyədə təhsil alması və peşəkar polis zabiti kimi yetişməsi üçün digər bütün zəruri şərait yaradılıb. Bütün bunların əyani şəkildə şahidi olduq".

***Rizvan FİKRƏTOĞLU***
***XQ***



## Növbəti "Ulduz"lu görüş

**"Ulduz" jurnalı və "Xalq qəzeti"nin birgə layihəsi olan "Ulduz"lu görüşlər" davam edir. Bu çərçivədə Azərbaycan Universitetinin təcrübəçi tələbələri Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda tanınmış şair, yazıçı və publisist, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənli ilə görüşüblər.**

"Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsin təşəbbüsü ilə təşkil edilən görüş zamanı bu redaksiyada təcrübə keçən tələbələr şairin yaradıcılığı ilə yaxından tanış olublar. Tədbirdə Vaqif Bəhmənli öz yaradıcılıq yolundan, müasir ədəbiyyatdakı tendensiyalardan və gənc yazarların qarşısında duran vəzifələrdən bəhs edib. Tələbələrin çoxsaylı suallarını cavablandıran şair onların yaradıcılıqla bağlı fikirlərini dinləyib, dəyərli məsləhətlər verib.

Jurnalın baş redaktoru, Əməkdar jurnalist Qulu Ağsəs gənclərin ədəbi fəaliyyətə təşviqi və yazı mədəniyyətinin formalaşdırılmasında bu cür tədbirlərin rolunu vurğulayıb. O, Azərbaycan Universiteti ilə yaradılmış əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini bildirib.

***XQ***

## "Simurq Kompani" ASC səhmdarlarının nəzərinə!

2025-ci il iyunun 28-i saat 12.00-da "Simurq Kompani" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Simurq Kompani" ASC-nin 2024-cü ildəki idarəetmə fəaliyyəti haqqında hesabatı.
2. "Simurq Kompani" ASC təftiş komissiyasının 2024-cü ilin yekunlarına dair hesabatı.

Səhmdarlar ümumi yığıncağın gündəliyindəki məsələlərlə yığıncağın keçirilməsinə 3 gün qalmışa qədər cəmiyyətin ofisində tanış ola bilərlər.

Ümumi yığıncaq Gəncə şəhəri, Heydər Əliyev prospekti 170 nömrəli ünvanda – cəmiyyətin ofisində keçiriləcəkdir.

***"Simurq Kompani"ASC-nin Müşahidə Şurası***

## Ləğvetmə prosesində olan "Bakı İxtisaslaşdırılmış Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

4 iyun 2025-ci il saat 10.30-da "Bakı İxtisaslaşdırılmış Nəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 11 yanvar 2025-ci ildə keçirilmiş səhmdarların növbəti ümumi yığıncağında qəbul olunmuş qərarların təsdiq edilməsi.
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu – 051–306–66–98.

Ünvan – Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Zəki Məmmədov küçəsi 3.

## "Elektrikməişətcihaz" ATSC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11.00-da "Elektrikməişətcihaz" ATSC səhmdarlarının növbəti ümumi yığınacağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. 2023-2024-cü illərin mühasibat balansının və illik hesabatın təsdiqi.
2. Səhmdar cəmiyyətinin müşahidə (direktorlar) şurasının, idarə heyətinin və maliyyə-təftiş komissiyasının yeni üzvlərinin seçilməsi.
3. Digər cari məsələlərin müzakirəsi.

Ümumi yığıncaqda səhmdarların iştirakı məqsədəuyğundur.

Telefon – 012-448-35-40.

Ünvan – Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Lökbatan–Xocasən yolunun 9-cu kilometri.

## "CƏNUB" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 11.00-da "CƏNUB" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyatov küçəsi 10T nömrəli ünvanda "Ellada" Şadlıq Sarayında keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Seçkili orqanların yenidən formalaşdırılması.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək +994-50-325-27-17 nömrəli telefonla əlaqə saxlayıb tanış ola bilərlər.

## "Bakavtoservis" ASC səhmdarlarının nəzərinə!

18 iyun 2025-ci il saat 12.00-da səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və təsdiqi.
2. Cəmiyyətin direktorlar (müşahidə) şurasının üzvünün dəyişdirilməsi.
3. Təftiş komissiyasının üzvünün dəyişdirilməsi.

Əlaqə telefonu – (012) 478-76-07.

Ünvan – Bakı, Suraxanı rayonu, Zığ qəsəbəsi, Zığ–Suraxanı yolu, 2-ci km 10.

***"Bakavtoservis" ASC***

## "Faxraküş Şərab" ASC səhmdarlarının nəzərinə!

8 iyun 2025-ci il saat 11.00-da "Faxraküş Şərab " ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin yekunlarına aid idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

Yığıncağın keçiriləcəyi ünvan – Bakı şəhəri, M.Ə.Rəsulzadə qəsəbəsi, şəhid R.Aboyev parkı.

## "Bakı Neft Mədən Avadanlıqları" ASC səhmdarlarının nəzərinə!

20 iyun 2025-ci il saat 10.30-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Bütün səhmdarların iştirakı vacibdir.

Ünvan – Bakı şəhəri, Suraxanı rayonu, Bülbülə qəsəbəsi, Aşurbəyovlar küçəsi 112.

***İdarə heyəti***

## "Suraxanı Avtomotoservis" ASC səhmdarlarının nəzərinə!

24 iyun 2025-ci il saat 11.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Bütün səhmdarların iştirakı vacibdir.

Ünvan – Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, E.Bəkirli küçəsi 4041.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 89 (30783) 3 may 2025-ci il, şənbə

# Suqovuşanda başlayan su yarışı Mingəçevir dənizində başa çatdı

## "Prezident Kuboku-2025"də yığmamız 15 medal qazandı



**Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında keçirilən daha bir beynəlxalq yarış – ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş "Prezident Kuboku-2025" beynəlxalq reqatası böyük uğurla başa çatıb.**

Yarışın startı Qarabağın dilbər guşələrindən olan Suqovuşanda verilib. İştirakçılar bununla Qarabağ bölgəsi ilə tanış olmaq fürsəti qazanıblar. Onlar Suqovuşan və Köndələnçay ərazilərində keçirilən dünya turnirindən məmnun qalıblar. Yarış daha sonra Mingəçevirdə "Kür" Olimpiya Tədris-İdman Mərkəzində davam edib. 20-dən çox ölkədən 200 nəfərdən artıq atlet avarçəkmə, kayak və kanoe üzrə yarışlarda gücünü sınayıblar. Yüksək səviyyədə təşkil edilən reqatada idmançıların öz güclərindən maksimum istifadə etmələri üçün hər bir şərait yaradılıb. Yarışın təşkili ilə bağlı beynəlxalq qurumların rəsmiləri, o cümlədən iştirakçı komandaların nümayəndələri dəyərli fikirlər səsləndirdilər.

**Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana** avarçəkməni yüksək səviyyədə inkişaf etdirmək üçün Azərbaycanda xüsusi yerlərin çox olduğunu bildirdi. Ölkəmizin bu cür yarışlarda yüksək təşkilatçılığını qeyd edən qurum rəsmisi dedi ki, gələcəkdə Avropa çempionatı da Azərbaycanda keçirilə bilər.

**Litva millisinin baş məşqçisi Rimas Sukaçkas** yarışın təşkilatçılığını çox bəyəndiyini, mütəxəssislərimizin peşəkar olduqlarını dedi. Qeyd etdi ki, hər bir idmançının öz potensialını göstərməsi üçün bütün imkanlar yaradılıb.



**Türkiyə yığmasının baş məşqçisi Uğur Sevər** Azərbaycanda möhtəşəm qonaqpərvərlik gördüyünü söylədi. Ölkəmizdə ilk dəfə olduğunu deyən qardaş ölkənin təmsilçisi bildirdi ki, yarışla bağlı iştirakçıların heç bir çətinliklə qarşılaşmayıblar. Könüllülər hər zaman iştirakçıların yanında olub, onlara dəstək göstəriblər: "Turnirdə güclü rəqabət var idi. İdmançılar finiş xəttinə bir-birlərinə yaxın göstəricilərlə çatırdılar. Bu yarış həm də yığmamızın üzvləri üçün gözəl təcrübə oldu".

"Prezident Kuboku-2025"də yığmamızın iştirakına gəldikdə, onu qeyd etməliyik ki, komandamızın nəticələri ürəkaçandır. Turnirin əvvəlki 2 günündə 8 mükafat (3 gümüş, 5 bürünc) əldə edən yığmamız, son gündə daha 7 (3 gümüş, 3 bürünc, 1 qızıl) medal qazanıb. Bununla da, komandamız yarışı 15 mükafatla başa vurub.

**Azərbaycan avarçəkmə yığmasının kayak növü üzrə böyük məşqçisi Mirnazim Cavadov** nəticələrin yüksək olacağını əvvəlcədən proqnozlaşdırdıqlarını vurğuladı. O, təmsilçimiz Əlimurad Hacızadədən qızıl medal gözlədiklərini, idmançımızın ümidləri doğrultduğunu söylədi. Baş məşqçi növbəti hədəflərinin Avropa və dünya çempionatlarında da fəxri kürsüyə qalxmaq olduğunu deyib.

**1000 metr məsafəyə mübarizədə fəxri kürsünün ən yüksək pilləsinə qalxan Əlimurad Hacızadə** özü isə reqatanın çox gərgin mübarizə şəraitində keçdiyini dedi: "Yarış ərzində əlimdən gələni etdim. Rəqiblərim hər il qarşılaşdığım idmançılar idi. Lakin buna baxmayaraq, bu dəfə özümü daha yaxşı tərəfdən göstərdim. Ötən illə müqayisədə daha yaxşı çıxış edərək, öz bacarığımı nümayiş etdirdim".

**1500 metr məsafədə gümüş medal qazanan təmsilçimiz Nurlan Paşayev** qeyd etdi ki, belə bir yarışda mükafata sahib olduğu üçün şaddır. Amma bu, qızıl medal ola bilərdi. Növbəti turnirlərdə daha diqqətli olmaq tələb olunur.

Yarışlar başa çatdıqdan sonra reqatanın bağlanış mərasimi keçirildi. Əvvəlcə qaliblər mükafatlandırıldılar. Kayak-kanoe və akademik avarçəkmə üzrə kuboklar sahiblərinə təqdim edildi. Mərasim bədii hissə ilə davam etdi.

*Leyl@ URBANOVA*
*XQ*

İdman

# "Traktor" – çempion



**Təbrizin "Traktor" komandası tarixində ilk dəfə İran çempionu olub.**

Cənubi Azərbaycan klubu dünən keçirilən XXVIII turda səfərdə "Şams Azər"ə 4-0 hesabı ilə qalib gəlib.

Bu nəticədən sonra 64 xalla turnir cədvəlinə başçılıq edən "Traktor" sona iki tur qalmış ən yaxın izləyicisi "Sepahan"ı 8 xal qabaqlayaraq çempionluğu bayram edib.

*XQ*

## Avropa çempionatında 6 medal



**Azərbaycanın bodibildinq yığması İspaniyanın Santa Susanna şəhərində keçirilən Avropa çempionatında ilk mükafatlarını qazanıb.**

Yarışın ilk günündə komanda 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Tərlan Əliyev həm yeniyetmələr, həm də böyüklər arasında "Mens Physique" yarışında birinci olmaqla ikiqat qələbə qazanıb. Eyni yarışda çıxış edən Əhməd Quluzadə də iki dəfə fəxri kürsüyə qalxaraq yeniyetmələr arasında gümüş, böyüklər arasında bürünc medallara sahib çıxıb. Digər boy kateqoriyasında "Mens Physique" yarışında Şirin Orucov üçüncü yeri tutub.

İlyas Abdullayev isə klassik bodibildinqdə bürünc medal qazanıb.

## "Böyük dəbilqə"nin ilk günündə 1 medal

**Tacikistanın paytaxtı Düşənbədə cüdo üzrə "Böyük dəbilqə" turniri başlayıb.**



Azərbaycan komandası yarışın ilk günündə 1 medal qazanıb. Kişilərin yarışında Balabəy Ağayev (60 kq) bütün rəqiblərini məğlub edərək finala yüksəlib. Həlledici mərhələdə tacikistanlı Muhammadsoleh Quvatovu məğlub edərək qızıl medal qazanıb.

Qeyd edək ki, yığmamız yarışa 8 cüdoçu ilə yollanıb.

*LA ZAD*
*XQ*

# Gəncə gülüstana dönür...

## *Şəhərdə III MDB oyunlarına ciddi hazırlıq aparılır*

**Gəncə böyük imtahan qarşısındadır. Şəhərin tarixində ilk dəfədir ki, belə bir mötəbər idman yarışları keçiriləcək. Təkcə MDB respublikalarından gələn qonaqların sayı 5-6 min nəfər olacaq. Hələ xarici ölkələrdən dəvət alan idmançıları da nəzərə alsaq, sentyabrın sonları və oktyabrın birinci ongünlüyü şəhərdə necə qələbəliyin yaranacağını təsəvvür etmək çətin deyil.**



Gəncədə bu böyük bayrama hərə öz töhfəsini verir. Yollar asfaltlanır, binalar öz görkəmini dəyişir, park və xiyabanlar abadlaşdırılır.

Sizcə, belə bir vaxtda şəhəri gülsüz-çiçəksiz qoymaqmı olar?! Artıq qeran, petunya, türk qərənfili və digər mövsümi güllər bu gün Gəncə şəhərinin küçə və prospektlərini bəzəyir. Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin yaşıllaşdırma şöbəsinin tingçilik sahəsində yerli mütəxəssislər tərəfindən yetişdirilən müxtəlif adda güllərin Gəncənin müxtəlif ərazilərinə əkini həyata keçirilir. Şah İsmayıl Xətai prospektində yerləşən "Dəyirman dairəsi", Xan Bağı, Gəncənin şərq istiqamətindən giriş hissəsi, Nizami prospekti, ayrı-ayrı küçələr, yol kənarları göz oxşayır.

Qeyd edək ki, güllərin əkinindən əvvəl torpağa torf və müxtəlif gübrələr verilir. Bu da onların ömrünün uzun olmasına, xəstəliklərə tab gətirməsinə, həmişəyaşıl qalmasına kömək edir. Bundan başqa, əkin aksiyalarında mövcud yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, suvarılması təmin edilib. Yaz fəslinin gəlişi ilə əlaqədar Yaşıllaşdırma şöbəsi tərəfindən şəhər ərazisinə gül, kol və ting əkini aksiyasının hər ay davam etdirilməsi nəzərdə tutulur. Yaşıllaşdırma işlərinə qurumun əməkdaşları və müxtəlif təyinatlı texnikaları da cəlb edilir.

Ümumiyyətlə, Gəncə Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin Yaşıllaşdırma şöbəsinin gülçülük sahəsində yerli mütəxəssislər tərəfindən qış aylarından bəri yetişdirilən müxtəlif adda gül-çiçəklərin şəhərin müxtəlif ərazilərinə əkini davam etdirilir.

Bundan başqa MKTİB əməkdaşları tərəfindən Xan Bağında ağacların budama prosesi həyata keçirilib. İri və orta gövdəli ağacların budaqları aqrotexniki tədbirlər çərçivəsində budanaraq ərazidən xüsusi texnikalar vasitəsilə daşınması təmin edilib.

Yaşıllaşdırma şöbəsinin müdiri Elmar Əzizov deyir ki, biz Gəncəni başdan-ayağa gülə-çiçəyə bürüyəcəyik. Sadəcə sakinlərimiz də bu işlərdə bizə yardımçı olsalar, yaşıllığı qorusalar, Gəncənin gülünün-çiçəyinin ətri daim ətrafa yayılar, şəhər daha da gözəlləşər.

*Hm let QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Gəncə**

HAVA

# Küləkli, yağıntılı və dumanlı şənbə...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 3-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Mayın 4-nə keçən gecə isə yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 12-15°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var.



Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 19-24°, dağlarda gecə 2-7°, gündüz 7-12° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

✓ *" FEBA" Mənzil-Tikinti Kooperativi ilə Payçı Həsənov Elşad Həsən oğlunun arasında bağlanmış 20 fevral 2025-ci il tarixli G3-4-7 nömrəli binanın 000007407 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.*

✓ *2018-ci il yanvarın 29-da "AAAF-İnşaat" MMC ilə Umudlu Cavid Məhəmmədəli oğlu arasında bağlanmış AF-Z/0001 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov ASC "Xalq" Bankının müşahidə şurasının sədri Asim Məmmədliyə atası

**MAHMUD MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3428
SİFARİŞ 878
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00